**ƏRƏSTÜ HƏBİBBƏYLİ**

# GEOSİYASİ REALLIQLAR VƏ MULTİKULTURAL DƏYƏRLƏR

- 20152 -
Azərbayc Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİ ENT KİTABXANASI

"Elm və təhsil"
Bakı - 2017

**Elmi redaktor:** ***Samir Səttarov***
*sosiologiya üzrə fəlsəfə doktoru*

**Ərəstü Həbibbəyli.**
**Geosiyasi reallıqlar və multikultural dəyərlər.**
**Bakı, "Elm və təhsil", 2017, 160 səh.**

*Kitabda Azərbaycan Respublikasının xarici siyasəti və beynəlxalq əlaqələri üzrə təcrübəsi əsasında müasir dünyanın reallıqlarından bəhs olunur.*

*ISBN: 978-9952-8176-8-3*

© *"Elm və təhsil", 2017*

# MÜSTƏQİL AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ – 25

## AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ MÜSTƏQİLLİYİN BƏRPASININ 25 İLİNDƏ

***Bu günlərdə Azərbaycanın dövlət müstəqilliyini yenidən bərpa etməsinin 25-ci ili tamam olur. Keçən əsrdə iki dəfə müstəqillik qazanan Azərbaycan qədim və zəngin dövlətçilik ənənələrini davam etdirir. 1918-1920-ci illərdə cəmi 23 ay mövcud olmuş Azərbaycan Cümhuriyyəti Şərqdə ilk demokratik respublika kimi tarixə düşmüşdür. Yetmiş illik Sovet hakimiyyətindən sonra Azərbaycan Respublikası 1991-ci ilin 18 oktyabr tarixində yenidən suveren dövlət olaraq beynəlxalq münasibətlər sisteminin üzvü olmuşdur. Bir əsrdə iki dəfə suveren dövlət olmaq imkanı qazanan Azərbaycan üçün müstəqillik ən böyük nailiyyət və ən aziz nemətdir.***

Sovet İttifaqının süqutundan sonra yaranmış yeni geosiyasi vəziyyətin sabitləşməsi keçən əsrin son 10 ilində siyasi təlatümlər, qaynar münaqişələr, iqtisadiyyatda tərəddüdlər ilə müşayiət olundu. Bütün postsovet məkanında olduğu kimi, Azərbaycan da müstəqilliyinin bərpasının ilk illərinə düşən bu dövrü böyük çətinliklərlə keçdi. Məhz belə bir çətin və mürəkkəb şəraitdən başlanan müstəqil inkişaf yolu hazırda 25-ci ilinə qədəm qoymuşdur. Bu illər ərzində Azərbaycan iqtisadiy-

yatı iflic vəziyyətə düşmüş ölkədən Cənubi Qafqazın lider dövlətinə gəlib çatmışdır. Enerji təhlükəsizliyi sahəsində etibarlı tərəfdaşa, xarici ölkələrin yardımından asılı olan ölkədən donor dövlətə çevrilmişdir. Beynəlxalq münasibətlər sisteminin adi iştirakçısından BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü (2012-2013-cü illər) səviyyəsinə yüksəlmişdir.

***Əsrin dörddə birində xarici siyasət***

XX əsrin sonlarında Varşava Müqaviləsi Təşkilatının və Sovet İttifaqının süqutundan sonra dünya nizamında yeni mənzərə yaranmışdır. Beynəlxalq münasibətlər sistemində bu dövrü əhəmiyyətinə görə yalnız Vestfaliya sülh müqaviləsindən sonra formalaşmış siyasi sistemlə müqayisə etmək olar. Keçən əsrin 90-cı illərinin əvvəllərində baş verən dəyişikliklər yeni dünya nizamının yaranmasını şərtləndirdi. İkiqütblü dünyadan təkqütblü dünyaya keçid ciddi geosiyasi təlatümlərlə müşayiət olunurdu. Bütün dünyada lokal münaqişə və müharibə ocaqları yaranmağa başlamışdır. Təcrübə göstərir ki, yeni dünya nizamının formalaşma mərhələsində olması kiçik münaqişələrin əsas səbəbi idi. Eyni zamanda, böyük güc mərkəzlərinin hərbi-siyasi toqquşmalarının olmadığı bir dövrdə beynəlxalq hüququn prinsiplərinin nəzərə alınmaması, lokal münaqişələrə isə ədalətli yanaşmanın olmaması yeni dünya nizamı ilə bağlı şübhələrin yaranmasına gətirib çıxardı. Fikrimizcə, bu gün dünyada qaynar nöqtələrin sayının çoxalmasının, eləcə də artıq çoxqütblü dünyaya doğru keçidin yaranması da keçən əsrin sonlarında yaranmış fürsətin əldən verilməsi ilə əlaqədardır. Məhz belə bir geosiyasi şərtlər



daxilində 18 oktyabr 1991-ci ildə müstəqilliyini elan etmiş Azərbaycan Respublikası xarici siyasət sahəsində 25 ildə keşməkeşli yol keçmişdir. Müasir dövrdə hər bir dövlətin beynəlxalq münasibətlər sistemində layiqli mövqe tutaraq özünü bərabərhüquqlu tərəfdaş kimi təsdiqləməsi onun çağdaş dünya nizamının reallıqlarına cavab verən xarici siyasət yeritməsindən bilavasitə asılıdır. Müstəqil Azərbaycanın 25 illik həyatında xarici siyasətini 3 mərhələyə bölmək olar. Birinci mərhələ – müstəqilliyin ilk illərini xarakterizə edən xaos dövrü. İkinci mərhələ 1993-2003-cü illəri əhatə edir. Bu mərhələ qonşu dövlətlərlə kəskinləşən münasibətlərdə sabitləşmə və Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında müstəqil xarici siyasətin baza prinsiplərinin formalaşdırılması dövrüdür. Üçüncü mərhələ isə Azərbaycanı Cənubi Qafqazda lider dövlətə və beynəlxalq münasibətlərdə etibarlı tərəfdaşa çevirən xarici siyasi kursun yüksəliş dövrüdür. Müstəqilliyin ilk illərində Azərbaycan çox mürəkkəb və çətin dövr yaşayırdı. Bir tərəfdən, Ermənistan torpaqlarımızı işğal edirdi, digər tərəfdən isə keçmiş sistemin çökməsi ilə əlaqədar iqtisadiyyat iflic vəziyyətinə düşmüş, ölkədə daxili sabitlik pozulmuşdu. Eyni zamanda, beynəlxalq aləmə də Azərbaycanla bağlı həqiqətləri çatdırmaq çətin idi. Yüz ildən artıq bir müddətdə bütün dünyada mütəşəkkil təşkilatlanmış erməni diasporu və onların əsas havadarları olan erməni lobbisi tərəfindən Azərbaycan qlobal müstəvidə informasiya blokadasına alınmışdı. Beynəlxalq aləmdə Azərbaycan haqqında dezinformasiya yayılırdı. Müstəqilliyin ilk illərində xarici siyasətimiz qarşısında dayanan əsas maneə, bir tərəfdən erməni

diasporunun təzyiqi və davam etməkdə olan erməni işğalı idisə, digər tərəfdən həmin dövr hakimiyyətdə olan şəxslərin səriştəsiz və qeyri-peşəkar fəaliyyəti idi. Həmin vaxt aparılan xarici siyasət kortəbii və sistemsiz xarakter daşıdığından, Azərbaycanın yerləşdiyi geosiyasi məkanın xüsusiyyətləri nəzərə alınmır, aktual məsələlərə konseptual yanaşılmırdı. Xarici siyasətdə konseptual yanaşmanın olmaması, utopik, reallıqdan kənar hədəflər Azərbaycanın bir sıra ölkələrlə, xüsusən qonşu ölkələrlə münasibətlərinin kəskinləşməsinə səbəb olmuşdu. Nəticədə Azərbaycan beynəlxalq aləmdən təcrid olunmuş, əksər qonşu dövlətlərlə münasibətləri kəskinləşmiş, erməni lobbisinin səyləri hesabına isə dünya informasiya məkanında blokadaya alınmışdı. Buna görə müstəqil Azərbaycanın xarici siyasətində birinci mərhələni itirilmiş illər hesab etmək olar.

### *Xarici siyasətin əsas prinsip və istiqamətlərinin formalaşma mərhələsi*

Azərbaycan Respublikasının müasir xarici siyasət strategiyasının fundamental prinsip və istiqamətlərinin formalaşdırılması Ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə başlamışdır. Heydər Əliyevin təməlini qoyduğu xarici siyasət strategiyası müstəqil Azərbaycanın qurtuluşuna, ərazi bütövlüyünün bərpasına və gələcək inkişaf strategiyasının müəyyənləşdirilməsinə yönəlmişdi. Aparılan xarici siyasət ölkəmizin beynəlxalq aləmdə mövqeyini tamamilə dəyişdi. İlkin mərhələdə Azərbaycanın beynəlxalq müstəvidə təcrid vəziyyətindən çıxarılması, tarazlaşdırılmış xarici siyasət xəttinin yürüdülməsi, dünya iqtisadiyyatına



inteqrasiya, iqtisadi potensialın ölkənin xarici siyasət mövqelərinin gücləndirilməsinə yönəldilməsi, dünya azərbaycanlılarının təşkilatlanıb mütəşəkkil fəaliyyət göstərməsi, sonrakı mərhələdə isə regionun iqtisadi mərkəzinə çevrilməsi bu strategiyanın konseptual əsaslarını təşkil edirdi. Balanslaşdırılmış xarici siyasət, çoxvektorlu əməkdaşlıq, bərabərhüquqlu münasibətlər, etibarlı tərəfdaşlıq və milli maraqlar əsasında müstəqil siyasət prinsiplərinə söykənən praqmatik siyasi kurs Heydər Əliyev dühasının müstəqil dövlətçiliyimizin xarici siyasət konsepsiyasına gətirdiyi amillərdir. Yerləşdiyi regionun unikallığı nəzərə alınarsa, Azərbaycan çoxvektorlu və tarazlaşdırılmış müstəqil xarici siyasət həyata keçirir. Məhz bu prinsiplər xarici siyasətin şərti olaraq ikinci adlandırdığımız mərhələsində formalaşmışdır və bu gün də aparılan xarici siyasət həmin prinsiplərə söykənir. İkinci mərhələdə Azərbaycan strateji seçim etdi və bu seçimin davamlı, ardıcıl olması ölkəmizin hazırkı uğurlarının əsas səbəbidir. Azərbaycan Respublikasının xarici siyasətində milli maraqlar əsasında müstəqil siyasət kursu məhək daşı rolunu oynayır. Qloballaşma prosesinin bu qədər dərininə inkişaf etdiyi müasir dünyada müstəqil xarici siyasət həyata keçirən dövlətlərin sayı heç də çox deyil. Digər tərəfdən isə ölkəmizin yerləşdiyi regionun geosiyasi əhəmiyyəti bu seçimi daha da çətinləşdirir. Qafqaz regionu tarix boyu daim geosiyasi cəhətdən olduqca həssas, əbədi mübarizələr meydanı olmuşdur. Müxtəlif sivilizasiyaların, mədəniyyətlərin, dinlərin təmsilçilərinin bu regionda uzun əsrlər boyu mövcud olması da siyasi proseslərə öz təsirini göstərmişdir. Klassik geosiyasi nəzəriyyənin nüma-

yəndələrindən Karl Haushofer coğrafi mövqe amilindən istifadə etməklə Qafqazı Bosfora, Cəbəllütariqə, Süveyş kanalı zonasına bərabər tutula biləcək tarixi qarşıdurma zonalarından biri hesab edirdi. Qlobal və regional güc mərkəzləri daim Qafqazı öz təsir dairələrində saxlamaq istəmişlər. Tarixən Avrasiyanın böyük dövlətlərinin Qafqaza nəzarət uğrunda mübarizəsi daxili birləşdirici qüvvənin olmadığı regionda etnik və dini müxtəliflik şəraitində cərəyan etmişdir. Buna görə də geosiyasi cəhətdən bu qədər həssas regionda milli maraqlara söykənən müstəqil və balanslaşdırılmış siyasət yeritmək olduqca çətindir. Cənub Qafqazda mövcud olan 3 respublikanın xarici siyasi kursunda da bu özünü göstərir. Bütün strateji obyektləri xaricilərin əlində olan, yalnız havadarlarının siyasi xəttini yerinə yetirən Ermənistan regionda forpost ölkədir. Gürcüstan isə xarici siyasət kursunda ifrat dərəcədə bir qütbə meyilli olduğu üçün və eləcə də ölkənin xarici siyasət oriyentirinin ardıcıl olmaması ilə əlaqədar problemlərlə qarşılaşır. Məhz müstəqil və balanslaşdırılmış xarici siyasət kursu Azərbaycanı Qafqazda geosiyasi çəkisinə görə fərqləndirir. Azərbaycanın müstəqil xarici siyasəti ilk növbədə onun bütün ölkələrlə bərabərhüquqlu münasibətlər qurmasına söykənir. Azərbaycan heç bir hərbi-siyasi blokda iştirak etmir və bütün ölkələrlə bərabər hüquqlarla, qarşılıqlı faydalı əməkdaşlıq edir. Heç bir dövlət Azərbaycanla təzyiq dilində danışa bilməz. Xarici tərəfdaşlarla əməkdaşlıq yalnız qarşılıqlı olduğu halda mümkündür. İkinci mərhələdə formalaşan bu istiqamət Azərbaycanın xarici siyasətində mühüm elementdir. Azərbaycan Respublikası Prezidentinin Azərbaycanın xarici



siyasətində müəyyən etdiyi digər mühüm prinsip ölkəmizin beynəlxalq aləmdə qazandığı etibarlı tərəfdaş statusudur. Əlbəttə ki, etibarlı tərəfdaş olmaq üçün ilk növbədə güclü siyasi lider və ölkənin iqtisadi potensialından səmərəli istifadə olunması mühüm şərtdir. Hər bir xalqın tarixdəki yeri və rolu hansısa mürəkkəb siyasi şəraitdə məsuliyyəti üzərinə götürərək onun taleyində misilsiz rol oynamış, mütərəqqi ideyaları, qeyri-adi idarəçilik keyfiyyətləri ilə müdrikcəsinə və uzaqgörənliklə sabit dövlətçilik ənənələri formalaşdırmış dahi şəxsiyyətin fövqəladə missiyası ilə şərtlənir. Ruslar üçün bu şəxsiyyət Rusiya dövlətinin müasir dövlətçilik ənənələrini təmin etmiş I Pyotr, amerikalılar üçün Corc Vaşinqton, ingilislər üçün Uinston Çörçill, fransızlar üçün Şarl de Qoll, almanlar üçün Otto fon Bismark, çinlilər üçün Mao Tsze Dun, türklər üçün Mustafa Kamal Atatürkdürsə, azərbaycanlılar üçün Heydər Əliyevdir! (Novruz Məmmədov. Xarici siyasətin Azərbaycan modeli. Bakı, 2012, səh. 7) Bu mənada 1993-cü ildən başlayaraq Heydər Əliyevin siyasi liderliyində Azərbaycana beynəlxalq aləmdə artan maraq və enerji sahəsində həyata keçirilən böyük layihələr ölkəmizi, ilk növbədə regionda, sonra isə daha geniş coğrafiyada etibarlı tərəfdaşa çevirmişdir. Ümummilli lider Heydər Əliyevin formalaşdırdığı və bu gün Prezident İlham Əliyevin daha da təkmilləşdirdiyi enerji siyasəti ölkənin milli maraqlarının təmin olunmasına yönəlmişdir. Bu siyasət Azərbaycanın regional və qlobal iqtisadi layihələrin aparıcı iştirakçılarından birinə çevrilməsinə imkan yaratmışdır. Hazırda Azərbaycan enerji sahəsində etibarlı tərəfdaşdır və Avropa ölkələrinin enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol

oynayır. Beləliklə, ikinci mərhələ adlandırdığımız 1993-2003-cü illərdə Azərbaycanın xarici siyasətində bütün qeyd olunan baza prinsiplər formalaşmışdır. Üçüncü minillikdə isə artıq Azərbaycan beynəlxalq aləmdə milli maraqlara söykənən müstəqil siyasət yeridən, bütün ölkə və təşkilatlarla bərabər hüquqlarla əməkdaşlıq edən, çoxvektorlu və şaxələndirilmiş xarici siyasət həyata keçirən etibarlı tərəfdaş kimi qəbul olunur. Bu, müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin mühüm uğurudur.

### *Dağlıq Qarabağ - "dondurulmuş" yox, "qaynar" münaqişə*

Azərbaycanın müstəqillik illərində qarşılaşdığı ən böyük problem Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Beynəlxalq aləmdə respublikamızın qarşısında dayanan ən əsas məqsəd ərazi bütövlüyünün bərpasıdır. 20 ildən artıqdır ki, Azərbaycanın tarixi torpaqları olan Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayon Ermənistanın işğalı altındadır. Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqlarda bu günə qədər irəliləyiş əldə edilməyib. Ermənistan münaqişənin həllində maraqlı deyil və onun dondurulmuş halda qalmasına çalışır. Belə görünür ki, irimiqyaslı müharibənin olmaması Ermənistanı və vasitəçiləri qane edir. Lakin bu ilin aprel ayında erməni silahlı qüvvələrinin təxribatı nəticəsində qoşunların təmas xəttində çoxsaylı insan itkiləri ilə müşahidə olunan, ağır hərbi texnikanın da cəlb olunduğu gərginlik bir daha göstərdi ki, münaqişə dondurulmuş deyil və hər an alovlana bilər. Məhz bu hadisədən sonra həmsədrlər aktivlik göstərməyə başladılar və dünya ictimaiyyətinin də münaqişəyə diqqəti artdı. Müstəqilliyin ilk illərindən Azərbaycanın xarici siyasətinin qarşısında duran ən mühüm vəzifə ölkəmiz haqqında həqiqətlərin dünya birliyinə çatdırılması, erməni yalanlarının ifşa edilməsi olmuşdur. Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının müşavirəsi zamanı Xocalı soyqırımının dünya miqyasında tanıdılması vacib vəzifə kimi qarşıya qoyulmuşdur. Keçən dövr ərzində 13 ölkənin parlamentində (2012-ci ildə Meksika, Pakistan, Kolumbiya, 2013-cü ildə Çex Respublikası, Bosniya və Hersoqovina, Peru, Rumıniya, Panama, İordaniya, 2014-cü ildə Sudan və Honduras, 2015-ci ildə Qvatemala, 2016-cı ildə Sloveniya Milli Şurasında), ABŞ-ın 19 ştatında və İslam Əməkdaşlıq Təşkilatında (2012-ci ildə) Xocalı soyqırımı rəsmi olaraq tanınmışdır. Bütün bunlar müstəqilliyin bərpasından keçən 25 ildə Azərbaycanın artıq dünya miqyasında öz həqiqətlərini çatdırmağa nail olduğunu göstərir. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq hüquq Azərbaycanın tərəfindədir. Dünya birliyi və bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirlər. Bununla bağlı çoxsaylı sənədlər qəbul edilmişdir. Lakin beynəlxalq münasibətlər sistemində ədalətli yanaşmanın olmaması münaqişənin həllinə mane olur. Hazırda dünya nizamı beynəlxalq hüquq əsasında deyil, güc mərkəzlərinin istəyi ilə idarə olunur. Görünən odur ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində qlobal güc mərkəzləri tərəfindən ikili standartlar tətbiq olunur və Azərbaycanın müsəlman, Ermənistanın isə xristian olması öz həlledici təsirini göstərir. Bu baxımdan qiymətləndirdikdə, Dağlıq

Qarabağ münaqişəsini dünyada artmaqda olan islamofob meyillərin axarında geosiyasi toqquşma xətti də hesab etmək olar. Münaqişənin həllinin yubanması isə müasir beynəlxalq hüququn işlək mexanizminin olmamasından, eləcə də qlobal güclərin geosiyasi maraqlarının ziddiyyətindən qaynaqlanır. Beləliklə, 2016-cı ildə dövlət müstəqilliyinin bərpasının 25-ci ili tamam olan Azərbaycan Respublikası əsrin dörddə biri ərzində beynəlxalq münasibətlər sistemində özünə layiqli yer tutmuşdur. Hazırda 177 ölkə ilə diplomatik münasibətlər qurmuş Azərbaycan xarici ölkələrdə və beynəlxalq təşkilatlar yanında 91 diplomatik missiya təsis etmişdir. Eyni zamanda, bu gün Bakıda 62 ölkənin diplomatik missiyası fəaliyyət göstərir. Mürəkkəb geosiyasi regionda yerləşməsinə və çətin inkişaf yolu keçməsinə baxmayaraq, bu illər ərzində Azərbaycan milli maraqlara söykənən müstəqil və balanslaşdırılmış xarici siyasət həyata keçirməyə nail olmuşdur. Bütün tərəflərlə bərabər hüquqlarla qarşılıqlı faydalı əməkdaşlıq edən respublikamız region əhəmiyyətli layihələrin təşəbbüskarına və etibarlı tərəfdaşa çevrilmişdir.

***"Xalq qəzeti"***
***16.10.2016, № 228***



## AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNİN YENİ ÜFÜQLƏRİ

Yenidən müstəqillik qazanmasının 25 ilini tamamlayan Azərbaycan Respublikası ötən tarixi dövrdə beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutmuşdur. Əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan xarici siyasət strategiyası bu gün Azərbaycanın qlobal və regional müstəvidə müstəqil siyasət həyata keçirən azsaylı dövlətlərdən birinə çevrilməsinə səbəb olmuşdur.

***Beynəlxalq münasibətlər sistemində 25 illik təmsilçilik***

Prezident İlham Əliyev tərəfindən aparılan xarici siyasət milli maraqlar əsasında müstəqil, balanslaşdırılmış, çoxvektorlu əməkdaşlıq, bərabərhüquqlu münasibətlər, etibarlı tərəfdaşlıq prinsiplərinə söykənir. Bu xarici siyasət strategiyası ölkəmizin beynəlxalq aləmdə mövqeyini yeni zirvələrə yüksəltmişdir. İlkin mərhələdə Azərbaycanın beynəlxalq müstəvidə təcrid vəziyyətindən çıxarılması, tarazlaşdırılmış xarici siyasət xəttinin yürüdülməsi, dünya iqtisadiyyatına inteqrasiya, iqtisadi potensialın ölkənin xarici siyasət mövqelərinin gücləndirilməsinə yönəldilməsi, dünya azərbaycanlılarının

təşkilatlanıb mütəşəkkil fəaliyyət göstərməsi, sonrakı mərhələdə isə beynəlxalq münasibətlər sisteminin çevik iştirakçısına və regionun iqtisadi güc mərkəzinə çevrilməsi bu strategiyanın konseptual əsaslarını təşkil edirdi.

Azərbaycan Respublikasının xarici siyasətində milli maraqlar əsasında müstəqil siyasət kursu məhək daşı rolunu oynayır. Qeyd etməliyik ki, dünya nizamının yenidən formalaşmaqda olduğu müasir dövrümüzdə müstəqil xarici siyasət həyata keçirmək olduqca çətindir. Tarix isə göstərir ki, hər bir əsrin əvvəli və sonu geosiyasi transformasiyaların ən çox müşahidə olunduğu zaman kəsiyidir. Bu mənada XXI əsrin başlanğıcıda kiçik dövlətlərin siyasi səhnədə müstəqil xarici siyasət apara bilməsi baxımından yalnız istisnalara şamil oluna bilər. Digər tərəfdən isə ölkəmizin yerləşdiyi regionun geosiyasi çəkisi və mürəkkəbliyi bu seçimi daha da çətinləşdirir. Buna görə də geosiyasi cəhətdən bu qədər həssas regionda milli maraqlara söykənən müstəqil və balanslaşdırılmış siyasət yeritmək olduqca çətindir. Prezident İlham Əliyev 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan Nazirlər Kabinetinin iclasında ölkəmizin bu mövqeyini bir daha bəyan etdi: “Heç kim bizə heç nəyi diktə edə bilməz. Bizim üçün əsas dövlətimizin, xalqımızın maraqlarıdır”. Bu, müstəqil siyasi kursun xarici siyasətimizdə əsas meyar olmasına dəlalət edir.

2016-cı ildə Azərbaycanın dövlət müstəqilliyinin 25 ili tamam olurdusa, 2017-ci ildə ölkəmizin beynəlxalq münasibətlər sistemində təmsil olunmasının 25 illiyidir. Belə ki, Azərbaycan Respublikası dövlət müstəqilliyini 1991-ci ildə elan etsə də, xarici ölkələrlə diplomatik



münasibətlər qurması 1992-ci ildən başlamışdır. Cari ildə Azərbaycanın 68 dövlətlə diplomatik münasibətlər qurmasının 25 ili tamam olur. İlk diplomatik münasibətlərimizin qurulduğu qardaş Türkiyədən sonra dünyanın əksər mühüm dövlətləri ilə diplomatik əlaqələrimiz yaradılmışdır. Hazırda Azərbaycanın 177 ölkə ilə diplomatik münasibətləri mövcuddur. 2017-ci ildə eyni zamanda respublikamızın Birləşmiş Millətlər Təşkilatına üzv olmasının da 25 illiyi tamam olur. Nə qədər ağır olsa da, bu il Xocalı soyqırımının törədilməsindən 25 il keçir. Erməni vəhşiliyinin nəticəsi olan bu faciənin dünya miqyasında tanıdılması xarici siyasətimizin qarşısında duran prioritet vəzifələrdəndir.

Beləliklə, beynəlxalq səviyyədə diplomatik münasibətlərimizdə əsrin dörddə biri kimi əlamətdar tarixi dövrə daxil olduğumuz 2017-ci ildə Azərbaycan beynəlxalq aləmdə yeni-yeni nailiyyət və uğurlara istiqamətlənmişdir. Eyni zamanda dünyada baş verən yeni çağırış və təhdidlərə uyğun çevik xarici siyasi kursun aparılması günümüzün reallığıdır.

20152

### *Dağlıq Qarabağ münaqişəsinin həlli – sülh, yoxsa müharibə*

Heç şübhəsiz ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli Azərbaycanın xarici siyasətinin qarşısında duran ən böyük vəzifədir. Bu münaqişə, hətta regional miqyası da aşaraq daha böyük coğrafi məkanda siyasi konfiqurasiya üçün böyük təhdiddir. Eyni zamanda erməni tərəfi dünya ictimaiyyətini aldatmağa çalışır ki, bu konflikt dini əsaslara söykənir və bu istiqamətdə geniş təbliğat aparır. Münaqişənin əsl ma-

PREZİDENT KİTABXANASI

hiyyətini, ermənilərin əsassız ərazi iddialarını pərdələmək üçün ortaya atılan bu yalan çox təəssüf ki, Qərbdə müəyyən dairələr tərəfindən dəstəklənir. Əslində, dini, mədəni fobiyaların artdığı müasir dünyada bu cür yanaşma həqiqətlərin deyil, fobiyaların beynəlxalq sistemdə təsir gücünü müəyyənləşdirməyə imkan verir. Bu isə Dağlıq Qarabağ münaqişəsinin regional çərçivəni aşaraq qlobal qüvvələr müstəvisində əks olunduğunu bir daha göstərir. Eyni zamanda əksər xarici ekspertlərin, sivilizoloqların, siyasətçilərin fikrinə görə Qafqazın sivilizasiyaların toqquşma xəttində yerləşməsi və regionda qlobal güclərin maraqları münaqişənin həllini daha da çətinləşdirir.

2016-cı il atəşkəsdən bu yana keçən dövr ərzində əlamətdar bir il olmuşdur. Belə ki, keçən ildə tərəflər arasında həm münaqişənin hərbi, həm də sülh yoluyla həlli ilə bağlı indiyə qədər görünməmiş hadisələr baş vermişdir. Atəşkəsdən bəri tərəflər heç vaxt indiki kimi böyük müharibəyə və digər tərəfdən ictimai sülh təşəbbüsünə yaxın olmamışlar.

İlk növbədə keçən ilin aprel ayında Azərbaycanla Ermənistan arasında qoşunların təmas xəttində "dördgünlük müharibə" adlandırılan hadisəyə diqqət yetirmək istərdik. Məlum olduğu kimi, aprel ayında qoşunların təmas xəttində Ermənistanın hərbi qüvvələrinin təxribatına cavab olaraq Azərbaycan Ordusu əks-hücumla müəyyən əraziləri işğaldan azad etmişdir. Bu, münaqişənin tarixində olduqca həlledici bir məqamdır. Aprel hadisələrinə Azərbaycan və Ermənistan ictimaiyyətinin reaksiyası münaqişənin gələcək taleyini aydın görməyə imkan verir. Azərbaycan cəmiyyətində bu



hərbi əməliyyat stereotiplərin qırılması, özünəinam və yüksək vətənpərvərlik əhvali-ruhiyyəsi ilə qarşılandı. İlk növbədə cəmiyyətimiz Azərbaycan Ordusunun qələbəsinə inandı, qalib Azərbaycan Ordusu fikri üstün mövqe qazandı. Eyni zamanda ölkədə hər kəs yüksək əhvali-ruhiyyədə torpaqlarımızı azad etmək üçün cəbhəyə getməklə bağlı təşəbbüs göstərdi. Ermənistan ictimaiyyətində isə erməni ordusunun məğlubiyyəti cəmiyyətin onsuz da ümidsizlik baxışını daha da dərinləşdirdi. Paytaxt İrəvanda işğalçı hərbi xunta rejiminə qarşı mənasız əsgər ölümlərinə görə böyük etirazlar oldu. Azərbaycanda insanlar səngərə getmək üçün yarışdığı halda, Ermənistanı tərk edənlərin sayı daha da artdı. Təsadüfi deyil ki, aprel-iyun aylarında Ermənistandan xaricə miqrasiyanın sayı orta aylıq rəqəmi ötdü. Statistik məlumatlara görə, son illər Ermənistanda hər il 80-90 min insan ölkədən qaçır. Yəni orta aylıq təxminən 6-7 min nəfər. Aprel hadisələrindən sonra isə bu rəqəm aylıq 10-12 min nəfərə qalxmışdır. Ümumiyyətlə, Ermənistanın bir ölkə olaraq demoqrafik gələcəyi yoxdur. Ölkədən qaçanların sayı durmadan artır, təbii artımın səviyyəsi isə hər il azalır.

Bütün bunların günahı isə hətta öz xalqının belə gələcəyini düşünməyən hakimiyyətdə olan işğalçı hərbi xuntadır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprel hadisələrinin erməni mifinin dağıdılmasına təsirini xüsusi qeyd edərək mövcud status-kvonun bizim üçün qəbuledilməz olduğunu bildirmişdir: "Aprel döyüşləri həm bizim parlaq qələbəmizdir, həm bir daha Azərbaycan dövlətinin gücünü göstərdi, həm də bir

daha göstərdi ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq. Biz bütün təxribatlara layiqli cavab verəcəyik. Eyni zamanda, illər boyu Ermənistan tərəfindən yaradılmış mif tamamilə darmadağın edildi. Xaricdən silahlar, pullar, digər yardımlar olmasa, onlar bir həftə ərzində bizim qabağımızda duruş gətirə bilməzlər. Bunu özləri də etiraf edirlər".

Beləliklə, aprel hadisələri münaqişə tərəflərində hərbi sahədə olduğu kimi, sosioloji və psixoloji cəhətdən fərqli mənzərənin yaranmasına səbəb oldu. Bir tərəfdə xalqın etimad etdiyi Ali Baş Komandanın ətrafında birləşərək müharibəyə hazır olan Azərbaycan, digər tərəfdə isə məğlub psixologiyasının təzyiqi altında danışıqları pozmağa çalışan, destruktiv mövqe nümayiş etdirən və xalqla hərbi xunta iqtidarı arasında böyük uçurum olan Ermənistan. 2016-cı ildə münaqişə tərəfləri arasında sülh təşəbbüsləri də ortaya çıxdı. Bu da ilk növbədə hər iki tərəfin münaqişənin həllinə münasibətilə birbaşa bağlıdır. Belə ki, Azərbaycan tərəfi danışıqlar prosesi ilə bağlı konstruktiv mövqeyini açıq ortaya qoyur. Prezident İlham Əliyev Dağlıq Qarabağa Azərbaycanın ərazi bütövlüyü çərçivəsində ən yüksək muxtariyyət veriləbiləcəyini ifadə etdi. Bu, Azərbaycanın prinsipial mövqeyidir. Ermənistanda iqtidarda olan hərbi xunta isə münaqişədən hakimiyyətdə qalmaq üçün istifadə edir. Buna görə yalnız danışıqları pozmaqla, həlledici anlarda təxribat törətməklə hətta erməni ictimaiyyətini da narazı salır. Münaqişənin həllinin süni surətdə uzadılması iqtisadi cəhətdən böyük çətinliklərlə yaşayan, hərbi xuntanın təzyiqlərindən cana doyan erməni cəmiyyətində də mənfi qarşılanır. Fikrimizcə, məhz bu amillər keçən ilin



sonlarında Ermənistandan qaçaraq Azərbaycana sığınan sülh tərəfdarı ermənilərlə azərbaycanlıların birgə "Sülh Platforması" təşəbbüsünün ortaya çıxmasına səbəb oldu.

"Sülh Platforması" 2016-cı ildə tərəflər arasında münaqişənin həllinə doğru yeni bir baxış oldu. Ümumilikdə regionla bağlı araşdırma aparan beyin mərkəzləri, xarici ekspertlər arasında münaqişənin gələcəyi ilə bağlı ən böyük maneənin hər iki ölkə ictimaiyyətinin barışığa hazır olmaması fikri dominantlıq təşkil edir. Bu mənada yeni platforma xalqların bu tezisini dəyişir. Belə ki, Ermənistanda hərbi xuntanın münaqişədən hakimiyyət naminə istifadə etməsindən bezən insanlar iki xalq arasında barışıq üçün missiya başladılar. Bu təşəbbüs münaqişənin sülh yolu ilə həllinə tərəfdar olan azərbaycanlılar tərəfindən dəstəkləndi. Hazırda bu platformaya qoşulan ermənilərin sayı artmaqdadır. Möcud vəziyyətin ancaq ölüm, fəlakət, problemlər gətirdiyini əsas tutan bu təşəbbüsün tərəfdarları Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həllini dəstəkləyir. Maraqlısı odur ki, erməni cəmiyyətində bu təşəbbüsə həm Ermənistandan, həm də diaspordan qoşulanlar var. Bu isə iqtidarda olan hərbi xuntanın heç bir ictimai dayağının olmadığını bir daha göstərir.

Beləliklə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini hərb və ya sülhlə həll etmək təşəbbüsləri qarşıdakı ildə də ən vacib məsələ olaraq qalır. Əsas odur ki, mövcud status-kvonun davam etməsi artıq hamı üçün qəbuledilməzdir. Azərbaycan heç zaman işğal vəziyyəti ilə razılaşmayıb, artıq vasitəçilər də bütün görüşlərdə bu prinsipi bildirirlər. İndi isə sadə ermənilər tərəfindən status-kvonun erməni xalqına deyil,

iqtidardakı hərbi xuntaya xidmət etdiyi və vəziyyətin dəyişdirilməsi zərurəti ortaya atılıb. Azərbaycan münaqişənin həlli üçün həm hərb, həm də sülh yoluna hazırdır. Status-kvonun dəyişməsi isə qaçılmazdır.

Azərbaycanda ölkəmizin prezidenti tərəfindən bəyan edilmiş "İslam Həmrəyliyi" ili müstəqil dövlətimizin birlik, bərabərlik, həmrəylik, qarşılıqlı əməkdaşlıq, tolerantlıq siyasətini bir daha bütün dünyaya nümayiş etdirir.

Beləliklə, beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınan Azərbaycan Qərblə Şərq, eləcə də Şimalla Cənub arasında mühüm enerji və nəqliyyat dəhlizinə çevrilmişdir. Bütün tərəflərlə bərabər hüquqlarla qarşılıqlı faydalı əməkdaşlıq edən respublikamız böyük layihələrin təşəbbüskarıdır. Prezident İlham Əliyev tərəfindən aparılan xarici siyasət 2017-ci ildə də ölkəmizin beynəlxalq aləmdə mövqelərinin daha da möhkəmlənməsinə, ikitərəfli və çoxtərəfli əsasda yeni nailiyyətlərə, münaqişə ilə bağlı ədalətin bərpa olunmasına nail olacaq.

***2017***



## AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİNİN 25 İLİ STRATEJİ ARAŞDIRMALAR MƏRKƏZİNİN TƏDQİQATINDA

2017-ci il Azərbaycan Respublikasının həyatında, xüsusən də ölkəmizin beynəlxalq münasibətlər sistemində mövqeyi baxımından əlamətdar ildir. Əgər 2016-cı ildə Azərbaycanın dövlət müstəqilliyinin 25 ili tamam olurdusa, 2017-ci ildə ölkəmizin beynəlxalq münasibətlər sistemində təmsil olunmasının 25 illiyidir. Belə ki, Azərbaycan Respublikası dövlət müstəqilliyini 1991-ci ildə elan etsə də, ölkəmizin xarici ölkələrlə diplomatik münasibətlər qurması 1992-ci ildən başlamışdır. Hazırda Azərbaycanın 178 ölkə ilə diplomatik münasibətləri mövcuddur. Bu il bunlardan 69 dövlətlə diplomatik münasibətlər qurmasının 25 ili tamam olur. Bunlardan 27 Avropa, 26 Asiya, 10 Afrika, 4 Amerika, 2 Okeaniya dövlətidir. İlk diplomatik münasibətlərimizin qurulduğu qardaş Türkiyədən sonra dünyanın əksər mühüm dövlətləri ilə diplomatik əlaqələrimiz yaradılmışdır.

2017-ci ildə, eyni zamanda Respublikamızın beynəlxalq və regional təşkilatlara üzvlüyündən də əsrin dörddə biri qədər yol qət edilmişdir. Bu il Azərbaycanın Birləşmiş Millətlər Təşkilatına, eləcə də Qara

Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına (QDİƏT), İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO), UNESCO-ya üzv olmasının da 25 illiyi tamam olur.

Buna görə də məhz belə bir tarixdə Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi tərəfindən "Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri" mövzusunda kitabın ərsəyə gətirilməsi aktualdır və təqdirəlayiqdir. Bu günlərdə işıq üzü görən kitab 25 ildə Azərbaycan xarici siyasətinin müxtəlif istiqamətlərini və aspektlərini əhatə edən məqalələr toplusundan ibarətdir. Fərqli müəlliflərin mərhələlər, regionlar, ölkələr və prioritetlərə baxış bucağı kitabın vahid xarici siyasi kursa yanaşmasına mane olmamış, hətta müsbət mənada rəngarənglik gətirə bilmişdir.

Azərbaycan Respublikası xarici siyasət sahəsində 25 ildə keşməkeşli yol keçmişdir. Müasir dövrdə hər bir dövlətin beynəlxalq münasibətlər sistemində layiqli mövqe tutaraq özünü bərabərhüquqlu tərəfdaş kimi təsdiqləməsi onun çağdaş dünya nizamının reallıqlarına cavab verən xarici siyasət yeritməsindən bilavasitə asılıdır. Müstəqil Azərbaycanın 25 illik həyatında xarici siyasətini 3 mərhələyə bölmək olar. Birinci mərhələ – müstəqilliyin ilk illərini xarakterizə edən xaos dövrüdür. İkinci mərhələ 1993-2003-cü illəri əhatə edir. Bu mərhələ qonşu dövlətlərlə kəskinləşən münasibətlərdə sabitləşmə və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi altında müstəqil xarici siyasətin baza prinsiplərinin formalaşdırılması dövrüdür. Üçüncü mərhələ isə Azərbaycanı Cənubi Qafqazda lider dövlətə və beynəlxalq münasibətlərdə etibarlı tərəfdaşa və təşəbbüskar ölkəyə çevirən xarici siyasi kursun yüksəliş dövrüdür.



Müstəqilliyin ilk illərində xarici siyasətimiz qarşısında dayanan əsas maneə bir tərəfdən erməni diasporunun təzyiqi və davam etməkdə olan erməni işğalı idisə, digər tərəfdən həmin dövr hakimiyyətdə olan şəxslərin səriştəsiz və qeyri-peşəkar fəaliyyəti idi. Həmin vaxt aparılan xarici siyasət kortəbii və sistemsiz xarakter daşıdığından, Azərbaycanın yerləşdiyi geosiyasi məkanın xüsusiyyətləri nəzərə alınmır, aktual məsələlərə konseptual yanaşılmırdı. Xarici siyasətdə konseptual yanaşmanın olmaması, utopik, reallıqdan kənar hədəflər Azərbaycanın bir sıra ölkələrlə, xüsusən qonşu ölkələrlə münasibətlərinin kəskinləşməsinə səbəb olmuşdu. Nəticədə, Azərbaycan beynəlxalq aləmdən təcrid olunmuş, əksər qonşu dövlətlərlə münasibətləri kəskinləşmiş, erməni lobbisinin səyləri hesabına isə dünya informasiya məkanında blokadaya alınmışdı. Buna görə, müstəqil Azərbaycanın xarici siyasətində birinci mərhələni itirilmiş illər hesab etmək olar.

Azərbaycan Respublikasının müasir xarici siyasət strategiyasının fundamental prinsip və istiqamətlərinin formalaşdırılması Ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə başlamışdır. Heydər Əliyevin təməlini qoyduğu xarici siyasət strategiyası ölkəmizin beynəlxalq aləmdə mövqeyini tamamilə dəyişdi. İlkin mərhələdə Azərbaycanın beynəlxalq müstəvidə təcrid vəziyyətindən çıxarılması, tarazlaşdırılmış xarici siyasət xəttinin yürüdülməsi, iqtisadi potensialın ölkənin xarici siyasət mövqelərinin gücləndirilməsinə yönəldilməsi, dünya azərbaycanlılarının təşkilatlanıb

mütəşəkkil fəaliyyət göstərməsi, sonrakı mərhələdə isə regionun iqtisadi mərkəzinə çevrilməsi bu strategiyanın konseptual əsaslarını təşkil edirdi.

Balanslaşdırılmış xarici siyasət, çoxvektorlu əməkdaşlıq, bərabərhüquqlu münasibətlər, etibarlı tərəfdaşlıq və milli maraqlar əsasında müstəqil siyasət Heydər Əliyev dühasının müstəqil dövlətçiliyimizin xarici siyasət konsepsiyasına gətirdiyi amillərdir. Yerləşdiyi regionun unikallığı nəzərə alınarsa, Azərbaycan çoxvektorlu və tarazlaşdırılmış müstəqil xarici siyasət həyata keçirir. Bu gün də aparılan xarici siyasət bu prinsiplərə söykənir. İkinci mərhələdə Azərbaycan xarici siyasət kursu ilə bağlı strateji seçim etdi və bu seçimin davamlı, ardıcıl olması Azərbaycanın hazırkı uğurlarının əsas səbəbidir.

Azərbaycan Respublikasının xarici siyasətində milli maraqlar əsasında müstəqil siyasət kursu məhək daşı rolunu oynayır. Qeyd etməliyik ki, qloballaşma prosesinin bu qədər dərininə inkişaf etdiyi müasir dünyada müstəqil xarici siyasət həyata keçirən dövlətlərin sayı heç də çox deyil. Digər tərəfdən həm müsəlman, həm də sivil və demokratik dövlət olan Azərbaycanın müstəqilliyi dünyada müəyyən dairələr tərəfindən qısqanclıqla qarşılanır. Bu illər ərzində Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasını, qlobal arenada təzyiq vasitəsi kimi istifadə edilən islamofobiya meyillərini, ikili standartları Azərbaycanın müstəqil siyasət yeritməsinə mane yaratmaq istəkləri ilə əlaqələndirmək lazımdır. Bundan başqa, ölkəmizin yerləşdiyi regionun geosiyasi əhəmiyyəti bu seçimi daha da çətinləşdirir. Qafqaz regionu tarix boyu daim geosiyasi cəhətdən olduqca həssas, əbədi mübarizələr meydanı olmuşdur. Məhz müstəqil və balanslaşdırılmış xarici siyasət kursu Azərbaycanı Qafqazda geosiyasi çəkisinə görə fərqləndirir.



2003-cü ildən sonra başlanan üçüncü mərhələdə Prezident İlham Əliyev xarici siyasətdə artıq formalaşmış ənənələri davam etdirərək Azərbaycanın mövqeyini beynəlxalq müstəvidə daha da möhkəmləndirmiş və yeni bir səviyyəyə yüksəltmişdir. Yeni minillikdə Azərbaycan qlobal siyasi səhnədə adi iştirakçı deyil, regional əhəmiyyətli layihələrin təşəbbüskarı və memarı, beynəlxalq aləmdə nüfuzu ilə seçilən ölkəyə çevrilmişdir.

Azərbaycanın hazırkı xarici siyasətində hər hansı istiqamətdə inteqrasiya nəzərdə tutulmayıb. Azərbaycanın xarici siyasəti bir istiqamətdə deyil bütün istiqamətlərdə qarşılıqlı faydalı əməkdaşlığa yönəlmişdir. 2011-ci ildə Azərbaycan Qoşulmama Hərəkatına üzv olmaqla öz müstəqil xarici siyasi kursunu bəyan etmişdir.

Azərbaycanın müstəqil xarici siyasəti ilk növbədə onun bütün ölkələrlə bərabərhüquqlu münasibətlər qurmasına söykənir. Azərbaycan heç bir hərbi-siyasi blokda iştirak etmir və böyüklüyündən-kiçikliyindən asılı olmayaraq, bütün ölkələrlə bərabər hüquqlarla, qarşılıqlı faydalı əməkdaşlıq edir. Heç bir dövlət Azərbaycanla təzyiq dilində danışa bilməz. Xarici tərəfdaşlarla əməkdaşlıq yalnız qarşılılıq olduğu halda mümkündür.

Üçüncü minillikdə Azərbaycanın xarici siyasətinə yeni əməkdaşlıq formatı əlavə olunmuşdur. Müstəqilliyin ilk illərindən etibarən beynəlxalq münasibətlər siste-

mində ikitərəfli və çoxtərəfli formatda əməkdaşlıq prioritet olmuşdur. Yeni mərhələdə isə Azərbaycan xarici siyasətinə strateji tərəfdaşlarla prioritet münasibətlər və üçtərəfli regional əməkdaşlıq formatı əlavə etmişdir. Etiraf etmək lazımdır ki, regionda mövcud olan bir sıra tendensiyalar nəzərə alınarsa, bu üçtərəfli əməkdaşlıq formatının reallaşdırılması böyük çeviklik tələb edirdi. Azərbaycan regional müstəvidə bir neçə üçtərəfli formatın təşəbbüskarıdır. Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-İran-Türkiyə, Azərbaycan-Türkiyə-Türkmənistan və Azərbaycan-Rusiya-İran formatları regional məsələlərin müzakirəsi, əməkdaşlıq əlaqələrinin inkişafı baxımından əhəmiyyətli təşəbbüslərdir. Bu, eyni zamanda Azərbaycanın təcavüzkar Ermənistanı çıxmaq şərtilə bütün qonşuları ilə qarşılıqlı faydalı münasibətlərə verdiyi əhəmiyyəti göstərir.

Yeni mərhələdə Azərbaycan Respublikasının xarici siyasətdə üstünlük verdiyi istiqamətlərdən biri də strateji tərəfdaşlarla əməkdaşlığın hərtərəfli inkişafıdır. Müstəqillik illəri ərzində Azərbaycan 17 dövlətlə strateji tərəfdaşlıq haqqında müqavilə imzalamışdır. Bu dövlətlər arasında Azərbaycanın ənənəvi tərəfdaşları ilə yanaşı, yeni ölkələr də var. Belə ki, strateji tərəfdaşlardan 9-u Avropa ölkəsidir (Litva, Polşa, Rumıniya, Xorvatiya, İtaliya, Macarıstan, Bolqarıstan, Çex Respublikası, Serbiya). Digərləri isə Azərbaycanın dərin tarixi köklərlə bağlı olduğu türkdilli ölkələr (Türkiyə, Qazaxıstan, Özbəkistan), eləcə də post-Sovet məkanından ənənəvi tərəfdaşlarıdır (Rusiya, Ukrayna, Gürcüstan, Moldova). Bundan başqa bütün beynəlxalq platformalarda Azərbaycana tam dəstək verən Pakistanla da strateji tərəfdaşlıq münasibətimiz vardır.



Azərbaycan tərəfdaşları və qonşuları ilə münasibətlərdə öz etibarlılığını daim göstərmişdir. Gürcüstan enerji böhranı ilə qarşılaşarkən, Türkiyə Azərbaycanla birgə enerji dəhlizi yaradarkən, ABŞ beynəlxalq anti-terror əməliyyatları zamanı, Rusiya və İran onlara qarşı sanksiyalar tətbiq edildiyində hər zaman Azərbaycanın etibarının şahidi olmuşlar.

Sadaladığımız bütün bu istiqamətlər Strateji Araşdırmalar Mərkəzinin "Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri" adlı kitabında əks olunub. Kitabın strukturu region və ya ölkə təsnifatı əsasında qurulsa da, xarici siyasətimizin prioritet və prinsiplərini özündə əks etdirməyi bacarıb. Hər bir kitab özü-özlüyündə yeniliyi ilə fərqlənməlidir. Azərbaycanda müstəqillik illərində xarici siyasətimiz və onun ayrı-ayrı sahələri ilə bağlı çoxlu sanballı kitablar yazılıb. Hazırkı kitabda xarici siyasətdə "yumşaq güc" və "rəqəmsal diplomatiya"ya həsr olunan mövzuları yenilik hesab etmək olar. "Azərbaycan Respublikasının xarici siyasətində humanitar aspektlər" və "Azərbaycan Respublikasının xarici siyasəti informasiya əsrində: çağırışlar və çevik cavablar" bölmələri indiyədək daha az tədqiq olunmuş sahədir və bu da oxucular üçün xüsusi maraq doğura bilər.

Beləliklə, qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi tərəfindən hazırlanan və geniş oxucu auditoriyası üçün nəzərdə tutulan "Azərbaycan

Respublikasının xarici siyasətinin əsas istiqamətləri" adlı kitabın Azərbaycanın müstəqil xarici siyasətinin inkişaf yoluna sanballı elmi baxışdır və yeni faktlarla və yanaşmalarla zəngin tədqiqat əsəridir.

***Newtimes.az***
***26.05.2017***



## "AZƏRBAYCAN-GÜRCÜSTAN-TÜRKİYƏ" – UĞURLU ÜÇTƏRƏFLİ ƏMƏKDAŞLIĞI ƏSRİN DÖRDDƏ BİRİ MÜSTƏVİSİNDƏ

XX əsrin sonlarında sosialist qütbünün çöküşündən sonra formalaşan yeni dünya nizamı dövlətlər arasında münasibətlərin tamamilə yeni formalarının yaranmasına gətirib çıxardı. Əgər keçən əsrdə bir sıra hallarda ən yaxın qonşu dövlətlər belə fərqli qütbləri təmsil etdiyi üçün heç bir əməkdaşlıq edə bilmirdilərsə, yeni dünya nizamında daha çox coğrafi qonşuların qarşılıqlı faydalı iqtisadi əməkdaşlığı prioritet kimi görünür. Bu baxımdan dünyanın ən həssas geosiyasi mövqeyə malik regionlarından olan Qafqazı xüsusi fərqləndirmək olar. Tarixən Qafqazda regional və qlobal güc mərkəzlərinin maraqları əsasında sərhəd dəyişiklikləri, yerli dövlətlər arasında münasibətlər müəyyənləşmişdir. Belə ki, qədim və orta əsrlərdə regional güc mərkəzlərinin mövqeyi Qafqazda hakim idisə, XIX-XX əsrin əvvəllərində bu regiondan çox uzaq olan qlobal güclərin – ABŞ, Britaniya, Almaniya və digər dövlətlərin də maraqları mühüm əhəmiyyət kəsb etmişdir. Qafqazda Sovet quruluşu yarandıqdan sonra isə tamamilə fərqli konfiqurasiya yaranmışdı. Sovetlərin tərkibinə daxil edilən Cənubi

Qafqaz dövlətləri fərqli qütbləri təmsil etdikləri üçün ən yaxın qonşuları olan Türkiyə və İranla demək olar ki, hər hansı əməkdaşlıq imkanından məhrum edilmişdilər. Sovet dövrü Qafqaz ölkələrini coğrafi qonşuluqla bağlı tarixi ənənələrin tamamilə kəsilməsi ilə səciyyələndirmək olar. Qafqazda yeni əməkdaşlıq formaları Sovetlər İttifaqının dağılmasının nəticəsində yaranmağa başladı. Doğrudur, tam hərtərəfli və çoxşaxəli əməkdaşlıqdan danışmaq hələ də mümkün deyil. Bu isə ilk növbədə Ermənistanın demək olar ki, bütün qonşularına qarşı əsassız ərazi iddiaları ilə çıxış etməsinin nəticəsidir. Buna görə də, Cənubi Qafqazda 3 respublika müstəqillik qazandıqdan sonra region ölkələri arasında yaranmış üçtərəfli əməkdaşlıq formatlarında Ermənistanın adına rast gəlinmir.

Qeyd etməliyik ki, üçüncü minillikdə Azərbaycanın xarici siyasətinə yeni əməkdaşlıq formatı əlavə olunmuşdur. Müstəqilliyin ilk illərindən etibarən respublikamızın beynəlxalq münasibətlər sistemində ikitərəfli və çoxtərəfli formatda əməkdaşlıq prioritet olmuşdur. Yeni mərhələdə isə Azərbaycan xarici siyasətinə üçtərəfli regional əməkdaşlıq formatı əlavə etmişdir. Azərbaycan regional müstəvidə bir neçə üçtərəfli formatın təşəbbüskarı və ya iştirakçısıdır. Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-İran-Türkiyə, Azərbaycan-Türkiyə-Türkmənistan və Azərbaycan-Rusiya-İran formatları regional məsələlərin müzakirəsi, əməkdaşlıq əlaqələrinin daha da dərininə inkişafı, birgə layihələrin həyata keçirilməsi baxımından əhəmiyyətli təşəbbüslərdir. Bu yeni trend, eyni zamanda Azərbaycanın təcavüzkar Ermənistanı çıxmaq şərtilə bütün qonşuları ilə qarşılıqlı faydalı münasibətlərə verdiyi əhəmiyyəti göstərir.



Azərbaycanın təşəbbüskarı olduğu üçtərəfli əməkdaşlıq formatlarından ilki Azərbaycan-Gürcüstan-Türkiyə üçlüyüdür. Bu üçlük Cənubi Qafqazdan əlavə Xəzər-Qara-Aralıq dənizi hövzələrini birləşdirən strateji arealı əhatə edir. Bu üçbucağın formalaşmasının əsasında tarixi və mədəni əlaqələr, coğrafi qonşuluq, vahid tranzit dəhlizinin tərkib hissələri olmaq, birgə iqtisadi əməkdaşlıq üçün əlverişli şərait və siyasi iradə dayanır. Hər 3 ölkə bir-biri ilə strateji tərəfdaşdır. Belə ki, Azərbaycan həm Türkiyə, həm Gürcüstanla, eləcə də Türkiyə ilə Gürcüstan öz aralarında strateji tərəfdaşdırlar. 5 may 1997-ci ildə "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında Bəyannamə", 18 fevral 1997-ci ildə "Azərbaycan Respublikası ilə Gürcüstan arasında strateji əməkdaşlığın daha da dərinləşdirilməsi haqqında Bəyannamə" imzalanmışdır.

2017-ci il Azərbaycanın həm Türkiyə, həm də Gürcüstan ilə diplomatik münasibətlər tarixində əlamətdar ildir. Belə ki, bu il Azərbaycan Respublikasının hər iki ölkə ilə diplomatik münasibətlər qurmasının 25-ci ildönümü tamam olur. 1991-ci ildə müstəqillik qazanmış Azərbaycan Respublikası xarici ölkələrlə diplomatik münasibətlər yaratmağa 1992-ci ildən başlamışdır. Maraqlı təsadüfdür ki, həmin il ərzində Azərbaycanın 69 dövlətlə yaratmış olduğu diplomatik münasibətlərin birincisi qardaş Türkiyə ilə yanvar ayının 14-də, sonuncusu isə noyabr ayının 18-də Gürcüstanla qurulmuşdur.

Geosiyasi cəhətdən dünyanın ən həssas bölgələrindən biri olan Qafqazda ayrı-ayrı dövlətlərin müəyyən

formatda əməkdaşlığı fərqli reaksiyalara səbəb ola bilər. Qafqazın tarixən təkcə regional güc mərkəzlərinin deyil, həm də qlobal güc mərkəzlərinin diqqətində olmasını nəzərə aldıqda bu reaksiyaların pərdəarxasının nə qədər mürəkkəb olması gözlənilədir. Buna görə də Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli əməkdaşlığı üçün ilk növbədə siyasi iradənin vacibliyi qeyd olunmalıdır. Müstəqil Azərbaycanın tarixində Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən daha da inkişaf etdirilərək davam etdirilən mehriban qonşuluq və etibarlı tərəfdaş siyasi xətti dəfələrlə çətin sınaqdan çıxmışdır.

Azərbaycan tərəfdaşları və qonşuları ilə münasibətlərdə öz etibarlılığını daim göstərmişdir. Gürcüstan enerji böhranı ilə qarşılaşarkən, Türkiyə Azərbaycanla birgə enerji dəhlizi yaradarkən, ABŞ beynəlxalq antiterror əməliyyatları zamanı, Rusiya və İran onlara qarşı sanksiyalar tətbiq edildiyində hər zaman Azərbaycanın etibarının şahidi olmuşlar. Azərbaycan sübut etmişdir ki, bu üçtərəfli əməkdaşlıq formatı heç bir başqa dövlətə qarşı qurulmamışdır. Azərbaycan xarici siyasətində əsas konturlardan biri də odur ki, respublikamız heç bir üçüncü dövlətin qonşularımıza qarşı hərəkət və təşəbbüsünü dəstəkləmir. ***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 28 may Respublika Günü ilə əlaqədar keçirilən rəsmi qəbulda bu mövqeyi bir daha səsləndirdi: "Azərbaycan bizə sərf etməyən, şübhə doğuran heç bir beynəlxalq hərəkətlərə, avantüralara qoşulmur. Baxmayaraq ki, müxtəlif tərəflər bizi müntəzəm olaraq bu hərəkətlərə cəlb etməyə***



***çalışırdılar. Bu gün də belə səylər var. Ancaq Azərbaycan bizə sərf etməyən heç bir hərəkətə, təşəbbüsə qoşulmur və qoşulmayacaq."***

Diplomatik münasibətlərimizin qurulduğu 25 il ərzində Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli əməkdaşlığın yaranması iqtisadi maraqlar üzərindən başlamışdır və ilk növbədə hər 3 ölkənin milli maraqlarına xidmət edir. Belə ki, Azərbaycanın karbohidrogen ehtiyatlarının mənbəyi və istehsalçısı, Gürcüstanın coğrafi mövqeyi və tranzit imkanları, Türkiyənin isə daxili enerji tələbatı və regional qovşaq olması üçtərəfli əməkdaşlığın təbii əsaslarını təşkil edir. Birgə enerji və nəqliyyat dəhlizlərinin yaradılması bu yanaşmanı həm də tarixi zərurətə çevirmişdir. Artıq istifadə edilməkdə olan Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum boru kəmərləri, eləcə də tikilməkdə olan Bakı-Tbilisi-Qars dəmir yolu və TANAP bu üçtərəfli formatın əsas dayaqlarıdır. Əfsanələri reallığa çevirmiş bu nəhəng layihələr regionun inkişafına xidmət etməklə yanaşı, tarixi İpək Yolunun bərpasına mühüm töhfədir. Azərbaycan öz tərəfdaşları ilə birgə Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayır.

Hazırda həm Azərbaycan, həm də Türkiyə Gürcüstanda əsas sərmayədar və bu ölkənin əsas ticarət tərəfdaşlarından biridir. Azərbaycan şirkətləri Gürcüstan büdcəsinə ən çox vergi ödəyən şirkətlər sırasında yer alır. Bütün bunları nəzərə alaraq, Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli əməkdaşlığında iqtisadi faktorun və birgə layihələrin mühüm amil olduğunu qeyd etməliyik.

Hər 3 ölkənin xarici siyasətində fərqli yanaşmalar

olsa belə üçtərəfli formatda milli maraqlara söykənən əməkdaşlıq qurula bilinmişdir. Məlum olduğu kimi, Türkiyə NATO üzvüdür, Gürcüstan Avropa İttifaqı ilə Assosiasiya Sazişi imzalamışdır, Azərbaycan isə heç bir hərbi-siyasi blokda iştirak etmir və bütün tərəflərlə qarşılıqlı faydalı bərabərhüquqlu əməkdaşlığa üstünlük verir. Bu fərqli yanaşmalara baxmayaraq, hər 3 ölkə müxtəlif sahələr üzrə birgə əməkdaşlıq imkanlarını getdikcə daha da dərinləşdirə bilirlər.

Müstəqillik illəri ərzində üçtərəfli münasibətlər siyasi, iqtisadi, enerji, nəqliyyat və təhlükəsizlik-müdafiə sahələrini əhatə edə bilmişdir. İndiyə kimi Ölkə rəhbərləri, xarici işlər, müdafiə və iqtisadiyyat nazirləri arasında ayrı-ayrılıqda görüşlər keçirilmişdir. Bundan əlavə, üçtərəfli formatda "beyin mərkəzləri"nin toplantıları yeni ideyalar, təşəbbüslər, akademik baxış üçün zəmin hazırlayır. Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, Türkiyə Xarici İşlər Nazirliyi Strateji Araşdırmalar Mərkəzi və Gürcüstanın Rondeli Fondunun birgə təşkilatçılığı ilə artıq dördüncü görüş keçirilmişdir. 2017-ci ilin iyun ayının əvvəlində Azərbaycan-Gürcüstan-Türkiyə birgə hərbi təlimlər keçirməsi üçtərəfli əməkdaşlığın zirvəsi hesab oluna bilər.

Beləliklə, müstəqilliyin 25 ili ərzində yaranmış bu uğurlu əməkdaşlıq üçbucağı heç bir başqa dövlətə qarşı yönəlməyib. Bu əməkdaşlıq müxtəlif sahələri əhatə edir və böyük enerji və nəqliyyat layihələrinin birgə müəllifləri olaraq yaranıb. Zaman keçdikcə 3 ölkə arasında daha da inteqrə olunmuş münasibətlər yaranır. Azərbaycan-Gürcüstan-Türkiyə arasında əməkdaşlıq



regionda sülhün və sabitliyin qorunmasına və rifah səviyyəsinin artırılmasına xidmət edir. Ermənistan isə regionda sülh və təhlükəsizliyə ən böyük təhdid və maneədir. Hazırda Ermənistanın hər 3 qonşusuna münasibətdə əsassız iddiaları var. Azərbaycan torpaqlarını işğal edib, Türkiyə və Gürcüstana qarşı isə ərazi iddiaları mövcuddur. Ermənistan həm də regionda atom təhlükəsinə, ekoloji fəlakətə səbəb ola bilər. Sovet dövründən qalmış köhnəlmiş texnologiyaya malik Metsamor Atom Elektrik Stansiyası hər an regionda böyük fəlakətə səbəb ola bilər. Ermənistan tərəfindən sərhədyanı çayların çirklədilməsi bütün Qafqaz və Xəzər hövzəsi üçün ekoloji təhdiddir. Maraqlı mənzərə yaranıb: bir tərəfdə regionda bütün sahələrdə problem çıxaran Ermənistan, digər tərəfdə isə regional inkişafa müsbət təkan verən üçlü əməkdaşlıq nümunəsi. Buna görə də Qafqazda davamlı sülh və tərəqqi üçün Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli formatını uğurlu model adlandırmaq olar.

***Newtimes.az***
***08.06.2017***

## XARİCİ SİYASƏTİN YENİ MƏRHƏLƏSİ: REALLIQLAR VƏ PERSPEKTİVLƏR

Azərbaycanda müstəqil dövlət siyasətinin əsasları xalqımızın Ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur. Görkəmli dövlət xadimi Heydər Əliyevin bütün çətinliklərə baxmayaraq, sovet hakimiyyəti illərində apardığı müdrik və uzaqgörən siyasət Azərbaycan xalqının dövlət müstəqilliyinə gəlib çatmasında mühüm rol oynamışdır. Ulu Öndərin müstəqil Azərbaycan dövlətinin banisi və rəhbəri kimi həyata keçirdiyi məqsədyönlü siyasət isə ölkəmizin hərtərəfli inkişafının, o cümlədən xarici siyasətimizin möhkəm təməllərinə çevrilmişdir.

2003-cü ildən sonra başlanan üçüncü mərhələdə Prezident İlham Əliyev xarici siyasətdə artıq formalaşmış ənənələri yaradıcılıqla davam etdirərək Azərbaycanın mövqeyini beynəlxalq müstəvidə daha da möhkəmləndirmiş və yeni bir səviyyəyə yüksəltmişdir. Yeni minillikdə Azərbaycan qlobal siyasi səhnədə adi iştirakçı deyil, regional əhəmiyyətli layihələrin təşəbbüskarı və iştirakçısı, beynəlxalq aləmdə nüfuzu ilə seçilən ölkəyə çevrilmişdir. Bu mərhələdə Azərbaycan milli maraqlara söykənən müstəqil siyasi kursuna sadiq qalaraq böyük layihələrə müəlliflik edir, ikitərəfli və çoxtərəfli əsasda bərabərhüquqlu əməkdaşlığı davam etdirir, beynəlxalq səviyyədə erməni diasporunun təzyiqlərinə lazımınca cavab verir və ölkəmizlə bağlı həqiqətləri dünyaya çatdıra bilir. Bu mərhələdə Azərbaycanın xarici siyasəti bir istiqamətdə deyil, bütün istiqamətlərdə qarşılıqlı faydalı əməkdaşlığa yönəlmişdir. Eyni zamanda, məhz bu mərhələdə Azərbaycan Qoşulmama Hərəkatına üzv olmaqla (2011-ci ildə) öz müstəqil xarici siyasi kursunu bəyan etmişdir. Bərabərhüquqlu tərəfdaşlıq prinsipinə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Nazirlər Kabinetinin 9 ayın yekunlarına dair iclasında bir daha aydınlıq gətirmişdir: "Biz öz yolumuzla gedirik və Avropa ilə çox sıx əlaqələr qura bilmişik. Əməkdaşlıqla bağlı bizim heç bir problemimiz yoxdur. Biz bu əməkdaşlığa meyilliyik. Amma biri var əməkdaşlıq, biri də var inteqrasiya". Heç şübhəsiz, müstəqilliyin 25 ili ərzində beynəlxalq aləmdə əldə etdiyimiz ən böyük nailiyyətlərdən biri Azərbaycanın dünyanın 155 ölkəsinin dəstəyi ilə Şərqi Avropa qrupundan 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsidir. Seçkilər zamanı Azərbaycanla yanaşı, Ermənistan, Sloveniya və Macarıstanın da namizədliyi irəli sürülmüşdür. Ermənistan ilkin mərhələdə məhz Azərbaycanın artan nüfuzundan qorxaraq, öz namizədliyini geri götürmüşdür. Bu, müstəqilliyin ilk illərində beynəlxalq müstəvidə erməni diasporunun informasiya blokadasında olan Azərbaycanın artıq bu maneələri aşdığını göstərdi. Sonrakı mərhələlərdə isə Azərbaycanın seçkilərdə iştirak edən Sloveniya və Macarıstanı üstələməsi ölkəmizin etibarlı tərəfdaş kimi tanındığını bir daha təsdiq etdi.

Üçüncü minillikdə Azərbaycanın xarici siyasətinə yeni əməkdaşlıq formatı əlavə olunmuşdur. Müstəqilliyin ilk illərindən etibarən beynəlxalq münasibətlər sistemində ikitərəfli və çoxtərəfli formatda əməkdaşlıq prioritet olmuşdur. Yeni mərhələdə isə Azərbaycan xarici siyasətinə strateji tərəfdaşlarla üçtərəfli regional əməkdaşlıq formatı əlavə etmişdir. Etiraf etmək lazımdır ki, regionda mövcud olan bir sıra tendensiyalar nəzərə alınarsa, bu üçtərəfli əməkdaşlıq formatının reallaşdırılması böyük çeviklik tələb edirdi. Azərbaycan regional müstəvidə bir neçə üçtərəfli formatın təşəbbüskarıdır. Azərbaycan-İran-Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Türkiyə, Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-Türkiyə-Türkmənistan və Azərbaycan-Rusiya-İran formatları regional məsələlərin müzakirəsi, əməkdaşlıq əlaqələrinin inkişafı baxımından əhəmiyyətli təşəbbüslərdir. Bu, eyni zamanda, Azərbaycanın təcavüzkar Ermənistanı çıxmaq şərtilə bütün qonşuları ilə qarşılıqlı faydalı münasibətlərə verdiyi əhəmiyyəti göstərir. Yeni mərhələdə Azərbaycan Respublikasının xarici siyasətdə üstünlük verdiyi istiqamətlərdən biri də strateji tərəfdaşlarla əməkdaşlığın hərtərəfli inkişafıdır. Müstəqillik illəri ərzində Azərbaycan 17 dövlətlə strateji tərəfdaşlıq haqqında müqavilə imzalamışdır. Bu dövlətlər arasında Azərbaycanın ənənəvi tərəfdaşları ilə yanaşı, yeni ölkələr də var. Belə ki, strateji tərəfdaşlardan 9-u Avropa ölkəsidir (Litva, Polşa, Rumıniya, Xorvatiya, İtaliya, Macarıstan, Bolqarıstan, Çex Respublikası, Serbiya). Digərləri isə Azərbaycanın dərin tarixi köklərlə bağlı olduğu türkdilli ölkələr (Türkiyə, Qazaxıstan, Özbəkistan), eləcə də postsovet məkanından ənənəvi tərəfdaşlarıdır (Rusiya, Ukrayna, Gürcüstan, Moldova). Bundan başqa, bütün beynəlxalq platformalarda Azərbaycana tam dəstək verən Pakistanla da strateji tərəfdaşlıq münasibətimiz vardır. Strateji tərəfdaşlarımız arasında türkdilli ölkələrlə münasibətlərimiz xüsusi əhəmiyyət kəsb edir. Bu ölkələrlə münasibətlərimizi yüksək siyasi, iqtisadi əməkdaşlıqdan əlavə, ortaq soy-kök, dil, din, tarix, mədəniyyət, dəyərlər müəyyən edir. Azərbaycanla Türkiyə arasında münasibətlər "bir millət - iki dövlət" devizi ilə xarakterizə olunur. Dünyada bu qədər yaxın olan və ortaq xarici siyasət aparan ikinci bir nümunə göstərmək mümkün deyil. Azərbaycan tərəfdaşları və qonşuları ilə münasibətlərdə öz etibarlılığını daim göstərmişdir. Gürcüstan enerji böhranı ilə qarşılaşarkən, Türkiyə Azərbaycanla birgə enerji dəhlizi yaradarkən, ABŞ beynəlxalq antiterror əməliyyatları zamanı, Rusiya və İran onlara qarşı sanksiyalar tətbiq edilərkən hər zaman Azərbaycanın etibarının şahidi olmuşlar. Bütün bunlar Azərbaycanı BMT Təhlükəsizlik Şurasının qeyr-daimi üzvlüyünə aparan yolda mühüm addımlar olmuşdur. Həm İslam Əməkdaşlıq Təşkilatının, həm də Avropa Şurasının üzvü kimi unikal bir mövqeyə malik Azərbaycan Təhlükəsizlik Şurasında qlobal problemlərin birgə səylərlə həllini, beynəlxalq hüququn aliliyini, ədalətli yanaşma prinsipini müdafiə etmişdir. Əlbəttə ki, Azərbaycanın etibarlı tərəfdaş statusu qazanmasında aparılan enerji siyasəti mühüm yer tutur. Üçüncü minilliyin ilk onilliyində Azərbaycan böyük enerji infrastrukturu yaratmışdır. 2006-cı ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Ceyhan neft kəməri Azərbaycan neftinin dünya

bazarlarına çıxarılması ilə yanaşı, yeni dəhlizin açılması baxımından da tarixi bir layihə idi. Bu layihə nəinki bölgənin, eyni zamanda, qitənin də enerji infrastrukturunda ciddi yenilik olmuşdur. Azərbaycanın enerji siyasəti ölkənin beynəlxalq aləmdə mövqeyinin güclənməsinə təsir göstərməklə yanaşı, təbii ki, ölkə iqtisadiyyatının da dayanıqlılığına səbəb olmuşdur. İqtisadi cəhətdən güclü Azərbaycan isə regional mərkəzə çevrilmiş, Aralıq və Qara dəniz bölgəsində iqtisadi təsir imkanlarına yiyələnmişdir. İndi Türkiyə, Gürcüstan, Rumıniya və Ukraynada Azərbaycan sərmayəsi mühüm faktora çevrilmişdir. Digər tərəfdən, Azərbaycan tranzit ölkəyə və nəqliyyat qovşağına çevrilməkdədir. Mərkəzi Asiya ölkələrinin Avropaya mümkün tranzit marşrutlarından biri Azərbaycan üzərindəndir. Azərbaycanın həlledici rol oynadığı Bakı-Tbilisi-Qars dəmir yolu, Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi ayrı-ayrı regionlar arasında əlaqə yaratmaqla, beynəlxalq iqtisadi əməkdaşlığa güclü təkan verəcəkdir. Beləliklə də, Azərbaycanın xarici siyasətində iqtisadi diplomatiya ən mühüm istiqamətlərdən biridir. Yeni mərhələdə Azərbaycanın xarici siyasətini əks etdirən mühüm məqamlardan biri də bu siyasətdə multikulturalizm prinsiplərinin əks olunmasıdır. Əslində, Azərbaycanda multikulturalizm ölkədaxili ictimai mühiti əks etdirir və min illərdir davam edən həyat tərzidir. Multikultural dəyərlərin Azərbaycanın xarici siyasətində əksi isə "Multikulturalizmin Azərbaycan modeli"nin dünya miqyasında tanıdılmasına yönəlmişdir. Müasir dünyanın daha çox müxtəlif dinlərin, mədəniyyətlərin və ümumilikdə fərqliliklərin toqquşması ilə müşayiət olunduğunu nəzərə aldıqda, tolerantlıq və harmoniyaya söykənən bir həyat tərzinin dövlət siyasəti kimi dünyada təqdimatı son dərəcə aktualdır. Əsrlər boyu ölkəmizdə formalaşmış ənənələr indi bizim həyat tərzimizdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı ilin aprel ayında Bakıda keçirilən BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun açılışında səsləndirdiyi fikirlər Azərbaycanda cəmiyyətin multikultural həyat tərzinə baxışını çox dəqiqliklə ifadə edir: "Azərbaycan əsrlər boyu dinlər, mədəniyyətlər və sivilizasiyaların bir araya gəldiyi məkan olmuşdur. Biz Şərq ilə Qərb arasında yalnız coğrafi körpü deyil, həm də mədəniyyət körpüsüyük. Əsrlər boyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri Azərbaycanda sülh şəraitində və ləyaqətlə yaşayıblar. Dini dözümlülük və Azərbaycan Respublikası Prezidentinin multikulturalizm siyasəti ölkəmizdə hər zaman diqqət mərkəzində olmuşdur. Cənab Prezidentin qeyd etdiyi kimi multikulturalizm sözü mövcud olmadığı bir zamanda belə bizdə həmin ideyalar yaşayıb. Bu gün də multukultural dəyərlər ölkədə birgə yaşayışın əsasını təşkil edir. Bu – Azərbaycanın dövlət - siyasətinin reallığı və gücü deməkdir.

***2016***

## "İSLAM HƏMRƏYLİYİ İLİ": HƏMRƏYLİYİN TƏNTƏNƏSİ

Günümüzdə dünyada bütün sahələrdə münasibətlərdə gərginlik hiss olunur. Bu gərginlik istər qlobal iqtisadi böhran və tənəzzüldə, istər böyük güc mərkəzləri arasında anlaşılmazlıq və qarşıdurmada, istərsə də müxtəlif dinlər və mədəniyyətlər arasında toqquşmalarda özünü göstərir. Dünyada qaynar nöqtələrin, münaqişə bölgələrinin sayı getdikcə artır. Dini dözümsüzlük, miqrantlara qarşı ayrı-seçkilik, islamofobiya, ekstremistlərin dini pərdələnməsi və digər neqativ hadisələr dövrümüzün nəbzini müəyyənləşdirir.

Avropa artıq özününkü olmayanlara qarşı dözümsüzlük nümayiş etdirənlərin, ayrı-seçkilik edənlərin Avropasıdır. Ən təəssüfləndirici isə odur ki, bu münasibət Qərb cəmiyyətinin bütün təbəqələrində – siyasi liderlər, akademik dairələr, sadə vətəndaş cəmiyyətində müşahidə olunur. Biz ötən illərdə Avropa ölkələrində miqrantlara qarşı alçaldıcı hərəkətlərin, islamofob meyillərin şahidi olduq. Düşündürücüdür ki, miqrantlara qarşı bu münasibət ancaq müsəlman qaçqınlara göstərilir. Misal üçün, Mərkəzi Avropa ölkələrindən Çexiyada ölkəyə gələn miqrantlar arasında vyetnamlılar



heç də müsəlmanlardan sayca az deyil. Ancaq ölkədə siyasi partiyalar və siyasətçilər arasında müsəlman miqrantlara qarşı dözümsüzlük olduğu halda, rəsmi səviyyədə vyetnamlıların ölkəyə adaptasiyası üçün proqramlar həyata keçirilir. Təəssüf ki, bu cür yanaşmaya Avropanın əksər ölkələrində rast gəlinir.

Prezident İlham Əliyev 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda Qərbdə gedən bu islamofob meyillərin dünya miqyasında yaratdığı problemlərə toxunaraq bildirmişdir: "Avropa İttifaqına üzv olan bəzi ölkələrin rəhbərləri "Stop İslam" deyirlər. Bəziləri deyirlər ki, biz miqrantları qəbul etməyə hazırıq, ancaq müsəlmanları yox. Bu, faşizmdir və faşizm harada yaranıb, – biz yaxşı bilirik və unutmamışıq. Faşizm İslam aləmində yaranmayıb".

Qərb dini, mədəni, etnik fərqliliklərə dözümsüzlük nümayiş etdirdiyi zaman, digər tərəfdən İslam aləmində də dinin müxtəlif məzhəb və təriqətləri arasında barışmaz mübarizə gedir. Yaxın Şərqdə baş verən qanlı toqquşmalarda geosiyasi faktorlarla yanaşı, məzhəb düşmənçiliyi də mühüm rol oynayır. Məhz belə bir şəraitdə 2017-ci ilin Azərbaycanda "İslam həmrəyliyi ili" elan olunması ölkəmizin dünyada sülh, barışıq və birliyə çağırışının göstəricisidir.

Tarixən ölkəmizdə müxtəlif dinlərin və mədəniyyətlərin daşıyıcıları birgə yaşamışlar və bu, Azərbaycan cəmiyyətinin zənginliyinə səbəb olmuşdur. Azərbaycan xristianların da, yəhudilərin də uzun əsrlərdir birgə yaşadığı müsəlman ölkəsidir. Fərqli dəyər daşıyıcılarının qarşılıqlı hörmət əsasında birgəyaşayışına əsas-

lanan multikulturalizm Azərbaycanda həyat tərzi kimi qəbul olunur. Tarixin bütün zamanlarında ölkəmizdə dini, irqi, milli və ümumiyyətlə, hər hansı bir ayrı-seçkilik olmamışdır.

Xalqımızın xoşbəxtliyi ondadır ki, bizim cəmiyyətdə din heç zaman xurafat olaraq üstünlüyə malik olmamışdır, əksinə, Azərbaycan bütün mərhələlərdə intibaha töhfə vermişdir. Hələ orta əsrlərdə Azərbaycan mütəfəkkirləri İslam İntibahının öndə gedənlərindən olmuşdur. İslam dünyagörüşünün əksər maarifçi baxışlarında – sufilikdə, hürufilikdə azərbaycanlı alimlər məktəb yaradıcıları kimi tanınmışlar. Şərqdə bir çox ilklər Azərbaycanın adı ilə bağlı olmuşdur. Müsəlman Şərqində ilk opera, teatr, parlamentli respublika, qadınlara seçki hüququ məhz Azərbaycanın adı ilə bağlıdır.

Müasir dövrdə də Azərbaycan bu yanaşmanı davam etdirir, ölkəmiz bütün dünyada tolerantlığın ünvanına çevrilmişdir. Eyni zamanda İslam aləmində müxtəlif məzhəblərin qarşılıqlı hörmət şəraitində, dinc yanaşı yaşadığı məkandır Azərbaycan. Keçən il Bakıda "Heydər məscidi"ndə İslam dininin müxtəlif cərəyanlarının təmsilçilərinin bir yerdə vəhdət namazı qılması Azərbaycandan İslam dünyasına göndərilən ən güclü həmrəylik mesajı idi.

Azərbaycanın tarixən dini və mədəni tellərlə bağlı olduğu İslam dünyası ölkələri ilə münasibətləri xarici siyasətimizdə prioritet istiqamətlərdən hesab olunur. Ölkəmiz müstəqilliyinin ilk ilindən İslam Əməkdaşlıq Təşkilatı (həmin vaxt İslam Konfransı Təşkilatı adlanırdı) ilə fəal əməkdaşlıq edir və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bu təşkilat hər zaman qətiyyətli mövqe



bildirmişdir. 2016-cı ili İƏT çərçivəsində əməkdaşlıq baxımından ölkəmiz üçün xüsusi mənada fərqləndirmək olar. Belə ki, İslam Əməkdaşlıq Təşkilatının aprelin 10-15-də İstanbulda keçirilmiş zirvə toplantısında Ermənistanın Azərbaycana qarşı təcavüzünə dair İƏT Təmas Qrupunun yaradılması münasibətlərimizdə yeni bir səhifədir. Hazırda qrupun tərkibinə Türkiyə, Mərakeş, Səudiyyə Ərəbistanı, Pakistan, Malayziya, Qambiya və Cibuti daxil olub. Coğrafi təmsilçilik prinsipi ilə götürdükdə İƏT çərçivəsində bütün regionlar təmsil olunub. Bu qrup imkan verir ki, Dağlıq Qarabağ münaqişəsi daim təşkilatın gündəliyində qalsın və müsəlman ölkələrinin diqqətini cəlb etsin. Qarşıdakı illərdə qrupun üzvlərinin sayının artacağı da gözlənilir.

Beləliklə, dünyada müxtəlif dini məzhəblər arasında münasibətlərin kəskinləşdiyi bir tarixi şəraitdə Azərbaycanın "həmrəylik nümunəsi"ni bütün dünyaya, o cümlədən İslam aləminə göstərmək üçün növbəti illərdə gözəl imkanı vardır. Bu il ölkəmizdə IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi, 2018-ci ildə Naxçıvan şəhərinin "İslam Mədəniyyətinin Paytaxtı" seçilməsi müsəlman ölkələrinin təmsilçilərinə bu həmrəyliyi daha yaxından görməyə və tanış olmağa imkan verəcəkdir.

Avropa İttifaqı ilə münasibətlər – əməkdaşlıq, yaxud inteqrasiya.

"İnteqrasiya" sözü özlüyündə bütövləşmə, birləşmə mənasını ifadə edir. Beynəlxalq münasibətlər sistemində isə inteqrasiya prosesləri vahid siyasi, iqtisadi, təhlükəsizlik və hətta mədəni dəyərlərin cəmləşdiyi məkana doğru istiqamətlənmiş siyasət deməkdir. Hazırda dünyada bütün sahələrdə ən yüksək inteqrasiya səviyyə-

sinin Avropa İttifaqı (Aİ) çərçivəsində olduğu şübhəsizdir. Bu ittifaq Avropa ölkələrinin öz müstəqilliklərini saxlamaqla ortaq dəyər daşıyıcısı birliyidir. Formalaşmasına hələ keçən əsrin ortalarından başlanan Avropa İttifaqı sosialist düşərgəsinin dağılmasından sonra Şərqə doğru genişləndi. Eyni zamanda "Qoca qitə"nin şərqindəki bir çox qonşuları da bu məkana can atmışlar. Bu mənada Türkiyənin Aİ ilə münasibətləri xüsusi fərqləndirilməlidir. Türkiyə uzun illərdir ki, bu təşkilata üzv kimi buraxılmır. Halbuki iqtisadi parametrlərinə, qanunvericiliyin Qərb standartlarına uyğunluğuna və bir çox başqa göstəricilərinə görə Aİ-nin yeni üzvləri heç də Türkiyəni üstələmir. Bu ayrı-seçkilik Aİ-nin təkcə siyasi, iqtisadi, mədəni birlik olmadığına, eyni zamanda vahid dini dəyərlərin daşıyıcısı olmasına əsaslanır. Belə görünür ki, Avropa yalnız öz dəyər daşıyıcılarının bu məkana inteqrasiyasını arzulayır.

Azərbaycan Respublikasının müstəqilliyin ilk illərindən Avropa təsisatları, daha geniş mənada isə Avratlantik institutlarla əməkdaşlığı, o cümlədən yaxınlaşması təbii bir proses idi. Yeni yaranmış bir dövlət çoxşaxəli xarici siyasətə üstünlük verir və bütün istiqamətlərdə mövcud imkanlardan istifadə edir. Bu mənada Avropa İttifaqı ilə də münasibətlərdə böyük yol keçilmişdir və bu əməkdaşlıq getdikcə dərinləşir.

Lakin qeyd etmək lazımdır ki, hazırda Azərbaycanla Avropa İttifaqı arasında münasibətlərin əsas prinsipi bərabərhüquqlu tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıqdır. Azərbaycanın hazırkı xarici siyasətində hər hansı istiqamətdə inteqrasiya nəzərdə tutulmayıb. Azərbaycanın xarici siyasəti bir istiqamətdə deyil, bütün



istiqamətlərdə qarşılıqlı faydalı əməkdaşlığa yönəlmişdir. 2011-ci ildə Azərbaycan Qoşulmama Hərəkatına üzv olmaqla, öz müstəqil xarici siyasi kursunu bəyan etmişdir.

Azərbaycanın Avropa ilə münasibətlərinə Prezident İlham Əliyev bir daha aydınlıq gətirmişdir: "Biz öz yolumuzla gedirik və Avropa ilə çox sıx əlaqələr qura bilmişik. Əməkdaşlıqla bağlı bizim heç bir problemimiz yoxdur. Biz bu əməkdaşlığa meyilliyik. Amma bir var əməkdaşlıq, bir də var inteqrasiya".

Azərbaycanın müstəqil xarici siyasəti ilk növbədə onun bütün ölkələrlə bərabərhüquqlu münasibətlər qurmasına söykənir. Azərbaycan heç bir hərbi-siyasi blokda iştirak etmir və böyüklüyündən-kiçikliyindən asılı olmayaraq, bütün ölkələrlə bərabər hüquqlarla qarşılıqlı faydalı əməkdaşlıq edir. Heç bir dövlət Azərbaycanla təzyiq dilində danışa bilməz. Xarici tərəfdaşlarla əməkdaşlıq yalnız qarşılıqlı olduğu halda mümkündür.

IV Beynəlxalq İslam Oyunları Olimpiadası möhtərəm Prezidentimizin elan etdiyi kimi "İslam Həmrəyliyi" ilinin zirvəsini təşkil edir. Bütün dünya yüksək səviyyədə təşkil olunan İslam Oyunları Olimpiadası ilə müstəqil Azərbaycanın nələrə qadir olduğunun şahidi oldu. Bu, dünyaya səs salmış Avropa oyunlarından sonra Azərbaycanın beynəlxalq miqyasda nümayiş etdirdiyi yeni inkişaf səviyyəsi idi. IV Beynəlxalq İslam Oyunları Olimpiadasında Azərbaycan idmançılarının qazandıqları parlaq qələbə ölkəmizdə aparılan müstəqil dövlətçilik siyasətinin təntənəsinə çevrilmişdir.

İslam Oyunları – eyni zamanda geniş mənada islam həmrəyliyinin bariz nümunəsi oldu.

İslam Həmrəyliyi – bütövlükdə dünyada həmrəyliyin bərqarar olmasına Azərbaycanın mesajıdır.

***17.01.2017***



## "SİNXUA" AGENTLİYİNƏ MÜSAHİBƏ

Azərbaycan ilə Çin arasında diplomatik münasibətlər yaradılmasının 25 illiyi ərəfəsində Çinin "Sinxua" agentliyi Azərbaycan Prezidenti Administrasiyasının xarici əlaqələr şöbəsi müdirinin müavini Ərəstü Həbibbəyli ilə müsahibə dərc edib.

Azərtac xəbər verir ki, Ərəstü Həbibbəyli agentliyə eksklüziv müsahibəsində Azərbaycan ilə Çin arasında münasibətlərin yüksək siyasi dialoq və fəal iqtisadi əməkdaşlıq səviyyəsinə çatdığını vurğulayıb. O qeyd edib ki, aprelin 2-də iki ölkə arasında diplomatik münasibətlər yaradılmasının 25 illiyi tamam olur. Çin ilə Azərbaycanın dostluq və qarşılıqlı səmərəli tərəfdaşlıq prinsiplərinə əsaslanan əlaqələri həmişə uğurla inkişaf edib.

Prezident Administrasiyasının nümayəndəsi daha sonra bildirib ki, hər iki ölkə müxtəlif beynəlxalq nəqliyyat və logistika layihələri sahəsində əməkdaşlığın böyük potensialını reallaşdırmaq üçün fəal iş aparır.

"İpək Yolu iqtisadi qurşağı" təşəbbüsündə ölkəmizin mühüm element olduğunu vurğulayan Ə.Həbibbəyli əlavə edib ki, bu layihə sənaye sahəsində əməkdaşlıq baxımından Azərbaycan üçün çox böyük imkanlar yarada-

caq. O deyib: "Çin ilə Azərbaycan arasında əlaqələr sürətlə inkişaf edir və Azərbaycan XXI əsrin ən böyük təşəbbüslərindən biri olan "İpək Yolu" layihəsində qiymətli tərəfdaşa çevrilmək üçün böyük potensiala malikdir.

2015-ci ilin dekabr ayında Prezident İlham Əliyevin Çinə dövlət səfərinin əhəmiyyətini vurğulayan Ə.Həbibbəyli qarşılıqlı səfərlərin iki ölkə arasında əlaqələrin inkişafına əlverişli şərait yaratdığını diqqətə çatdırıb.

"Sinxua" agentliyi, həmçinin məlumat verir ki, Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında diplomatik münasibətlər yaradılmasının 25 illiyi münasibətilə martın 30-da Bakıda təntənəli qəbul təşkil edilib.

Çin Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir. 2016-cı ilin 9 ayı ərzində ÇXR Azərbaycanın ticarət dövriyyəsində beşinci yeri tutub. İndiyə qədər iki ölkə arasında 50-dən çox saziş imzalanıb. Azərbaycan Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2016-cı ilin yanvar-sentyabr aylarında Çin ilə Azərbaycan arasında əmtəə dövriyyəsinin həcmi 641,39 milyon dollar olub. Bu məbləğin 145,81 milyon dolları Çinə ixracın payına düşür.

***1.04.2017***



# GEOSİYASİ MƏNZƏRƏNİN REALLIQLARI

## AZƏRBAYCANIN QONŞULARI: GEOSİYASİ BAXIŞ

Geosiyasi cəhətdən olduqca həssas regionda yerləşən Azərbaycan Respublikası müstəqilliyinin 23-cü ilini dünyada öz siyasi əhəmiyyətini daha da artırmaqla keçirdi. Şərqlə Qərbin, Şimalla Cənubun, islam və xristian dünyasının kəsişməsində yerləşən bir ölkə üçün qonşularının ili hansı notlarla yekunlaşdırması geosiyasi vəziyyətin qiymətləndirilməsi baxımından olduqca vacibdir. Məlum olduğu kimi, ölkəmizin yerləşdiyi regionda bir-birindən tamamilə fərqli siyasi xəttə üstünlük verən 3 böyük dövlət - Rusiya, Türkiyə və İran üçün 2014-cü il sıradan bir il olmamışdır. Son günlərini yaşadığımız bu ildə hər 3 dövlətin xarici siyasətində mühüm dəyişikliklər baş vermiş, mürəkkəb proseslər yaşanmışdır. Cənub Qafqazda Azərbaycanın strateji müttəfiqi olan Gürcüstan da öz müstəqil inkişafında tarixi əhəmiyyətli 365 gün yaşayır. Regionda daim sabitliyi pozan faktor kimi çıxış edən Ermənistan üçün də yaşadığımız il xarici siyasət prioritetlərinin seçim ili olmuşdur.

Bu dövr Xəzərin Şərq sahillərindəki qonşularımız üçün nisbətən daha sakit keçmişdir. Ancaq proseslərin təhlili göstərir ki, Qazaxıstan və Türkmənistan xarici

siyasətlərində yeni bir mərhələyə qədəm qoyurlar və bu mərhələnin başlanğıcı məhz 2014-cü ilə düşür. Xüsusən də Qazaxıstanda dövlətçilik tarixi və ənənələri ilə bağlı ənənəvi müttəfiq olan Rusiya ilə yaranmış gərginlik və Türkmənistanın beynəlxalq aləmdə təcrid siyasətini dəyişərək daha aktiv xarici siyasət kursu götürməsi bu ildən başlanır.

Beləliklə, dünyaya öz inkişaf modelini təqdim edən Azərbaycanın qlobal siyasi səhnədə mövqeyini qiymətləndirmək üçün 2014-cü ili qonşularımızın hansı proseslər yaşadığını xatırlamaq istərdik. Qeyd etməliyik ki, bu dövr hər üç böyük qonşumuzun həyatında mühüm hadisələr baş vermişdir.

### *Rusiya*

Şimal qonşumuz Rusiya SSRİ dağıldıqdan sonra ən həlledici və Qərblə münasibətlərdə ən kəskin bir dövr yaşayır. Təsadüfi deyil ki, beynəlxalq münasibətlər üzrə bir çox ekspertlər yeni soyuq müharibənin başlaması və hətta bu müharibənin soyuq deyil, aktiv hərbi münaqişəyə çevriləcəyi ilə bağlı fikirlər irəli sürürlər. Ümumiyyətlə, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ikinci hakimiyyəti dövründə Qərblə münasibətlərdə güzəştsiz mövqe sərgiləyir. Son 20 ildə neft pullarından varlanan Rusiya öz qlobal siyasi ambisiyalarının Qərb tərəfindən nəzərə alınmaması ilə artıq barışmır. Bu məsələdə isə ABŞ başda olmaqla Qərb ölkələrinin üzərinə böyük məsuliyyət daşıyır. Çünki Əfqanıstandan sonra İraqdan başlayaraq ərəb ölkələrinə Qərbin beynəlxalq hüququ nəzərə almadan müdaxiləsi dünyada "kim güclüdürsə, haqlıdır" ideyasını ortaya qoymuş oldu. Belə olan halda, Rusiya da heç bir dövlətdən zəif olmadığını göstərmək istəyir. Bundan başqa dünyada qaynar nöqtələrin söndürülməməsi, münaqişələrin həll edilməməsi və donmuş vəziyyətdə uzadılması beynəlxalq hüquqa ümumiyyətlə əhəmiyyət verilməməsinə gətirib çıxarmışdır. Bir çox siyasətçilərin qənaətinə görə, Rusiyanın təsir dairəsində olan dondurulmuş münaqişələrin həll olunmaması bu cür münaqişələrin sayının artmasına səbəb oldu. Bu gün Ukraynada baş verən hadisələrin səbəbləri arasında Qərbin post-sovet məkanında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi də daxil olmaqla, dondurulmuş münaqişələrə ədalətli yanaşmamasının olması da əslində acı bir həqiqətdir.

Beləliklə, 2014-cü il Rusiya üçün yeni soyuq müharibənin başlanğıcı kimi tarixə düşmüşdür. Suriyada vətəndaş müharibəsinə münasibətdə Qərbin xaotik hərəkətləri Rusiyada özünəinam yaratdı və bu da Ukrayna münaqişəsində Rusiyanın prinsipial mövqeyindən geri çəkilməməsinə rəvac verdi. Ancaq Qərblə bu yeni qarşıdurmanın Rusiya üçün nə ilə nəticələnəcəyi də dumanlı görünür. Qərb Rusiyaya qarşı iqtisadi mexanizmləri işə salmışdır və bu artıq Rusiya iqtisadiyyatında öz təsirini göstərməyə başlamışdır. İqtisadiyyatı daha çox neft-qaz ixracından asılı olan Rusiyanın bu təzyiqlərə nə qədər dözə biləcəyi isə sual altındadır. Nəzərə almaq lazımdır ki, Qərbin yaxın keçmişdə Rusiyanı iqtisadi rəqabətdə çökdürməklə bağlı təcrübəsi vardır. Keçən əsrin sonlarında qlobal nüfuz mübarizəsi uğrunda SSRİ-nin daha çox iqtisadi rəqabətdə davam

gətirə bilməməsi yaxşı məlumdur. Buna görə də 2014-cü ilin Rusiyanın tarixinə həlledici məqam kimi düşəcəyini güman etmək olar.

### *Türkiyə*

Sonuncu ayını yaşadığımız il Türkiyə üçün də mürəkkəb proseslərlə dolu bir il olmuşdur. Ölkə daxilində baş verən proseslər xarici siyasətdə də öz təsirini göstərmişdir. 2014-cü ildə ölkə daxilində ən mühüm hadisə "paralel dövlət" adlandırılan şəbəkənin ifşası ilə bağlı olmuşdur. Bu hadisə nəinki mövcud iqtidar, hətta bütün Cümhuriyyətin dövlətçilik tarixində yeri olan bir tarix kimi qiymətləndirilmişdir. Hətta bəzi ekspertlər bu prosesləri Türkiyənin dünyəvi və ya dini dövlət olmaq taleyinin həll olunması kimi şərh edirlər. "Ədalət və İnkişaf Partiyası" seçkilərdə qalib gəlməklə, indiki mərhələdə bu sınaqdan daha da güclənərək çıxdı.

Türkiyə daxilində digər bir proses hökumətin "açılım" adlandırdığı islahatlar paketi 2014-cü ilə öz damğasını vurdu. "Demokratik açılımlar" "kürd açılımı", "erməni açılımı", "ələvi açılımı" adı altında etnik-dini azlıqlarla münasibətlərin tənzimlənməsinə yönəlmişdir. Hələlik heç bir real nəticə olmasa da, bu proseslərin daha kimlərlə açılıma aparacağı da bəlli deyil. Bu siyasi xətt xüsusən də "erməni açılımı" Türkiyənin xarici siyasətində də özünü göstərir. Türkiyənin daxili auditoriya üçün nəzərdə tutduğu erməni azlıqla münasibətləri Türkiyə-Ermənistan, Türkiyə-Azərbaycan, Türkiyə-Avropa İttifaqı münasibətləri baxımından dəyərləndirilə bilər.



Bu baxımdan qeyd etməliyik ki, başda erməni diasporu və ermənilərə lobbiçilik edənlər olmaqla, bir çox xarici qüvvələr "erməni açılımından" istifadə edərək Türkiyə-Ermənistan sərhədlərinin açılmasına çalışır, bu istiqamətdə aparılan işlərə böyük vəsaitlər ayırırlar. Təsadüfi deyil ki, təkcə 2014-cü ildə Avropa İttifaqı bununla bağlı 2 milyon dollardan çox vəsait ayırmışdır. Bundan başqa ABŞ və İsveçrə Türkiyə və Ermənistanda qeyri-hökumət təşkilatlarını heç bir şərtsiz sərhədlərin açılması istiqamətində işləməsi üçün illərdir ayırdıqları vəsaitləri daha da artırmışlar. Bu zaman iki mühüm məqam ortaya çıxır: Türkiyənin Avropa İttifaqına daxil olmaqla bağlı öhdəlikləri və Türkiyə-Azərbaycan münasibətləri.

İlk növbədə belə bir təəssürat formalaşdırılmağa çalışılır ki, Türkiyə erməni məsələsi, xüsusilə qondarma "soyqırımı" ilə bağlı güzəştə getməyəcəyi halda, Avropa İttifaqına üzvlük məsələsi həll olunmayacaqdır. Qeyd etməliyik ki, bu ilkin təəssürat heç bir real faktlara söykənmir və artıq ümumiyyətlə, Türkiyənin xarici siyasətində Aİ-yə üzvlük məsələsi birinci plandan düşmüş kimi görünür. Avropa qapılarında hələ çox gözləyəcəyini anlayan Türkiyə rəsmiləri digər istiqamətlərdə inteqrasiya proseslərinə meyil göstərməyə başlamışdır. Türkiyənin xarici siyasətində Şanxay Əməkdaşlıq Təşkilatı, türkdilli ölkələrlə daha sıx əməkdaşlıq formatları, xüsusilə Türkdilli Ölkələrin Əməkdaşlıq Şurası çərçivəsində əməkdaşlığa üstünlük verməsi özünü göstərir.

Digər tərəfdən isə Türkiyənin Ermənistanla sərhədlərini açmaq ehtimalının hansı prinsiplərə əsaslandığına baxmaq lazımdır. Sərhədlərin bağlı saxlanılmasında 2

mühüm faktor vardır. Əvvəla, Ermənistan 2 ölkə arasında sərhəd xəttini təyin edən Qars Müqaviləsini rəsmən qəbul etmir və bu ölkənin Türkiyəyə qarşı ərazi iddiaları mövcuddur. Bu iddialar Ermənistan Konstitusiyasında, "Müstəqillik haqqında Bəyannamə"də də əks olunmuşdur. İkincisi isə Türkiyə Ermənistan ilə sərhədlərini 1993-cü ildə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalının davam etdirilməsinə etiraz olaraq bağlamışdır. Hazırda sərhədlərin açılması siyasətini aparan müxtəlif qüvvələr bilməlidirlər ki, bu iki faktordan heç biri dəyişməyib. Nə Ermənistan Türkiyəyə qarşı ərazi iddialarından əl çəkib, nə də Azərbaycan torpaqları işğaldan azad olunub. Yəni, normal məntiqlə Türkiyə nə öz ərazi bütövlüyünü şübhə altına qoyar, nə də strateji müttəfiqi olan qardaş Azərbaycanın maraqlarını güdaza verər. Türkiyə rəsmiləri bununla bağlı dəfələrlə bildiriblər ki, Azərbaycan torpaqları işğaldan azad olunmayanadək ikitərəfli münasibətlərdə hər hansı bir dəyişiklikdən söhbət gedə bilməz.

Beləliklə, fikrimizcə, Türkiyə 2014-cü ildə "qonşularla sıfır problem" adlandırılan xarici siyasət kursunda sonuncu ilini yaşayır və strateji müttəfiqlərlə münasibətlərə söykənən bir xarici siyasət kursuna keçid mərhələsindədir. Xarici siyasətdə bu yeni dövr 2015-ci ildən sonrakı dövrü əhatə edəcək. Sadəcə Türkiyə üçün yeni xarici siyasət ili yanvarda deyil, apreldən sonra başlayacaqdır.



### *İran*

2014-cü il cənub qonşumuz İran İslam Respublikası üçün də əlamətdar olmuşdur. Məlum olduğu kimi, son dövrlər İran beynəlxalq münasibətlər sistemində təcrid vəziyyətinə düşmüşdür. İranın bir tərəfdən nüvə enerjisindən istifadə ilə bağlı Qərb ölkələri ilə münasibətləri daha da kəskinləşmişdisə, digər tərəfdən regional liderlik iddiaları ilə əlaqədar Körfəz ölkələri və daha geniş mənada islam dünyası ölkələri ilə münasibətləri arzuolunmaz səviyyədə idi.

İran 2014-cü ilə yeni seçilmiş Prezident Həsən Ruhaninin yanvar ayında Davos səfəri ilə başladı və bu səfər İran xarici siyasətində yeni mərhələnin başlanğıcı oldu. Qeyd etməliyik ki, Dünya İqtisadi Forumunun 2014-cü il tədbirində ən çox diqqət çəkən ölkələrdən biri İran oldu və məhz Davosda İranın yeni xarici siyasət kursuna start verildi. İl ərzində İran Qərb ölkələri ilə münasibətləri tənzimləməyə başladı. Hətta illərdir rəsmi təmasların olmadığı ABŞ və Birləşmiş Krallıqla danışıqlara başlandı. Nəticədə sanksiyaların nisbətən yumşaldılmasına nail olundu və bu, ölkə iqtisadiyyatına mənfi təsirləri nisbətən azaltdı. Doğrudur, nüvə enerjisindən istifadə ilə bağlı həlledici nəticə hələlik əldə olunmasa da, artıq gələcəklə bağlı nikbin proqnozlar səslənir.

Digər tərəfdən son illər Körfəz ölkələrinin, eləcə də Afrikada Keniya, Seneqal, Sudan və bir sıra digər ölkələrin İranla münasibətləri olduqca kəskinləşmişdir. Hətta Keniyada İran vətəndaşları terrorizmdə şübhəli bilinərək həbs olunmuş, Sudanda İran mədəniyyət mərkəzi bağlanmış, mərkəzin işçiləri ölkədən çıxarılmışdı. Həsən Ruhani Prezident seçiləndən sonra isə Körfəz

ölkələrindən Birləşmiş Ərəb Əmirlikləri, Küveyt ilə, hətta Səudiyyə Ərəbistanı ilə münasibətlərin istiləşməsi istiqamətində bir sıra addımlar atıldı, qarşılıqlı səfərlər həyata keçirildi. Beləliklə, 2014-cü il İran xarici siyasətinə izolyasiyadan tədricən çıxma ili kimi düşmüşdür.

### *Gürcüstan*

Cənub Qafqazda qonşumuz Gürcüstan üçün də 2014-cü il taleyüklü olmuşdur. İlk növbədə Mixael Saakaşvilidən sonra Gürcüstan öz xarici siyasət kursunu müəyyən etməli idi. Gürcüstanın qarşısında 2 mühüm istiqamət dayanırdı: Qərbyönlü siyasətin davamı və Rusiya ilə münasibətlərin yenidən qurulması. Xüsusilə, Rusiyanın Abxaziya və Cənubi Osetiyanı işğalından sonra Gürcüstanın bu ölkə ilə münasibətlər qura bilməsi dumanlı görünür. Seçkilərdə qalib gəlmiş "Gürcü arzusu" koalisiyası daxilində belə xarici siyasətin təməl istiqamətləri ilə bağlı vahid mövqe yoxdur. Təsadüfi deyil ki, keçmiş müdafiə naziri İrakli Alasaniyanın rəhbərlik etdiyi qatı Qərbpərəst qrupun fərqli siyasəti koalisiyanın parçalanması ilə yekunlaşdı. Gürcüstan 2015-ci ilə ölkədə sabitlik üçün böyük təhdidlərlə və qeyri-müəyyənliklərlə gedir. Xarici siyasətdə yeganə tam qəti mövqe Azərbaycan-Gürcüstan-Türkiyə strateji müttəfiqliyi və bu formatda birgə layihələrin davamlı olmasıdır. Çünki bu münasibətlər etibarlı tərəfdaşlıq üzərində qurulub. 2014-cü il ərzində bu istiqamətdə əməkdaşlıq daha da dərinləşmiş, üçtərəfli formatda Prezidentlər Sammiti başda olmaqla, xarici işlər, enerji, nəqliyyat nazirlikləri arasında görüşlər keçirilmişdir.



### *Ermənistan*

2014-cü il regionda ən etibarsız ölkə olan Ermənistanın bu xüsusiyyətini bir daha bütün dünyaya göstərmiş oldu. Bu il Ermənistan üçün 2 həyati əhəmiyyətli hadisə ilə yadda qalmışdır. Birincisi, bu ölkənin gələcək mövcudiyyətini şübhə altına alan demoqrafik struktura həlledici təsir edə biləcək miqrasiyanı qeyd etmək olar. Artıq neçə illərdir ki, Ermənistanda əhalinin ölkədən qaçması davam edir. Son illər ildə 70-100 min nəfər əhali ölkəni tərk edir. 2014-cü ildə də bu tendensiya davam etmiş, 100 minə yaxın əhali xaricə miqrasiya etmişdir. Ölkədə təbii artım yoxdur. Digər tərəfdən isə işçi miqrantların əsasən gənc və ortayaşlı kişilər olması ölkədə gender disbalansına da ciddi təsir edir. Yeni ailələrdə erməni qadınlarla əcnəbi kişilərin birliyi bir neçə dəfə çoxalmışdır. Hətta erməni ekspertlər belə, bununla bağlı həyəcan təbili çalırlar. Bu isə Ermənistanı bir dövlət kimi var olmaq təhlükəsi ilə qarşı-qarşıya qoyur.

2014-cü ildə Ermənistan xarici siyasətində ən mühüm hadisə isə bu ölkənin Avrasiya İqtisadi Birliyinə üzv olmaqla bağlı qəbul etdiyi qərar olmuşdur. Bu addımı atmaqla Ermənistan beynəlxalq aləmdə heç bir halda etibar ediləsi tərəfdaş olmadığını bir daha göstərdi. Belə ki, ən azı 5 ildir ki, Avropa İttifaqının Şərq Tərəfdaşlığı çərçivəsində və hətta bundan əvvəl də Ermənistan Avropaya inteqrasiya istiqamətində addımlar atırdı. 2014-cü ildə isə birdən-birə Rusiya yönlü bir iqtisadi birliyə qoşulmaqla, illərdir bütün tərəfləri aldatmış olduğunu göstərdi. Ən maraqlısı isə odur ki, Ermənistanın bu addımına Qərb dövlətləri heç bir halda

ciddi reaksiya vermədilər. Beləliklə, 2014-cü il Ermənistanın xarici siyasətində etibarsız tərəfdaş olmasının bir daha təsdiq olunduğu il kimi tarixə düşdü.

### *Azərbaycan*

Nəhayət, 2014-cü il Azərbaycanın xarici siyasəti üçün də yaddaqalan olmuşdur. Ətraf ölkələrdə qeyri-sabit, dəyişkən, mürəkkəb siyasi proseslərin baş verdiyi bir mühitdə Azərbaycan sabit xarici siyasət kursuna əsaslanan öz inkişaf modelini ortaya qoymuşdur. Xarici siyasətdə Azərbaycan modeli milli maraqlara, bərabərhüquqlu tərəfdaşlığa, etibarlı tərəfdaşlığa söykənir. 2014-cü ildə də Azərbaycan bu inkişaf yoluna sadiq olduğunu göstərmiş, xüsusən də beynəlxalq aləmdə ən yüksək səviyyələrdə öz etibarlılığını sübut etmişdir. Belə ki, 2014-cü ilin may ayında Praqada Şərq Tərəfdaşlığı sammitində Ermənistan Prezidenti Türkiyə rəsmilərinin bu tədbirdə olmamasından istifadə edərək, Türkiyə əleyhinə danışdığında, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin buna imkan verməyərək, "Türkiyə burda deyil, amma mən burdayam", deməsi Azərbaycanın öz tərəfdaşlarına nə qədər etibarlı olduğunu göstərdi və 2014-cü ilə öz damğasını vurdu. Azərbaycan digər qonşuları ilə münasibətdə də etibarlı mövqeyini ortaya qoymuşdur. 2014-cü ildə Azərbaycan və İran Prezidentinin qarşılıqlı səfərləri çərçivəsində görüşlər zamanı Prezident İlham Əliyev Azərbaycan-İran münasibətlərində üçüncü bir dövlətin müdaxiləsinə imkan verilməyəcəyini bildirmişdir.



Gürcüstana münasibətdə də Azərbaycan əvvəlki öhdəliklərinə sadiq qaldığını göstərmişdir. 2014-cü ildə Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli layihələri prioritet olaraq qalmışdır. Son ildə Azərbaycan həm Türkiyə, həm də Gürcüstanda əsas investorlardan olmuşdur. Gələn il üçtərəfli əməkdaşlığın növbəti nəhəng layihəsi – Bakı-Tbilisi-Qars dəmir yol xətti istifadəyə veriləcəkdir və bu da üçtərəfli formatda əməkdaşlığın uğurlarının göstəricisidir.

Azərbaycan 2011-2012-ci illərdə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv olmaqla öz xarici siyasət tarixində indiyədək ən yüksək mərhələni yaşamışdır və buna görə də sonrakı illər daha məsuliyyətlidir. Azərbaycan gələn ilə ilk Avropa oyunlarının ev sahibi kimi hazırlaşır və bu, beynəlxalq birlik tərəfindən Azərbaycana etibar edilməsini bir daha təsdiq edir.

Beləliklə sabit və davamlı inkişaf yolu tutan Azərbaycan 2014-cü ildə də dünya birliyinin diqqətində olan bir ölkə kimi milli maraqlara söykənən etibarlı və bərabərhüquqlu tərəfdaş kimi özünü təsdiq etmişdir.

***Newtimes.az***
***16.12.2014***

## DÜNYA ÇEMPİONATININ SİYASİ CİZGİLƏRİ

"Futbol paytaxtı" Braziliyada keçirilən futbol üzrə XX dünya çempionatı Almaniyanın qələbəsi ilə başa çatdı. Hər bir böyük idman yarışı kimi bu tədbir də idman tarixinə yazılmaqla yanaşı, siyasi məqamlarla da yadda qaldı.

İlk növbədə bütün dünya ictimaiyyəti Braziliyada futbolun bayram kimi qeyd olunacağını gözlədiyi halda, ard-arda tətil və etirazların keçirilməsi təəccüb doğurdu. Hələ çempionat başlamazdan öncə yerli əhali infrastruktur layihələrinə sərf edilən vəsaitin sosial ehtiyaclara yönəldilməsi tələbi ilə böyük nümayişlər keçirirdilər. Bununla Latın Amerikasının iqtisadi nəhəngi Braziliyanın qlobal səhnədə iddia etdiyi mövqenin ölkə əhalisi tərəfindən nə qədər dəstəklənməsinə də aydınlıq gəlmiş oldu. Belə ki, yaxın gələcəkdə dünyanın iqtisadi gücləri arasında ilk beşliyə daxil olmağı hədəfləyən Braziliya BMT Təhlükəsizlik Şurasının da daimi üzvü olmaq iddiasındadır. XXI əsrin siyasi arxitekturasında qlobal oyunçu olmaq istəyən Braziliya bu dünya çempionatında sanki ilkin testdən keçirdi. Dünya çempionatı özüözlüyündə qlobal miqyaslı tədbirdir. Belə olan halda yerli əhalinin etirazları qloballaşma əleyhinə addım



kimi də qiymətləndirilir. Beləliklə, Braziliyanın dünya səhnəsində iddia etdiyi mövqe ilə əhalinin münasibətinin hələlik üst-üstə düşmədiyi müşahidə edilir.

Çempionata ev sahibliyi edən Braziliya komandasının oyunları siyasi müstəvidə özünəməxsus cizgilərə malikdir. Burda əsas rəqabət Amerika qitəsi daxilində nəzərdən keçirilir. Birincisi, əgər Braziliya öz evində Uruqvayla qarşılaşıb məğlub olsa idi, yəqin ki, bu ölkədə hakimiyyət böhranına səbəb ola bilərdi. Çünki, 1950-ci ildə Braziliya müharibədən sonra ilk dünya çempionatına ev sahibliyi edərkən, Braziliya futbolçularının Uruqvay milli komandasına məğlub olması bu ölkə tarixində ən böyük faciələrdən sayılır. Ona görə də Braziliya-Uruqvay qarşıdurması hər iki ölkə vətəndaşları tərəfindən siyasi əhəmiyyətə malik hadisə hesab olunur. Lakin hazırkı çempionatda Uruqvayın Kolumbiyaya uduzması bu təhlükəni uzaqlaşdırdı. Əvəzində Braziliyanın dörddə birdə Kolumbiya ilə oyunu şərhçilər tərəfindən "kofe mübarizəsi" kimi qiymətləndirildi. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatlarına əsasən kofe istehsalına görə dünyada birinci Braziliya, ikinci isə Kolumbiyadır. Çempionatda da "kofe oyunu"nda yerlər dəyişmədi. Braziliya qalib gəldi. Əgər Braziliya finala çıxa bilsəydi, Latın Amerikasında liderlik uğrunda mübarizənin də şahidi ola bilərdik. Ancaq finalda Amerika qitəsinin nüfuzunu Argentina təmsil etdi.

Futbol çempionatı Avropa ölkələrinin mövqeyi baxımından maraqlı oldu. Bu çempionat da göstərdi ki, qlobal böhranın əsas halqası Avropadır. Avropa ölkələri dünyada maliyyə-iqtisadi, mədəniyyət, beynəlxalq hüquq, ədalət böhranı ilə yanaşı, futbol böhranından da

əziyyət çəkdiklərini nümayiş etdirdilər. Belə olmasaydı, İspaniya, İngiltərə, İtaliya kimi ölkələr qrupda qalmazdı. Doğrudur Almaniya çempion olmaqla "Qoca qitə"nin imicini qorudu. Ümumiyyətlə, Almaniya son illər II Dünya müharibəsindən sonra ilk dəfə özünəməxsus siyasi, iqtisadi siyasət xətti həyata keçirir. Belə ki, Almaniya "ərəb oyanışı" proseslərində digər Qərb tərəfdaşlarından fərqli olaraq hadisələrdən kənar qalmağa üstünlük verdi. Daha sonra Ukrayna hadisələri zamanı da Almaniya məhz öz milli maraqlarına uyğun hərəkət etdi. Almaniya Rusiyanın karbohidrogen ehtiyatlarından asılılığı nəzərə alaraq, Ukrayna hadisələrinə münasibətdə liberal mövqe ortaya qoydu. Almaniya Rusiya ilə əməkdaşlığına hər hansı üçüncü dövlətdən yana zərər gətirmək istəmir. Digər tərəfdən son günlər Almaniya ilə ABŞ arasında müəyyən problemlərin yaşandığının şahidi oluruq. Almaniya ABŞ tərəfindən güclü agentura nəzarətinə etiraz etməyə başladı. Əslində II Dünya müharibəsindən sonra belə bir nəzarətin olması heç kimə, o cümlədən alman rəsmilərinə sirr deyildi. Sadəcə, ilk dəfə olaraq Almaniya buna rəsmi etirazını nümayişkaranə şəkildə bildirdi. Beləliklə, kifayət qədər müstəqil görünən bu siyasi xətt sanki komanda çempion olmaqla öz məntiqi nəticəsini tapmış oldu.

Qrupdan çıxan Avropa komandaları arasında oyunlar da siyasi çəkisinə görə əhəmiyyətli idi. Bu mənada Almaniya-Fransa qarşıdurması bütün dünyanın diqqətini özünə cəlb etmişdi. Maraqlı məqam isə daha çox ondan ibarət idi, bəlkə də tarixdə ilk dəfə fransızlar Almaniya komandasına azarkeşlik etmişdilər. Doğrudur, bu, Almaniyanın Fransa ilə deyil, Əlcəzairlə görüşü zamanı



olmuşdur. Belə ki, dünya çempionatı tarixində ilk dəfə qrupdan çıxan Əlcəzair yığmasının azarkeşləri Fransada bu qələbəni iğtişaşlarla qeyd etdilər. Marsel və ətrafdakı şəhərlərdə Əlcəzair əsilli miqrantların qələbə sevinci fransızlar tərəfindən heç də müsbət qarşılanmadı. Ona görə də Almaniya ilə Əlcəzair oyununda fransızlar öz əzəli rəqibləri olan Almaniyaya azarkeşlik edirdilər.

Ümumiyyətlə, Əlcəzairin XX dünya çempionatının siyasi meydanında ən mühüm cizgi olduğunu desək, zənnimcə, yanılmarıq. Bu yığmanın bütün əsas oyunçularının Fransada anadan olanlar olması məsələyə siyasi rəng qatırdı. Fransada artıq bütöv bir komanda formalaşdıra biləcək qədər miqrant nəslin yetişməsi və onların öz ana vətənlərini seçməsi Avropanın artıq bu yeni sakinlərlə hesablaşmaq zərurətini ortaya qoyur. Bu çempionatda Fransa yığmasının Əlcəzair əsilli ulduz Kərim Benzamasız necə təsir bağışlayacağı da bir ayrı məsələdir. Ümumiyyətlə, Fransa yığma komandasının 23 nəfərlik heyətindən 12-si Afrika əsillidir və onlardan əksəri müsəlmandır. Avropanın köklü ölkələrindən biri olan Fransa artıq özünü müsəlman azlığının artan mövqeyi ilə üz-üzədir. Xüsusən də, Fransanın Aralıq dənizi sahillərində müsəlman miqrantlar böyük siyasi çəkiyə malikdirlər.

Əlcəzair millisinin futbolçularının fərdi hərəkətləri də siyasi cizgiləri ilə yadda qaldı. Belə ki, bəzi ərəb iş adamları və sənətçiləri DÇ-2014-də Əlcəzair milisinin futbolçularının vurduğu hər qola görə pul mükafatı, qələbəyə görə isə son model avtomobil hədiyyə edəcəklərini açıqlamışdılar. Yığmanın oyunçusu İslam Slimani isə özünün və komanda yoldaşlarının bu mükafta eh-

tiyacı olmadığını və onlara veriləcək pulun Fələstin xalqına göndərilməsini istəyib. Bu da islam aləmində çox da aktiv olmayan Əlcəzair dövlətinin oyunçularının müsəlman təəssübü kimi qiymətləndirilmişdir.

Bu dünya çempionatında siyasi olaraq yaddaqalan digər cizgilər də olmuşdur. İran komandasının açıq geyinən qadın azarkeşləri, Braziliyaya turist vizası ilə gələn 200-ə qədər Qana vətəndaşının qaçqın statusu almaq üçün müraciətləri, Şimali Koreyanın rəsmi televiziya kanalında bu ölkənin millilərinin çempion olması haqqında montaj kadrların yayılması Braziliyada keçirilən dünya çempionatından yaddaşlarda qalmışdır.

Beləliklə, XX dünya çempionatı qlobal miqyasda siyasi hadisələrlə zəngin bir hadisə kimi tarixə qovuşdu. Yeni dövrdə artıq müstəqil siyasət həyata keçirməyə başlayan Almaniyanın qələbəsini təsadüfi hesab etmək olmaz. Avropanın siyasi xəritəsində yaranmaqda olan yeni qüvvələr balansı futbolda artıq öz liderini tapmış oldu.

***Newtimes.az***
***15.07.2014***



## XRİSTİANLIQDA "BEŞİNCİ KOLON" KONTEKSTİ

Müasir dövrümüzdə ermənilər bütün dünyaya özlərini məzlum xristianlar, yaşadıqları torpaqları Şərqdə xristianlığın son qalası, mifik dövlətlərini ilk xristian dövləti kimi təqdim etməyə çalışırlar. Xüsusən də, ermənilərin əsrlərdir himayələrində yaşadıqları türklərə qarşı I Dünya müharibəsi zamanı xəyanətdən sonra bu miflər dünya səviyyəsində təbliğ olunur. Bu baxımdan Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın bu günlərdə Vatikan səfərinin arxasında da dünya ictimaiyyətini və xristian dünyasını aldatmağa yönəlmiş növbəti cəhd dayanır. Səfərin ermənilərin böyük faciə adlandırdıqları 24 aprel ərəfəsində həyata keçirilməsi də yalanlarla dolu bu siyasətin tərkib hissəsidir. Çox təəssüf ki, əsas missiyası dünyada sülh və barışıq tərəfdarı olan Papa da siyasi oyunlara qoşularaq, hadisələrə tarixi faktlara əsaslanan qiymət deyil, miflərə söykənin birtərəfli mövqe bildirdi. Lakin tarixi faktlar təsdiq edir ki, tarixən qriqoryan ermənilər, hətta xristian dünyasında belə xəyanətkar və dönük hesab edilmişlər. Tarixin müxtəlif dövrlərində xristian dünyasının öz daxilində belə ermənilər "beşinci kolon" rolunu oynamışlar.

*Xalkedon kilsə məclisindən başlayan yol*

Kilsə və din ermənilərin həyatında nə qədər taleyüklü rol oynasa belə, tarix göstərmişdir ki, din ermənilər üçün hər zaman siyasi alət olmuşdur. Qriqoryan, katolik, protestant, yunan-pravoslav, monofizit, diofizit, evangelist və digər dini əqidə daşıyan ermənilər dünyaya səpələnmişlər. Ermənilərin xristian dininin fərqli məzhəblərində təmsil olunması ilk növbədə onların müxtəlif himayədarların, "böyük qardaş"larının yardımına söykənməyə hesablanmışdır. Maraqlıdır ki, bu gün ən böyük türk düşməni rolunda çıxış edən qriqoryan ermənilərə uzun əsrlər, səlcuq dövründən bəri Səlcuq, Qaraqoyunlu, Osmanlı kimi türk dövlətləri sahib çıxmışdır. Həmin dövrün xristian Avropa dövlətləri isə erməniləri etibarsız hesab etmişlər.

Osmanlı dövlətində erməni qriqoryan kilsəsi ilk günlərdən rəsmi fəaliyyət göstərirdi, sultanların himayəsində idi. Həmin dövrün tarixinə nəzər saldıqda isə aydın olur ki, türklərin ermənilərə hamilik etdikləri dövrlərdə erməniləri məhz qriqoryan olduqları üçün xristian dünyası eretik (kafir) hesab edirdi. Yunan-pravoslav kilsəsi erməniləri kafir hesab etdiyi halda, Bizansdan fərqli olaraq Osmanlı sultanları ermənilərə şərait yaratmışlar. Fateh Sultan Mehmet İstanbulu fəth etdikdən sonra erməni kilsəsini Bursadan İstanbula köçürmüş və dini imtiyazlar vermişdir. Bunu erməni tarixçilərinin özləri də etiraf edir. XVII əsrdə osmanlı imperiyasına səyahət edən erməni səyyah Simon Lexaçi yazırdı: "Yunanlar ermənilərin həqiqi düşmənidir... Yunanların bütün hakimiyyəti boyunca bircə erməninin nəinki məskunlaşmaq, hətta ticarət üçün belə İstanbula



daxil olmasına icazə verilmirdi. Ancaq türklər İstanbulu aldıqdan sonra bir çox vilayətlərdən erməniləri bura gətirdilər" (Симеон Лехаци. Путевые заметки. Москва, 1965).

Bununla belə, hər kəsə yarınmaqda mahir olan ermənilər isə xristianlığın əsas məzhəblərində təmsil olunmaqla, vəziyyətdən çıxış yolu axtarmışlar. Tarixin müxtəlif dövrlərində protestant ermənilər İngiltərə və ABŞ missionerlərinə sığınmışdırsa, katolik ermənilərin sahibi Fransa olmuşdur. Fransa katolik ermənilərdən Yaxın Şərqdə proseslərə təsir və müdaxilə etmək üçün hər zaman istifadə etmişdir. Anadoluda erməni protestant kilsəsi isə 1850-ci ildən Osmanlı dövləti tərəfindən fərqli din təmsilçisi kimi tanınmışdır.

Beləliklə, dini əqidə baxımından olduqca fərqli olan qriqoryan-katolik münasibətləri tarixi ziddiyyətlərdən keçmişdir. Məlumdur ki, erməni qriqoryan kilsəsi tarixən katolik kilsəsinin dini ehkamlarını erməni milli kimliyinə təhdid kimi qiymətləndirmişdir. Hələ Sasani-Bizans müharibələri dövründə ermənilər Sasani hökmdarlarına yarınmaq üçün Qərb xristianlığına qarşı olmuş və bunun müqabilində Sasanilərdən müxtəlif imtiyazlar ala bilmişdilər. 451-ci ildə Xalkedon kilsə məclisində monofizit yolu tutmuş erməni kilsəsi Qərbə və Romaya qarşı münasibətini müəyyənləşdirmiş oldu.

Ərəb Xilafəti də ermənilərə qarşı Sasani siyasətini davam etdirirdi. Ermənilərin Bizansın "beşinci kolon"una çevrilməməsi üçün ərəblər də onların monofizit dini əqidəsinin qorunmasında və Qərb (Bizans və Roma) xristianlığına qarşı istifadə olunması istiqamətində siyasət həyata keçirirdilər. Beləliklə, tarixin qeyd olu-

nan dövrlərində qriqoryan ermənilər xristian dünyasına qarşı "beşinci kolon" rolunda olmuşdur.

Kilikiya çarlığının 1375-ci ildə süqutu ilə uzun əsrlər mövcud olmayan erməni dövlətçiliyi dövlətin olmadığı dövrlərdə milli kimliyin qorunması üçün qriqoryan kilsəsinə ümid bəsləmişdir. Maraqlıdır ki, 1375-1918-ci illəri əhatə edən bu dövrdə ermənilər milli kimlikləri üçün ən böyük təhlükə olaraq müsəlman türkləri deyil, katolik kilsəsini hesab etmişlər. Kilikiyanın süqutundan sonra erməni kilsəsi məhz Roma kilsəsinin nüfuz dairəsinə düşməmək üçün sinod toplamış və 1441-ci ildə katolikosluğun daha Şərqə – Eçmiədzinə köçürülməsinə qərar vermişdir. Dünyada yalnız ermənilərin təmsil olunduğu qriqoryanlıq xristianlığın deyil, erməniliyin bastionu olmuşdur və əsas təhlükə kimi də islam dinini deyil, katolik kilsəsini hesab etmişlər.

### *Katolik kilsəsi erməni siyasi riyakarlığının hədəfində*

Bütün bu ziddiyyətlərin işığında Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın bu günlərdə Vatikana səfəri və Papadan xristianlıq təəssübü göstərmək istəməsini siyasi riyakarlıqda növbəti addım kimi qiymətləndirmək olar. Tarix Katolik kilsəsini özlərinin milli kimliklərinə qarşı ən böyük təhdid kimi qiymətləndirən ermənilərin öz maraqları üçün lazım olduqda Vatikana yalvarmalarına dəfələrlə şahidlik etmişdir.

Məlum olduğu kimi ermənilərin katolikliyə ilk meyli səlib yürüşləri dövründə olmuşdur. Səlib yürüşləri zamanı ermənilər himayəsində yaşadıqları türklərə və ərəblərə xəyanət edərək, səlibçilərin tərəfində vuruşmuşlar. Səlibçilərin Yaxın Şərqdə Edessa, Antioxiya kimi şəhərləri almasında bu qala-şəhərlərdə yaşayan ermənilərin şəhəri təslim etməsi ilə bağlı onlarla faktlar var. Fikrimizcə, məhz bu dövrdən səlib yürüşlərinin əsas havadarlarından olan Vatikanla ermənilər arasında gizli sövdələşmələr olmuşdur və hazırda da Ermənistan bu missiyadan sui-istifadə edir.

Sonrakı mərhələdə də XVI-XVII əsrlərdə müəyyən qrup ermənilərin həm Avropada (Reç Pospolita), həm də Anadoluda katolikliyi qəbul etməsi siyasi səbəblərə əsaslanırdı. Bununla belə, Vatikanın katolik ermənilərə etimad göstərməsi üçün bir neçə əsr keçmişdir. Yalnız 1792-ci ildə Papa erməni katolik kilsəsini rəsmən Roma kilsəsinə bağlı bir kilsə təşkilatı kimi qəbul etmişdir. Fransa elçisinin təkidi ilə 1831-ci ildə Sultan II Mahmud (1808-1839) da erməni katoliklərini bir camaat olaraq qəbul etdi. Bununla da Osmanlı ərazilərində yaşayan erməni katoliklər Vatikan və Fransanın təsir alətinə çevrildilər.

Ermənilər katolik dini iyerarxiyasında xüsusi yeri olan ayrıca monax ordeni ilə də təmsil olunurlar. Konstantinopol erməni patriarxından üz döndərən Mxitar (1676-1749) adlı erməni 1701-ci ildə burada monax ordeni yaratmış, sonradan isə Venesiyaya qaçaraq, 1717-ci ildə ordenin Adriatik dənizində Müqəddəs Lazar adasında məskunlaşmasına icazə almışdır. Həmin dövr Osmanlı dövlətinin dənizdə əsas rəqiblərindən olan Venesiyanın himayəsinə sığınan Mxitar monax ordeni Papanın da himayəsinə keçmişdir. Osmanlıya xəyanətinə görə, Venesiyadan ada peşkəş alan Mxitar monax

ordeni bu gün də fəaliyyətini davam etdirir və katolik dünyasında ermənilərin maraqlarını qoruyur.

Beləliklə, tarix boyunca erməni milli kimliyinin qoruyucusu olan qriqoryan kilsəsinin özünə ən böyük təhdid bildiyi katolik dünyasına münasibəti birmənalı olmamışdır. Bununla belə, daim dindən siyasi alət kimi istifadə edən ermənilər yeri gələndə dini əqidələrini siyasətdən aşağı tutmuş, şəxsi mənfəətləri üçün istənilən riyakarlığa hazır olmuşlar. Fikrimizcə, Serj Sarkisyanın Vatikana bu səfəri də qeyd olunan tarixi missiyada növbəti halqadır. Erməni siyasətində din sülh üçün deyil, ədavət üçün istifadə olunmaqda davam edir.

***Newtimes.az***
***13.04.2015***



## HƏMSƏDRLƏRİN DANIŞIQLARI İNHİSARA ALMASINA QARŞI ALTERNATİVLƏR

Son dövrlər siyasi dairələrdə ən çox müzakirə olunan mövzu Minsk qrupunun həmsədrlərinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqları inhisara alması və bunun mövcud status-kvonun saxlanmasına xidmət etməsi ilə bağlı vəziyyətdir. Azərbaycan tərəfi bütün səviyyələrdə həmsədrlərin fəaliyyətindən narazılığını bildirmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dəfələrlə bildirmişdir ki, münaqişənin hazırkı vəziyyətdə dondurulmuş şəkildə saxlanılması xalqımızın maraqlarına uyğun deyil və biz bununla barışmayacağıq. Danışıqlar prosesinin məntiqi nəticə ilə yekunlaşmamasının bir sıra səbəbləri vardır ki, bu xüsusda danışıq aparan tərəflərin islamofob meyilləri də özünü açıq-aydın göstərir.

Digər tərəfdən, həmsədrlər münaqişə ilə bağlı nəinki ATƏT, ümumilikdə bütün digər platformalarda adicə müzakirələrə belə dözümsüz yanaşır, öz məqsədlərinə uyğun müdaxilə etməyə çalışırlar. Bu günlərdə AŞPA-da müzakirəyə çıxarılan qətnamələrlə bağlı həmsədrlərin müdaxiləsi hadisələrin real axarına ciddi təsir göstərmişdir.

Bu baxımdan Ermənistanla həmsədrlərin mövqeyi üst-üstə düşür. Hər dəfə Azərbaycan tərəfindən həmsədrlər fəaliyyətsizlikdə ittiham olunduqda, Ermənistan tərəfi münaqişənin bu formatda həllini alqışladıqlarını bildirirlər. Belə görünür ki, Ermənistanda həmsədrlərin işlərinə verilən qiymət fəaliyyətsizlik səviyyəsi ilə bağlıdır. Yəni real nəticə üçün heç bir addımın atılmaması əsas meyar kimi götürülür.

Həmsədrlər danışıqlar prosesini nə qədər inhisara almağa çalışsalar belə, artıq Azərbaycanın ədalətli mövqeyinin əks olunduğu böyük bir beynəlxalq hüquqi əsas yaranmışdır. BMT, İslam Əməkdaşlıq Təşkilatı, AŞPA, Qoşulmama Hərəkatı, NATO və digər beynəlxalq təşkilatlar çərçivəsində sənədlər qəbul olunmuşdur.

Azərbaycan həmsədrlərin və Ermənistanın münaqişənin ancaq Minsk qrupu formatında aparılması ilə bağlı son bəhanəsini də anlayışla qarşılamağa hazırdır. Əgər yeganə platforma olaraq bu qrup götürülürsə belə onda ən azı Minsk qrupu üzv dövlətləri tam tərkibdə məsələyə öz münasibətlərini bildirmək imkanına malik olmalıdır. Minsk qrupunun tərkibində isə tərəflərdən və həmsədrlərdən əlavə Almaniya, Polşa, Türkiyə, Belarus, Finlandiya və İsveç də vardır. Bu dövlətlərdən hər birinin münaqişə ilə bağlı proseslərə münasibət bildirmək imkanı olmalıdır. Xüsusən də nəzərə alsaq ki, hazırkı format 20 ildir nəticəsiz davam edir.

Bu ideyalar Azərbaycanda səfərdə olan İsveçin xarici işlər naziri Marqot Vallström tərəfindən də səsləndirilmişdir. O bildirib: "Prosesin əsas iştirakçısı həmsədrlərdir. Lakin münaqişənin sülh yolu ilə həlli üçün iş görməliyik. Beynəlxalq hüququn ərazi bütövlüyü, zorakılığın artmaması və xalqların öz müqəddəratını təyin etməsi kimi prinsipləri nəzərə alınmaqla problemin həllinə nail olmalıyıq. Ola bilər ki, daha geniş tərkibdə görüşə ehtiyac yaransın. Biz bu təklifi veririk, bu görüşə də hazırıq".

Minsk qrupunun əsas vəzifəsi danışıqları aparmaqdır. Lakin hazırda onlar daha çox münaqişə ilə bağlı başqa müstəvilərdə aparılan müzakirələrin qarşısını almaqla məşğuldurlar. Yaxşı olardı ki, həmsədrlər öz qüvvələrini bu kimi işlərə deyil, birbaşa öz vəzifə borclarına yönəldərdilər.

***"Xalq qəzeti"***
***12.02.2016***

## BEYNƏLXALQ TƏŞKİLATLAR VƏ VASİTƏÇİLƏR NƏYİN YANINDADIR – ƏDALƏTİN, YOXSA İŞĞALIN?

Son günlər cəbhə xəttində baş verən hadisələr Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə bütün dünyanın diqqətini cəlb etmişdir. İndi müharibə tək səngərdə deyil, bütün platformalarda, o cümlədən beynəlxalq təşkilatların müstəvisində də davam edir. Azərbaycanın işğal olunmuş ərazilərində erməni silahlı qüvvələrinin təxribatı ilə başlayan atışmaların əks-sədası qlobal səhnədə də kimin nəyi müdafiə etdiyini əyani surətdə göstərir.

Bu günlərdə beynəlxalq təşkilatlar, onların rəhbərləri tərəfindən münaqişənin aktiv mərhələyə keçməsi ilə bağlı ciddi narahatçılıq bildirilməklə yanaşı, kimin hansı mövqeni müdafiə etməsi də bir daha göründü. Azərbaycanın ədalətli mövqeyini birmənalı şəkildə dəstəkləyənlərlə yanaşı, məsələyə neytral yanaşanlar, hətta işğalçıya haqq qazandırmağa çalışanlar da var. Bu məqamda bəzən münaqişənin nədən yaranmasına, Azərbaycan torpaqlarının ermənilər tərəfindən işğal olunmasına deyil, sırf humanitar yanaşmaya da üstünlük verənlər tapılır.

Halbuki Azərbaycan torpaqlarının işğal olunması faktı BMT Təhlükəsizlik Şurasının və əksər beynəlxalq



təşkilatların sənədlərində öz əksini tapıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Təhlükəsizlik Şurasının son iclasında ermənilərin hazırkı təxribatının əsl səbəblərini göstərdi: "Ermənistanın əsas məqsədi status-kvonun dəyişməz qalmasıdır. Danışıqlar prosesi iyirmi ildən artıqdır ki, aparılır. Bu iyirmi il ərzində həlledici məqamlarda Ermənistan həmişə təxribatlara əl atırdı. Təmas xəttində Ermənistan tərəfindən daim gərginlik yaradılır. Eyni zamanda, keçən əsrin sonlarında Ermənistan parlamentində terror aktının törədilməsi də məhz bu məqsədi güdürdü ki, münaqişə ilə bağlı mümkün olan razılaşmanı əngəlləsinlər və beləliklə, status-kvonu saxlaya bilsinlər".

Bu baxımdan Azərbaycanın ədalətli mövqeyi bir sıra beynəlxalq təşkilatların rəhbərləri tərəfindən dəstəkləndi. AŞPA Sədri Pedro Aqramunt işğalçını öz adı ilə adlandırdı. P.Aqramunt bəyanatında bildirdi ki, "Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq qoşunlarını işğal altında olan Azərbaycan torpaqlarından çıxarmalıdır."

İslam Əməkdaşlıq Təşkilatı da Azərbaycanın haqq davasına öz daimi dəstəyini göstərdi. Təşkilat erməni hərbi qüvvələri tərəfindən Azərbaycana qarşı təcavüzkar addımları pislədi. İƏT-in Baş katibi İyad Ameen Mədani Azərbaycan torpaqlarındakı erməni işğalının davam etməsindən yaranan bu gərginlikdən narahat olaraq bildirmişdir ki, "Erməni hərbi qüvvələri işğal etdiyi Azərbaycan torpaqlarını dərhal qeyd-şərtsiz tərk etməlidir".

Hazırda davam edən silahlı münaqişə ilə bağlı Türk dünyasını təmsil edən təşkilatlar da Azərbaycana dəs-

təklərini bildirmişlər. Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının Baş katibi Ramil Həsənov "Problemin sülh yolu ilə həll edilməsi üçün bütün erməni silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxmalarının vacib olduğunu bildirmişdir".

Beləliklə, beynəlxalq ictimaiyyət Azərbaycanın haqlı mövqeyini müdafiə edir. Lakin təəssüf ki, erməni diasporunun pulla ələ aldığı bəzi riyakar siyasətçilər də təmsil etdikləri beynəlxalq təşkilatların tribunasından öz çirkin məqsədləri üçün istifadə edirlər. Amerika Dövlətləri Təşkilatının baş katibi Luis Almagronun bəyanatı bu təşkilatın prinsiplərini belə pozur. Birincisi, dünyanın digər yarımkürəsinin dövlətlərinin birləşdiyi bir təşkilatın öz regionunda baş verən hadisələrə deyil, Qafqazda baş verən hadisələrə münasibət bildirməsi, həm də ədalətsiz yanaşması özü-özlüyündə maraqlıdır. Bəs necə olur ki, L.Almagro Afrikada, Asiyada, lap elə Amerika qitəsinin özündə baş verən hadisələrə belə canfəşanlıqla mövqe bildirmir. Deməli, xüsusi bir maraq var.

2010-2015-ci illərdə Uruqvayın xarici işlər naziri olan Luis Almagronun erməni pulları hesabına danışması ilk dəfə deyil. Onun "Daşnaksütyun" partiyasının və "Hay Data" qrupunun üzvləri ilə davamlı əlaqəsi var və erməni puluna satılmış siyasətçilərdən hesab olunur. O, xarici işlər naziri olarkən Dağlıq Qarabağla bağlı Latın Amerikası ermənilərinin tədbirlərində məsuliyyətsiz bəyanatlar vermiş və sonradan öz sözlərini təkzib etmişdir. Yəni, Luis Almagronun erməni pulunun əsiri olması faktdır.



İkincisi, hərbi əməliyyatlar Azərbaycanın işğal olunmuş ərazilərində gedir. Belə olan halda baş katibin iddia etdiyi kimi Azərbaycan tərəfindən beynəlxalq hüquq prinsiplərinin pozulması necə ola bilər. Xatırlatmaq yerinə düşər ki, onun təmsil etdiyi təşkilatın bütün üzvləri Azərbaycanın ərazi bütövlüyünü tanıyır və müvafiq olaraq hazırda müharibə gedən ərazidə kimin təcavüzkar olduğunu bilirlər. Belə olan halda Amerika Dövlətləri Təşkilatında təmsil olunan ölkələr erməni diasporunun pulu ilə hərəkət edən baş katibin onların adından danışmasına niyə imkan verirlər? Azərbaycan bununla bağlı öz mövqeyini həm təşkilata, həm də təşkilatda təmsil olunan bütün ölkələrə bildirəcəkdir.

***Newtimes.az***
***05.04.2016***

## ATƏT-İN CƏNUBİ QAFQAZ ÖLKƏLƏRİNDƏKİ NÜMAYƏNDƏLİKLƏRİNƏ VERİLƏN QİYMƏT HANSI MEYARLARA ƏSASLANIR

Məlum olduğu kimi, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı 1975-ci ildə müşavirə adı ilə yaranmışdır. Təşkilatın əsas məqsədi Avropa qitəsində təhlükəsizlik və əməkdaşlıq problemlərinin həlli istiqamətində çalışmaq olmuşdur. Yəni əsas fəaliyyət meydanı Avropadır. Sonradan bir neçə Asiya ölkəsi də daxil edilmişdir. Lakin yarandığı ilk gündən Avropada yerləşməyən iki dövlət - ABŞ və Kanada da burda təmsil olunur. Təşkilatın fəaliyyətini izləyərkən onun iş mexanizmi ilə bağlı maraqlı bir cəhət diqqəti cəlb edir. Belə ki, bu qurumun prioritet elan etdiyi demokratiya, insan hüquqları, seçki şəffaflığı ilə bağlı məsələlərdə tətbiq olunan tələblər yalnız Avrasiya ölkələrinə şamil olunur. Təsadüfi deyil ki, bu məkanda bütün səviyyələrdə keçirilən səsvermələrdə əsas yoxlayıcı rolunda olan ATƏT-in müşahidə missiyalarını ABŞ-da qanunvericilik əsasında seçki məntəqələrinin həndəvərinə belə buraxmırlar. Yaxud ATƏT-in illik hesabatlarında heç zaman okeanın o tayındakı ölkələrdə insan haqları, vətəndaş cəmiyyəti ilə bağlı problemlərin əks olunmasının şahidi olmaq mümkün deyil.



Sovetlər İttifaqı dağıldıqdan sonra müstəqillik qazanan Cənub Qafqazın hər 3 dövləti də ilk illərdən ATƏT-lə sıx əməkdaşlıq edir. Lakin bu əməkdaşlığın fərqli tarixçələri vardır. ATƏT-in bu 3 ölkədə ofisinin fəaliyyətinə ilk xitam verilən yer Gürcüstan olmuşdur. Belə ki, 2008-ci ildə Rusiya ilə Gürcüstan arasında münasibətlərin kəskinləşməsindən sonra ATƏT burda təhlükəsizlik və sülhyaratma ilə bağlı razılıq əldə edilə bilmədiyindən Tbilisidəki ofis fəaliyyətini dayandırdı.

2015-ci ilin iyulundan etibarən ATƏT-in Bakıdakı ofisinin bağlanmasının əsl səbəblərini isə cari ilin sentyabr ayında Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin nümayəndə heyətini qəbul edərkən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev səsləndirdi. Görüşdə cənab Prezident bildirdi ki: "ATƏT ofisinin yerli nümayəndəsi Azərbaycan əsilli Fransa vətəndaşı, Fransanın Xarici İşlər Nazirliyində çalışan yeganə azərbaycanlı idi. O, çox məşhur bir ailənin nümayəndəsidir. Onun mənsub olduğu nəslin nümayəndələri 1918-ci ildə müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Demokratik Respublikasının yaradıcılarından olub. Bu şəxs Azərbaycanda cəmi bir il fəaliyyət göstərəndən sonra iş otağında mənimlə fotosu olduğuna görə onu daimi komitənin iclasında günahlandıran ABŞ-ın ATƏT-dəki səfiri Bayerin ciddi müdaxiləsi nəticəsində işdən azad olunub".

ABŞ-ın ATƏT-dəki daimi nümayəndəsi Daniel Bayer isə bu arqumentlər qarşısında özünü gülünc vəziyyətə qoydu. Belə ki, o bu günlərdə verdiyi müsahibədə ikili standartlarını bir daha ortaya qoydu. Birincisi, D.Bayer ATƏT-in Bakı ofisinin keçmiş rəhbəri Aleks Şahtax-

tinskini nəzərdə tutaraq bildirib ki, "ATƏT-in bir çox sahə üzrə qiymətləndirmə missiyalarına yalnız hökumət liderləri ilə deyil, həmçinin vətəndaş cəmiyyəti ilə əlaqələrinə görə qiymət verirlər". Onun konkret faktlara əsaslanmayan bu arqumentinə bir müqayisə gətirmək istərdik. ATƏT-in Bakıdakı ofisinin rəhbəri etnik azərbaycanlı Aleks Şahtaxtinski olmuşdur və öz fəaliyyəti ərzində Azərbaycan cəmiyyətinin bütün dairələri ilə birgə tədbirlərlə yadda qalmışdır. Lakin, heç bir əsas olmadan və ya mandatına uyğun olmayan məsələlərdə müəyyən dairələrin siyasi sifarişləri yerinə yetirməmişdir. Arqument budursa, təşkilatın əsaslandığı ədalətli yanaşma hardadır.

İndi isə ATƏT-in İrəvandakı ofisinə baxaq. Burda rəhbər etnik cəhətdən erməni olan Argo Avakovdur. 2016-cı ilin martından fəaliyyətə başlayan A.Avakovun görüşlərinə baxsaq, əksəri dövlət rəsmiləriləd

ir. Həmin vaxtdan indiyədək Ermənistanda insan haqları, ifadə azadlığı ilə bağlı bir kəlmə də işlətməyib. Əksinə, yayda İrəvanda polis məntəqəsinin tutulması ilə bağlı hadisələrdə polisin professional davranışını və qanun çərçivəsində fəaliyyətini tərifləyib

(https://armenpress.am/eng/news/857604/osce-ambassador-praises-professionalism-of-armenian-police-during-july-events.html). Bəs görəsən nə əcəb D.Bayer bunlara diqqət etməyib.

İkincisi, D.Bayer müsahibədə bildirir ki, "Bilirəm ki, Azərbaycanda insanlar bəzən elə düşünürlər ki, biz səhərimizi Azərbaycanı necə tənqid etmək barədə fikirlərlə açırıq və hər gecə bunun haqqında fikirləşərək yuxuya gedirik. Ancaq bu, belə deyil". Kimi aldatmaq istəyirsiniz? Təkcə Bayerin tvitter səhifəsinə baxmaq kifayətdir ki, məsələnin əsl mahiyyəti görünsün. Onun tvitter hesabında hər ay ən az 15-20 şərh Azərbaycanla bağlı tənqidlərə, bəzi dostları ilə səmimi qucaqlaşmalara həsr olunub. Onu səhərdən-axşama qədər Azərbaycandan çox fikirləşdirən ölkələr arasında yalnız Rusiya bizi üstələyir. ATƏT-in digər 55 üzvü ilə bağlı Bayerin orta aylıq tvit statistikası yalanlarının üstünü açır. Bundan başqa digər ölkələrin balaca uğurları ilə bağlı sevinc dolu şərhləriniz olduğu halda, Azərbaycanla bağlı ancaq tənqidlərə rast gəlirik. Ancaq bizim nailiyyətlərimiz və uğurlarımız kifayət qədər çoxdur. Azərbaycanın torpaqlarının işğal altında qalması da hamının bildiyi və ATƏT-də sənədlərlə təsdiq olunan faktdır. Qalır yalnız ədalətli yanaşma.

Üçüncüsü isə D.Bayer Azərbaycanla ABŞ arasında münasibətlərin qurulmasında hansısa məsələlərə toxunur. Bu ilk növbədə onun mandatına uyğun deyil. Eyni zamanda ABŞ-Azərbaycan münasibətləri daim hərtərəfli və davamlı inkişafdadır. Hər iki tərəfdən bununla bağlı kifayət qədər uğurlu addımlar atılır. Bayer kimi diplomatlar isə bu cür fundamental münasibətlərə təsir etmək iqtidarında deyillər. Bayer ölkəsinin münasibətini zaman-zaman təmsil etdiyi cinsi azlıqların mövqeyi ilə səhv salır. Təsadüfi deyil ki, onun ATƏT-də əsas dostları olan səfirlər də "mavilər klubu"nun üzvləridir. Dövlət maraqları isə heç vaxt belə cılız yanaşmalara əsaslanmır.

***Newtimes.az***
***04.10.2016***

# SİVİLİZASİYA – YENİ MƏRHƏLƏDƏ

## ÇİN – DÜNYA SİVİLİZASİYASINDAN GEOSİYASİ ARENAYA

Müasir dövrün geosiyasi prosesləri artıq təkqütblü dünya modelinin davam edə bilməyəcəyini göstərir. Keçən əsrin sonlarından başlayaraq ortaya çıxan yalnız Qərbin, xüsusən də ABŞ-ın fövqəldövlət kimi qüdrəti üzərində qurulan dünya modeli dayanıqlı olmadığını göstərdi. Maraqlısı isə odur ki, təkcə siyasi və iqtisadi sahədə deyil, mədəni, dini, hətta dəyərlər sistemində də hegemonluğa və dominantlığa iddia edən Qərb böhranla qarşılaşdı, çətin dilemmalar qarşısında qaldı. Məlum olduğu kimi, birqütblü dünya sisteminin bu modelinin əsas dayağı isə yalnız Qərb dəyərləri üzərində qurulmuşdu. "Mənim kimi düşünməyən mənimlə yanaşı ola bilməz" ideyası üzərində qurulan bu model əvvəlcədən məhvə məhkum idi.

Əfqanıstanda, İraqda, Liviyada və ümumilikdə ərəb dünyasında sınaqdan keçirilən bu yanaşma ən nəhayət Ukraynadakı hadisələrin işığında həyat qabiliyyətini itirmiş oldu. Siyasi proseslər, iqtisadi böhranla yanaşı, mənəvi dəyərlərdə də böyük böhran yarandı. Avropa uzun illərdir təbliğ etdiyi ideyalara üz çevirdi. Avropa ölkələrində islamofobiya, dini dözümsüzlük, ultra-şovinist meyillərinin artması keçən əsrin ortalarındakı prosesləri xatırladır. İndi geosiyasi proseslərin təhlilçilərinin əsas qənaətləri bundan ibarətdir ki, dünya birqütblü qalacağı təqdirdə bəşəriyyət böyük fəlakətlərə, hətta yeni dünya müharibəsinə şahid ola bilər. Qərbin kosmopolit meyilli siyasətinə qarşı reaksiya ilə bağlı Rusiyalı mütəxəssis Anatoli Utkin yazır: "Öz dəyərlərinin ümumiliyinə iddia etməsi Qərbi hər şeydən öncə İslam və Çin sivilizasiyası ilə toqquşduracaq" (Уткин А.И. Глобализация: процесс и осмысление. Москва: Логос, 2001, стр. 185).



Yeni dünya nizamında isə yeni geosiyasi güc olmağa ən mühüm iddiaçılardan biri heç şübhəsiz, Çindir. Geosiyasətdə qütb olmaq üçün təkcə güclü dövlət olmaq kifayət deyil, hər hansı bir dəyərlər sisteminə də sahib olmaq lazımdır. Dəyərlər sisteminin mövcudluğu isə sivilizasiya elementidir. Bu mənada özünəməxsus dəyərləri bölüşən Çin sivilizasiyası III minillikdə geosiyasi ağırlıq mərkəzi olmağa doğru irəliləyir.

### *Çin sivilizasiyasının kodları*

Çin sivilizasiyası bəşər tarixində ən qədim sivilizasiyalardan biridir. Sivilizasiya olaraq eramızdan əvvəlki minillikdə formalaşan bu mədəni tip birinci nəsil sivilizasiyaları təmsil etməklə, dünyada bir çox yeniliklərin yaradıcısı olmuşdur. Eyni zamanda, Çin sivilizasiyası dünya sivilizasiyalarının tarixində nəsildəyişmə mərhələlərini özünəməxsus mədəniyyətini qorumaqla və zənginləşdirməklə keçən azsaylı sivilizasiya tiplərindəndir. Fikrimizcə, hazırda yaşamaqda olan və nəsildəyişmə transformasiyasını bu cür keçirən yalnız Çin, Türk, İran və Hind sivilizasiyalarının adlarını çəkmək

olar. Nəsildəyişmə prosesi zamanı əsas diqqət əhali, təbii şərait, texnoloji və iqtisadi inkişaf səviyyəsi, sosial-siyasi quruluş, mənəvi sahənin inkişaf səviyyəsi və xarakteri ilə müəyyən olunan genetik özülün qorunub saxlanmasına yönəlir. Bu genetik dəyərlərin ötürülməsi sivilizasiyanın qorunmasına səbəb olur. Çin və Hind sivilizasiyalarını digər Şərq sivilizasiyalarından fərqləndirən əsas xüsusiyyətlərdən biri – bütün kənar təsirlərə baxmayaraq, bu sivilizasiyalarda mədəni ənənələrdə fasilələrin olmamasıdır.

Dövlətçilikdə imperiya ənənələrinə, yazı mədəniyyətinə, şəhərsalma və arxitekturaya, əxlaq normalarına, ailə dəyərlərinə və digər mənəvi keyfiyyətlərə malik olan Çin sivilizasiyası hər zaman özünəməxsusluğunu saxlamışdır. Bunlar arasında yazı mədəniyyətini Çin sivilizasiyasının həm ən böyük nailiyyəti kimi, həm də qonşu ölkələrə təsir imkanları baxımından fərqləndirmək olar. Çinlilər tərəfindən yaradılmış loqoqrafik yazı sistemi (yəni sözləri ifadə edən simvollar vasitəsilə yazı) hələ də əksər Şərqi Asiya ölkələrində istifadə olunur. Heroqliflər Çin mədəni ənənələrinin ötürülməsində mühüm rol oynamışdır. Heroqliflərdən qədimdə şumerlər, misirlilər də istifadə etmişlər, hətta türklərin də bu yazı üsulunu işlətməsi ilə bağlı ehtimallar vardır. İndiki zəmanədə isə yalnız çinlilər, koreyalılar və yaponlar bu yazı sisteminə sadiq qalıblar. Tarixi rakursdan yanaşdıqda görürük ki, Çin heroqlifləri yaranan vaxtdan çoxalmağa doğru gedib. İlk dövrlər Çində hər dialekt qrupu öz heroqliflərini yaratdığından, çinlilər arasında ayrı-seçkilik artırdı. Belə bir vəziyyətdə b.e.ə. 213-cü ildə Sin sülaləsindən olan hökmdar Sin Şixuan



tərəfindən Çinin bütün dialektləri üçün vahid heroqliflər siyahısı təsdiq olundu və bunların istifadəsini məcbur edən qərar verildi. Əsrlərlə heroqliflər çinlilərin zaman və məkan birliyini qoruyub saxlayıbdır. Məhz heroqliflər vasitəsi ilə hər yeni nəsil Çinin düşüncə mirasını qoruyub. Beləliklə, Çin yazı sistemi bütün nəsildəyişmə mərhələləri boyunca Çin sivilizasiyasının maddi və mənəvi dəyərlərinin qorunub saxlanmasında müstəsna rola malik olmuşdur.

Yazı mədəniyyətindən fərqli olaraq, Çin sivilizasiyasında dini faktor sistem yaradıcı element kimi rol oynamamışdır. Çinlilərdə dini bağlılıq daim zəif olmuşdur. Ənənə hər zaman dini üstələmişdir. Təsadüfi deyildir ki, bu gün də Çində nisbətən daha geniş yayılmış buddizm belə Çin sivilizasiyasının xarakterik xüsusiyyətlərindən deyildir, kənardan qəbul olunmuşdur (buddizm çinlilərə Hind sivilizasiyasından ötürülmüşdür). Əvəzində fəlsəfi təlimlər Çin sivilizasiyası daşıyıcılarının mənəvi aləmində və dünyagörüşündə mühüm rol oynamışdır. Bu baxımdan Konfutsi fəlsəfi təlimi və məktəbi xüsusi yer tutur. Belə ki, bu təlim həm daxildə cəmiyyətin sosial mühitinə, həm də ətraf ölkələrə güclü təsir etmişdir. Təsadüfi deyildir ki, Konfutsi təlimi Xan imperiyasında rəsmi ideologiya, ümumilikdə isə bəzən, hətta dini əqidə kimi qəbul olunmuşdur.

Beləliklə, cəmiyyət həyatının əksər sahələrini əhatə edən fəlsəfi təlimlər Çin cəmiyyətində dini ideologiyanı əvəz edə bilmişdir. Çin mədəni ənənələrinin güclü sosial dayağı özgə dinlərin də Çinə daxil olmasının qarşısını almışdır. Müəyyən mənada buddizmi bir qədər fərqləndirmək olar ki, bu din Çində özünə daha çox tərəfdar

tapa bilmişdir. Digər dinlərlə – atəşpərəstlik, maniçilik, xristian və islamla (monqol işğalı dövründə) sonrakı dövrdə təmaslar Çinin mədəni həyatında əsaslı iz qoya bilməmişdir. Əvəzində, Konfutsi təlimi Çinin qonşularına öz təsirini göstərmişdir.

Doğrudur, müşahidələr göstərir ki, ümumilikdə Çin mədəniyyəti Çin sivilizasiyası hüdudlarından kənarda çox zaman qəbul olunmamışdır və ya çox zəif təsir imkanlarına malikdir. Bunun da bir sıra səbəbləri vardır ki, bunlardan biri də Çin sivilizasiya daşıyıcılarının özünə qapalı həyatı ilə bağlıdır. Belə ki, onlar nəinki vətənlərində, hətta xaricdə belə daha çox qapalı həyat tərzinə, təcrid olunmuş icma halında yaşamağa üstünlük verirlər. Özgələri ilə təmasa əhəmiyyət vermirlər. Bunun göstəricisidir ki, dünyadakı bütün böyük şəhərlərdə çinlilərin kompakt yaşadıqları kvartallar ("çaynataun") şəhərin ümumi ansamblından fərqlənir.

Böyük insan resurslarına, güclü dövlət aparatına malik olmasına baxmayaraq, Çin sivilizasiyası heç zaman öz təbii sərhədlərinin əhatələndiyi Çin səddini adlaya bilməmişdir. Fikrimizcə, bu, sivilizasiyaların təbii landşafta bağlılığı ilə əlaqədardır. Çinlilər üçün Qərbə doğru hərəkət yad coğrafi şərait, özgə sivilizasiya tipi xarakteri daşıdığından səciyyəvi olmamışdır.

### *Sivilizasiya müstəvisindən geosiyasi arenaya*

Beləliklə, sivilizasiya müstəvisində Çin sivilizasiyası üçün öz təbii arealından kənara yayılmaq səciyyəvi deyil. Bu isə geosiyasi güc mərkəzi olmaq iddiasında olan dövlətin siyasi xətti ilə üst-üstə düşmür. Hazırda formalaşmaqda olan yeni dünya nizamında Qərbin dominant roluna tarazlıq yarada biləcək Çin isə bütün istiqamətlərdə öz təsir dairəsini genişləndirməyə çalışır.



Artıq Çində geosiyasət ekspertləri dünyanın siyasi coğrafiyasında Çinin "Şərqi Asiya" ölkəsi kimi təqdim edilməsi ilə razılaşmırlar. Pekin Universitetinin professoru Jisi Wang ADA Universitetində "Çinin Avrasiyada Geostrategiyası" adlı mühazirəsində bildirmişdir ki, "Çin Uzaq Şərq və ya Şərq ölkəsindən Avrasiya gücünə çevrilməlidir. Yerləşdiyi coğrafi mövqeyi nəzərə alaraq (Çinə nisbətdə), ABŞ "Uzaq Qərb" deyil, "Uzaq Şərq"dir. Yaponiya, Koreya "Yaxın Şərq", Azərbaycan "Orta Qərb", Avropa isə "Uzaq Qərb"dir". (ADA University. Baku Dialogues. Vol.1 N 1. Autumn 2014. p.26). Professor Jisi Wangın bu yanaşması göstərir ki, Çin artıq dünyanı ABŞ-ın gözü ilə deyil, özünə münasibəti ilə qiymətləndirir. Həqiqətən də, dünya xəritəsinə Çinin yanaşması ilə baxsaq, indi qəbul edilən bir çox adların və oriyentirlərin dəyişdirilməli olduğunu görərik. Yeni dünya nizamında Çinin rolunun artdığını nəzərə aldıqda isə coğrafi terminlərdə belə yalnız Qərbin yanaşmasının mövcudluğunun davam edəcəyi şübhəli görünür. Fikrimizcə, Çinin siyasi səhnədə çəkisi artdıqca, dünya xəritəsinə bütün mənalarda yenidən baxılacaq.

Qeyd etməliyik ki, sivilizasiya müstəvisindən fərqli olaraq geosiyasi müstəvidə Çin Qərbə istiqamətlənmiş siyasət həyata keçirir. Ancaq bu Qərb klassik mənada Qərb deyil, Çindən Qərbə doğru bir istiqamətdir. Bu istiqamətdə isə Mərkəzi Asiya da, Qafqaz və Türkiyə də, hətta müəyyən mənada Rusiya da Çinin Qərb siyasətində nəzərdə tutulur.

Çinin Qərbə istiqamətlənmiş siyasəti birqütblü dünya sisteminin də sonu deməkdir. Çinin öz siyasətində ilk növbədə siyasi deyil, iqtisadi maraqları nəzərdə tutması region ölkələrinə alternativ seçim imkanı verir. Bu mənada Çinin "Böyük İpək Yolu" konsepsiyası dünyaya yeni Çini təqdim edən ilk meqalayihədir. Çin Xalq Respublikasının Prezidenti Si Cinpin 2013-cü ildə ölkəsinin qədim İpək Yolunu yenidən bərpa etməklə, "Yeni İpək Yolu" iqtisadi zonasını yaratmaq təşəbbüsünü irəli sürmüşdür. "Böyük İpək Yolu" Avrasiya qitəsi boyunca 21 ölkəni əhatə edir. Çinin real iqtisadiyyatda çətinliklərlə qarşılaşdığı dövrümüzdə bu layihə iqtisadi deyil, məhz geoiqtisadi əhəmiyyət daşıyır. Çünki bu zonada Çin öz valyutasının əhatə dairəsini genişləndirməyi, kreditlərin yuanla qaytarılmasını və yuanla biznes dövriyyəsinin həyata keçirilməsini nəzərdə tutur.

Qeyd etməliyik ki, Çinin Qərbə istiqamətlənmiş bu infrastruktur layihəsində Qafqaz regionu da aparıcı mövqeyə malikdir. Şərq-Qərb nəqliyyat dəhlizinin üzərində yerləşən bu region Çin-Mərkəzi Asiya-Avropa marşrutunda mühüm halqa hesab olunur. Azərbaycan isə yaxın zamanlarda Bakı-Tbilisi-Qars dəmir yolunu istifadəyə verməklə Pekin-London arasında ən qısa nəqliyyat koridorunu tamamlamış olacaqdır. Qərbdən fərqli olaraq, Çin üçün layihələrin siyasi alət kimi istifadə olunmadan iqtisadi əhəmiyyətinin üstün olması bərabərhüquqlu tərəfdaşlığa əsas verir.

Bundan başqa, Çin artıq yuanla ödəmələr həyata keçirməyə imkan verən beynəlxalq ödəniş sistem hazırlayır və ilin sonuna qədər işə salacaq. "Röyter" agentliyi bunu Qərb iqtisadi sisteminə təhdid kimi qiymətləndirib. Çin 2020-ci ilədək "Microsoft" əməliyyat sistemindən və İBM proqramlarından tamamilə imtina etmək və alternativ sistem yaratmaq niyyətindədir.



Beləliklə, yeni dünya nizamında iqtisadi güc üzərində yüksələn Çin dünyanın çoxqütblü modelində tədricən öz yerini tapmaqdadır. ABŞ-da yaşayan çinli alim Lusian Pye (1921-2008) yazırdı ki, "Çin – dövlət olmaq iddiasında olan sivilizasiyadır" (Lucian W. Pye, "China: Erratic State, Frustrated Society", Foreign Affairs, 69 (Fall 1990), 58). Hazırkı sivilizasiyalar arasında digər bir "dövlət-sivilizasiya" modeli mövcud deyildir. Nisbətən oxşar model kimi Hind sivilizasiyasını qeyd etmək olar. Nə Qərb, nə İslam sivilizasiyası bir dövlət üzərində qurulmayıb. Yeni dünya nizamında Çinin timsalında "dövlət-sivilizasiya" qütbünün yaranmasının nə ilə nəticələnəcəyi isə yaşadığımız əsrdə özünü göstərəcəkdir.

***Newtimes.az***
***13.03.2015***

## AVROPANIN SİVİLİZASİYA BÖHRANI

Son vaxtlar dünyanın gündəmini zəbt edən əsas məsələ Yaxın Şərq və Afrikadan qaçan miqrantlarla bağlıdır. Qərb mediası böyük bir insanlıq faciəsi yaşanan hadisələri gecə-gündüz özünəməxsus ritorika ilə işıqlandırır. Yüz minlərlə insan Avropaya sığınmaq ümidi ilə öz yurdlarından qaçırlar. Böyük ümidlərlə qanlı münaqişələrdən canını qurtarmış qaçqınların hazırkı taleyi daha acınacaqlıdır. Əgər qaçmağa məcbur olduqları doğma vətənlərində onları bir güllə və ya bomba partlayışı nəticəsində ölüm gözləyirdisə, pənah apardıqları Avropada aclıq, məhrumiyyətlər, düşərgələrdə törədilən yanğınlar nəticəsində ölümlər, şəxsiyyətlərinin alçaldılması, islamofob münasibət və reaksiya, qeyri-insani rəftar, yolda isə "ölüm dənizində" balıqlara yem olmaq gözləyir. Statistikaya görə, təkcə 2015-ci ildə dənizdən keçməklə Avropaya 239 200 nəfər gəlib çata bilmişdir. Aralıq dənizində ölənlərin sayı isə 2664 nəfər olmuşdur və bu say ancaq cəsədləri tapılanlara aiddir. Taleyi heç vaxt məlum olmayacaq minlərlə insan isə dəniz sularında öz sonluğunu tapmışdır. Buna görədir ki, bütün tarix boyu Avropanı ayıran dəniz indi öz funksiyasına uyğun "ölüm dənizi" adlandırılır.

Bəs sual olunur niyə? Niyə bu insanlar Qərb jurnalistlərinin məzhəkə obyektinə çevrilməli idilər? Niyə onlar



Avropada qapılarda qalmalıdırlar? Niyə bir müsəlman Papanın mərhəmətinə əsasən kilsəyə sığınmalıdır? Axı bu proseslərin necə başladığı hamıya məlumdur. Qərbin müdaxiləsi olmasa idi, nə Afrikadan, nə Suriyadan, nə də Əfqanıstandan heç kim Avropaya mühacirət etmirdi. Amerikanı heç demək istəmirəm. Çünki ABŞ-da yaxşı bilirlər ki, mühacirlər qayıqlarla okeanı keçə bilməzlər. ABŞ-ın ildə cəmi 5-6 min qaçqını qəbul etməsi isə məsələnin əsl mahiyyətini ortaya qoyur.

Qərbin müdaxiləsindən əvvəl Afrikada və Yaxın Şərqdə bu insanlar pis-yaxşı yaşayırdılar. Qərbin vəd etdiyi yalançı demokratiya, söz azadlığı isə regiona ancaq bədbəxtçilik gətirdi. Yaxın Şərq bu qədər faciəli dövrü sonuncu dəfə keçən əsrin ortalarında yaşamışdı. Onda da Qərb dövlətlərinin müstəmləkə imperiyasından və zülmündən qurtulmaq üçün azadlıq mübarizəsi zamanı.

İndi isə Avropa insanlıq faciəsi yaşayan miqrantların məsuliyyətini daşımaq istəmir. Avropa liderləri miqrant axını ilə bağlı fərqli mövqedən çıxış edirlər. Bəziləri humanitar fəlakəti bir kənara qoyub, bu axını Avropanın gələcəyinə təhlükə adlandırırlar. Birləşmiş Krallığın Xarici işlər və birlik işləri üzrə dövlət katibi Filip Hammondun bu məsələyə reaksiyası məsələnin əsl mahiyyətini açır. Onun fikrincə, "milyonlarla talançı afrikalı miqrant Avropa İttifaqının yaşayış standartına və sosial quruluşuna təhlükə yaradır". Avropada bu cür düşünən siyasi liderlərin sayı az deyil.

Hazırda hətta ikinci bir tendensiya da müşahidə olunur. Son dövrlər Qərb mediası özünü "İraq Şam İslam Dövləti" adlandıran terrorçu qruplaşmanın üzvlərinin adi emiqrant kimi Avropaya sızmasının kütləvi hal

almasını geniş təbliğ edir. Belə faktların nə qədər həqiqəti əks etdirdiyini demək çətin olsa da, bu tezisin miqrantların axınının qarşısını sərtliklə almaq üçün arqument olduğu artıq görünür. Beləliklə də Qərb mediasının Avropanın mühacirlərə sərt davranışına haqq qazandırması müşahidə olunur.

Ümumiyyətlə, Avropa İttifaqı daxilində miqrantların ölkələr üzrə bölüşdürlüməsi, onların problemlərinin həlli və yardımla bağlı vahid mövqe yoxdur. Bir neçə gün əvvəl, sentyabrın 9-da Avropa Komissiyasının sədri Jan-Klod Yunker Avropa Parlamentində Avropa İttifaqının mövcud vəziyyəti ilə bağlı çıxışı zamanı miqrant problemi ilə bağlı 22 ölkəyə çağırış edərək bildirmişdir ki, "gələn həftəyə qədər Yunanıstan, İtaliya və Macarıstan 122 min qaçqını öz aralarında bölüşdürməlidir".

Maraqlı mənzərədir və Avropa İttifaqının öz daxilində belə böyük ziddiyyətlərin olduğunu göstərir. Komissiya sədrinin müraciətindən belə görünür ki, miqrantların əsas yükü Avropanın qəlbinə gedib çatmayacaq. Nədənsə, Yaxın Şərqdəki silahlı münaqişələrdə heç bir rolu olmayan, əksinə bacardığı qədər müstəqil siyasət yeritməyə çalışan və buna görə Avropada ikinci dərəcəli münasibət bəslənən Macarıstanın üzərinə böyük yük qoyulur. Belə görünür ki, miqrant böhranına səbəb olanlar bu yükün məsuliyyətini daşımaq istəmirlər. Əgər ədalətli yanaşma olsa, ilk məsuliyyət daşıyan səbəbkarlar olmalıdır.

Bir neçə gün əvvəl müşavirədə çıxışı zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hazırda yaşanan böhranın səbəblərini dəqiqliklə göstərdi. Onun fikrincə, "Avrasiya məkanında yaşanan böh-



ranın əsas səbəbi sabitliyin pozulmasıdır və bəzi ölkələrin siyasi maraqlarıdır". Bu prizmadan çıxış edərək humanitar fəlakət yaşandığı günümüzdə ilk növbədə sabitliyi pozanların cavabdehliyi öz üzərlərinə götürmələri lazımdır.

Ümumiyyətlə, Jan-Klod Yunkerin Avropa Parlamentində çıxışını siyasi şou da adlandırmaq olar. Onun məzhəkə ruhunda çıxışı zamanı qeyri-ciddi reaksiyalar, replikalar o qədər çox idi ki, mövzunun insanlıq böhranı olduğu qətiyyən hiss olunmurdu. Təsadüfi deyil ki, o öz çıxışını poema adlandırdı. Martin Şultsun sədrlik etdiyi Avropa Parlamenti haqqında belə bir fikir səsləndi ki, "Avroparlament elə bir yerdir ki, orda kimə gəldi rast gəlmək olar". Əslində bu ifadə tam reallığı əks etdirir. Avropa Parlamentinin qəbul etdiyi qətnamələrə səs verənlər çox zaman məsələnin mahiyyətindən xəbərdar olmurlar. Təsadüfən parlamentə düşən çoxsaylı qeyri-ciddi, siyasətdən kənar adamlar siyasi məsələlərə münasibət bildirməli olurlar. Hansı ki, nə bu siyasi proseslər onları maraqlandırır, nə də ki, onlar maraqlanmaq istəyir. Son illər isə Martin Şultsun dirijorluğunda siyasi sifarişləri yerinə yetirirlər.

Bu cür münasibətin mahiyyətində isə Qərb sivilizasiyasının özünəməxsus xüsusiyyətləri dayanır. Avropada problemlər onun öz qapısını döyənəcən görməməzlikdən gəlinir. Məlum olduğu kimi, tarixin böyük bir dövründə avropalılar yalnız özlərinin yaşadığı məkanı sivil dünya hesab edirdilər. Hətta sivilizasiya dedikdə, yalnız avropalıların həyat tərzi nəzərdə tutulur, bütün digərləri isə barbar hesab edilirdi. Baxmayaraq ki, Avropa bu gün əldə etdiyi nailiyyətlərin bir çoxunu Şərq

ölkələrinin mədəniyyətinə borcludur. Belə olan halda isə hətta müasir dövrümüzdə belə yalnız hər hansı bir problem onların maraqlarına toxunduqda Avropanın diqqətini cəlb edir.

Təsadüfi deyil ki, günümüzdə Suriyadan olan miqrantların problemlərinin həllini bir-birinin üzərinə atan Avropa liderləri ancaq bəyanat verməklə məşğuldurlar. Ancaq unutmaq olmaz ki, Suriyada münaqişə başlayan ilk gündən Türkiyəyə 2 milyondan çox insan sığınmışdır. Bəs necə olur ki, indi miqrantları ölkələr üzrə paylamaq istəyənlər bu illər ərzində nə Türkiyəyə yardım təklif etmiş, nə qaçqınları bölüşmək istəmişlər. Avropa İttifaqına üzv olmaq məsələsi qalxanda Türkiyəyə yox deyənlər, özlərinin yaratdıqları münaqişə nəticəsində qaçqın vəziyyətinə düşmüş insanların problemlərinin həllində Türkiyəyə yardım etmirlər.

Bu ikili standartlar özünü açıq-aydın göstərir. Hazırda Avropa mətbuatında miqrantlarla bağlı məsələ ən aktual mövzudur, bütün Avropa ictimaiyyəti bu haqda düşünür. Çünki yeni gələn miqrantlar Avropada həyat standartlarına ciddi təsir edir, yardıma ehtiyacları var. Hazırda iqtisadi böhran yaşayan, işsizlik və yoxsulluğun artdığı Avropada isə miqrant axını həyəcan təbili kimi çalınır. Ancaq Azərbaycanın 20 ildən çoxdur ki, 1 milyondan çox qaçqın və məcburi köçkün problemini necə həll etməli olduğu onları düşündürmür. Avropa siyasətçiləri bu illər ərzində hansı zülmlərlə yaşayan azərbaycanlı qaçqın və məcburi köçkünlərin nainki problemlərinin həllinə səy göstərmirlər, hətta yeganə bacardıqları iş olan bəyanat belə vermir, Ermənistanı işğalçı adlandırmaqdan çəkinirlər. Azərbaycanlı qaçqınların ən



fundamental hüququ olan yaşamaq hüququ Avropada heç kəsi düşündürmür.

Fundamental hüquqlara məhəl qoymayan Avropa institutlarını nədənsə, ayrı-ayrı ölkələrdə "insan hüquqları"nın vəziyyəti narahat edir. Öz ölkəsinin maraqlarına deyil, Qərbdə müxtəlif dairələrə xidmət edən şəxslərin bu əməlləri ifşa olunan kimi, Avropa Parlamenti, Avropa Şurası, Avropa İttifaqının komissarları qətnamə qəbul etməyə, bəyanat verməyə başlayırlar. Belə bir mənzərə yaranır ki, sanki bu qurumlar demokratiya uğrunda mübarizə aparırlar. Ancaq qətnaməyə səs verən deputatlar arasında məsələnin tam mahiyyəti haqqında bilənlərin və hətta mətn də yazılanları təkrar soruşduqda xatırlayanların sayının heç 10 nəfəri keçmədiyini istənilən rəy sorğusu sübut edə bilər. Bu isə Avropa Parlamentinin reallığa deyil, siyasi sifarişə xidmət etməsinin göstəricisidir.

Beləliklə, Avropa böhran yaşayır və bu, ilk növbədə ədalət böhranıdır. Bütün digər iqtisadi, maliyyə, mənəviyyat, siyasət böhranının da əsasında ədalətə münasibət dayanır. Əgər bu münasibət dəyişməsə, Avropa hər kəsi olduğu kimi qəbul etməsə, işğalçıya işğalçı deyə bilməsə, xristian təəssübü və islamofob meyillər aradan qalxmasa, ölkələrin daxili işlərinə müdaxilə dayandırılmasa, Avropanın bir cəzbetmə qüvvəsi olaraq gələcəyi şübhə altına düşür. Artıq Avropanın özünün sivilizasiya məkanı hesab etmək düşüncəsi böhran dövrünü yaşayır.

***Newtimes.az***
***15.09.2015***

## QƏRBDƏ RADİKALLAŞMA MEYİLLƏRİNİN DÜNYA NİZAMINA TƏSİRİ

Tarixən bəşəriyyət müxtəlif güc mərkəzlərinin fərqli dəyərlər sistemi və buna uyğun olaraq fərqli ideologiyaları üzərində qurulan dünya nizamına malik olmuşdur. Fərqliliklər üzərində formalaşan dünya nizamı bu fərqli dəyərlərin ahəngdarlığından asılı olaraq zaman-zaman kəskin qütbləşmələrə və böyük ziddiyyətlərə gətirib çıxarmışdır. Tarixə nəzər saldıqda daha çox Şərq-Qərb qarşıdurmasına rast gəlirik. Doğrudur, bunda klassik tarixin daha çox Qərb mənbələrinə istinadən yazılmasının da böyük rolu var. Belə ki, bizim öyrəndiyimiz tarix Çin mənbələri əsasında yazılsa idi, daha fərqli qarşıdurmaların tarixinin şahidi olardıq. Misal üçün, Çin prizmasından yanaşdıqda, Qədim Çin-Türk və ya Çin-Hind sivilizasiyalararası münasibətləri daha mühüm rol oynamışdır.

Şərq-Qərb münasibətlərini isə 2 mühüm mərhələyə ayırmaq olar: islamaqədərki dövr və İslam Şərqinin yaranmasından sonrakı dövr. Hər iki mərhələ üçün bu iki qütb arasında siyasi sistemdən tutmuş ailə kodeksinə qədər əksər dəyərlərdə uyğunsuzluq müşahidə olunur. Yəni, Şərq-Qərb dəyərlər sistemindəki fərqlər münasibətlərin xarakterini də müəyyənləşdirmişdir. Hələ



ellinizm dövründə Qədim Yunan-İran qarşıdurması, sonrakı mərhələdə ellin mədəniyyətinin Şərqdə yayılması və ya Roma imperiyasının – Şərqə ancaq barbar mədəni səviyyə olaraq baxış bucağı fərqli qütblərin barışmaz mövqeyini əks etdirirdi.

İslamın yaranmasından sonra isə Şərq-Qərb münasibətlərində yeni bir mərhələ və qırılma anı olmuşdur. Məlum olduğu kimi, islam bir din olaraq yaranana qədər xristianlıq Yaxın Şərqdə geniş yayılmışdı. Bütün səmavi dinlərin vətəni olan Yaxın Şərq islama qədər daha çox xristianlıqla bütpərəstliyin və atəşpərəstliyin mübarizə meydanı idi. Bu coğrafiyada xristianlıq Bizans imperiyasının timsalında hakim din və eyni zamanda hakim ideologiya olmuşdur. Qeyd etməliyik ki, islam bu regionda tam yayıldıqdan sonra da xristianlıq əvvəlki səviyyədə olmasa da müəyyən nüfuz dairəsini saxlamışdır. Hətta ərəb dünyasında belə xristian ərəblər Livanda siyasi hakimiyyətin bir sütunu kimi, Fələstin, Suriya və digər ölkələrdə isə dini azlıq kimi mövcudiyyətlərini bu gün də saxlayırlar.

Digər tərəfdən hələ qədim dövrlərdən başlayaraq yerli xristian icmalarından əlavə avropalıların Şərqdə kompakt yaşayan koloniyaları mövcud olmuşdur. Bu proses Makedoniyalı İsgəndərin Şərq ölkələrinə doğru yürüşü ilə böyük iz qoymuş, səlib yürüşləri zamanı isə dini-siyasi faktor olub. Makedoniyalı İsgəndərin yürüş etdiyi ölkələrə köçürdüyü avropalılar və hərbi koloniyalar sonradan ellinizmin Şərqdə əsas daşıyıcıları idilər. Səlib yürüşləri zamanı Yaxın Şərqə mühacirət edən avropalılar uzun əsrlər boyu bu regionda Avropa dövlətlərinin və xristianlığın bastionu rolunu oynamışlar.

XI-XIII əsrlərdə davam edən səlib yürüşləri böyük fəlakətlərə, çoxlu insan itkilərinə səbəb olsa da, İslam Şərqində xristianlığa qarşı dözümsüzlüyə səbəb olmadı. Xristianlıq regionda hərbi gücünü itirsə belə, yerli xristian icması və Avropa ticarət koloniyaları sonrakı əsrlərdə də bu coğrafiyada mövcudiyyətlərini davam etdirdilər.

Həmin dövrün tarixinə nəzər saldıqda, Şərqdə və Qərbdə tolerantlığa nə qədər fərqli münasibət olması özünü göstərir. Müqayisə üçün qeyd etmək olar ki, orta əsrlərdə avropalıların kompakt yaşadıqları ticarət koloniyalarına İslam Şərqinin bir çox ərazilərində rast gəlinir, xristianlar müsəlman cəmiyyətində özünəməxsus yer tutur və hətta müsəlman dövlətlərində bir çox vəzifələr xristian və yəhudilər üçün nəzərdə tutulurdu. Bu daha çox maliyyə və diplomatik sahələri əhatə edirdi. Lakin "Qoca qitə"də həmin dövrdə müsəlmanlara qarşı analoji münasibət haqqında danışmaq belə mümkün deyil. Orta əsrlərdə Avropanın hər hansı bir yerində müsəlmanlara bu cür tolerant yanaşmaya, eyni zamanda müsəlmanların yaşadığı ayrıca kvartala rast gəlmək mümkün deyil. Həmin dövrdə Avropaya üz tutan çox azsaylı müsəlman alimlərin, səyyahların, diplomatların isə xristianlığı qəbul etməsinin (və ya etdirilməsinin) şahidi oluruq. Avropada müsəlmanların öz dinlərinə sadiq qalaraq kompakt yaşaması XX əsrdə başlamışdır.

Əslində bu Qərb sivilizasiyasının təkcə islam dünyasına deyil, digər sivilizasiyalara qarşı münasibətində də özünü göstərir. Belə ki, Qərb-Çin sivilizasiyalararası münasibətlərində də eyni hal müşahidə olunur. Orta əsrlərdə Çində və ümumiyyətlə, Uzaq Şərqdə portuqal, holland, ingilis və digər avropalılar "şəhər içərisində şəhər olan" özləri üçün ayrıca kvartallar yaratmışdılar. Qeyd etməliyik ki, çinlilərin planetin bir çox yerlərində öz dünyalarını yaratdıqları "çaynataunlar" isə Avropada yalnız XX əsrin məhsuludur. Beləliklə, xristian dünyası digər bütün sivilizasiya daşıyıcılarına qarşı uzun əsrlər boyu dözümsüzlük nümayiş etdirmişdir.



### *Qərb sivilizasiyası – xristian klubu*

Xristianlıq ümumilikdə Qərb sivilizasiyasının nüvəsini təşkil etməklə, digər mədəniyyət daşıyıcıları ilə münasibətlərində məhək daşı rolunu oynamışdır. Məhz dini dəyərlər Qərb dünyası üçün ilkin olaraq birləşdirici faktor və eyni zamanda fərqli sivilizasiyalar üçün bir baryer olmuşdur. Belə ki, Roma imperiyasının dövründə katolik kilsəsinin əhatə dairəsi Avropanın və hətta imperiyanın hüdudlarını aşsa da, fərqli mədəniyyətlərin simbiozuna səbəb ola bilmədi. Qərb tarixində "qaranlıq əsrlər" adlandırılan dövrdə isə Vatikan müxtəlif Avropa xalqlarının birgəyaşayışını təmin etmək üçün öz qüdrətini itirmiş imperiyaların da vəzifələrini yerinə yetirirdi. Lakin bu əsrlərin niyə qaranlıq adlandırıldığına diqqət yetirdikdə, yenə başqalarına qarşı dözümsüzlük özünü göstərir.

Belə ki, əslində bu əsrlər iddia olunduğu kimi qaranlıq deyildi, sadəcə intibah inkişaf Qərbdə yox, İslam Şərqində təşəkkül tapmışdır. Bəlkə də, həmin dövrdə Amerika qitəsində yerli xalqların mədəniyyətində də intibah dövrü olmuşdur. Sadəcə bütün bunlar Avropada baş vermədiyi üçün Qərb sivilizasiyası XIV-XV əsrlərə qədər olan dövrü cəhalət dövrü adlandırırdı. Halbuki

təkcə İslam dünyasında həmin dövrdə elmə qazandırılan kəşfləri, ixtiraları, yenilikləri sadaladıqda bəşəriyyətin inkişafında nə qədər böyük yol keçildiyi açıq-aydın görünür. Sadəcə Qərb qəbul edə bilmir ki, Bağdadda, Dəməşqdə, Təbrizdə şəhər əhalisinin sayı milyonlarla olanda, mükəmməl şəhər infrastrukturu olanda, London, Paris və digər Avropa ölkələrinin paytaxtları hələ kənd statusunda idilər. Belə görünür ki, Qərb mentaliteti üçün "Qoca qitə"də intibah yoxdursa, deməli bəşəriyyət qaranlığa qərq olunmuşdur, - təfəkkürü hökm sürür və bu daim belə qəbul edilir.

Xristian dini dünyagörüşünün Qərb sivilizasiyasının digərlərinə münasibətdə oynadığı rola toxunan Henri Kisenger "Dünya nizamı" kitabında yazır: "1550-1551-ci illərdə Müqəddəs Roma imperatoru V Çarlz (1519-1556) tərəfindən çağırılmış dini şura belə bir qənaətə gəldi ki, yalnız Qərb yarımkürəsində yaşayan insanlar ruha malikdirlər və bunun sayəsində dini nicat üçün uyğundurlar. Bu teoloji nəticə istila və məcburi xristianlaşdırmaya bəraət qazandıran əsas prinsip oldu. Avropalıların maddi sərvətlərini artırmaq və eyni zamanda vicdanlarını xilas etmək imkanı tanındı. Onların ərazilərə nəzarət uğrunda qlobal rəqabəti beynəlxalq nizamın təbiətini dəyişdirdi".

Dinin rolunu Avropada təkcə hökmdarlar deyil, elmi dairələr də xristianların digərləri üzərində üstünlüyündə görürdülər. Böyük fransız filosofu Jan Jak Russo yazırdı: "Bizə deyirlər ki, həqiqi xristianlardan ibarət xalq təsəvvür oluna bilinən ən mükəmməl cəmiyyəti təşkil edə bilər. Bu fikirdə mən yalnız bir böyük çətinlik görürəm: həqiqi xristian cəmiyyəti artıq insan cəmiyyəti olmayacaq".



Beləliklə, müşahidələr göstərir ki, dini dəyərlər üzərində formalaşan Qərb sivilizasiyası orta əsrlərdə olduğu kimi müasir dövrümüzdə də fərqli dəyər daşıyıcılarını qəbul etmir. XX əsr boyunca Avropa ölkələrinin həyata keçirdiyi miqrasiya siyasəti və ideologiya bunu bir daha təsdiq edir. Məlum olduğu kimi, II dünya müharibəsindən sonra Avropa ölkələrinin iqtisadi artımı daxili işçi qüvvəsini bir neçə dəfə üstələyirdi. Əhalinin yaşlaşması və kənarda ucuz işçi qüvvəsinin olması Qərb ölkələrinin keçmiş müstəmləkələrindən immiqrasiyaya üstünlük verməsinə səbəb oldu. "Qoca qitə"nin yeni sakinləri üçün Qərb üçün indiyədək xarakterik olmayan multikultural cəmiyyət formalaşdırılmağa başlandı. Bu mərhələdə elan olunan multikulturalizm yeni sakinlərin Qərbin vahid dəyərlər sisteminə daxil olmasına yönəlmiş ideologiyaya xidmət edirdi.

Lakin fərqli mədəniyyət daşıyıcılarını universal modelə uyğunlaşdırmaq təbii olaraq mümkün olmadı. Qərb cəmiyyəti hadisələrin bu cür axınına hazır deyildi və buna görə də miqrantlara münasibətdə dözümsüzlük müşahidə olunmağa başladı. Qərb ölkələrinin rəhbərləri multikulturalizm siyasətinin iflasa uğradığını bəyan etdilər. İmmiqrant müsəlmanların Avropada öz dini dəyərlərinə sadiq qalmaları, bundan başqa islamın bir din olaraq populyarlaşması, müsəlman əhalinin demoqrafik artım göstəriciləri Qərb cəmiyyətində birmənalı qəbul olunmur. Nəticədə müəyyən dairələr üçün islam bir fobiya olaraq görünür. Günümüzdə azlıqların çoxluqlara çevrilməsi qorxusu Qərb cəmiyyətinin qarşısında duran əsas çağırışdır.

Avropaya artan miqrant axını yerli əhali arasında işsizlik və zəif sosial təminata səbəb olur. Belə bir fikir formalaşdırılır ki, multikulturalizmin Avropa modelinin məğlubiyyətə uğramasının səbəbi miqrantların universal Qərb həyat tərzinə daxil ola bilməmələri, demokratik prinsipləri və insan hüquqlarının aliliyini rəhbər tutan Avropa qanunlarının isə mülayim olması ilə əlaqədardır. Bütün bunlar isə Avropada ifrat millətçilik ideologiyasının və ultra sağçı siyasi partiyaların tərəfdarlarının artmasına, irqçi və şovinist çıxışlara səbəb olur. Əslində bu hal Qərb üçün yeni deyil. Avropada indi islama qarşı sərgilənən münasibətin zamanında digərlərinə qarşı da tətbiq olunduğu hələ yaddaşlardan silinməyib. Tarix boyunca yəhudilər fərqli dini əqidə daşıyıcıları olduğu üçün bir neçə dəfə Avropadan qovulmuşlar. Yəhudilərin XV əsrdə İspaniyadan, II dünya müharibəsi zamanı isə ümumilikdə Avropada təqib olunmalarını misal göstərmək olar.

Ümumiyyətlə, Qərblə dialoqda digər sivilizasiyaların prinsipial olaraq başa düşmədikləri məqam dəyərlərlə bağlıdır. Şərq mentalitetinə dəyərlərə toxunulmazlıq və müqəddəslik statusunun verilməsi, dəyərlərlə maraqların bir-birindən ayrılması xasdır. Dəyərlər çirkin hesab edilən siyasi və iqtisadi mübarizədə istifadə oluna bilməz. Qərb mentalitetində isə dəyərlərin qiyməti məhz gündəlik əməliyyatlarda istifadə oluna bilinməsindədir, dəyərlər maraqların davamıdır və əksinə. Bu səbəbdən, demokratik dəyərlər konkret geosiyasi və iqtisadi maraqların əldə olunmasında geniş istifadə edilir. Şərq diplomatiyası isə bunu riyakarlıq nümunəsi kimi gördüyündən, səhv reaksiyalar verir. Geosiyasi



mübarizədə toxunulmaz dəyərlərin olmaması, demokratiyanın isə yalnız alət yox, eyni zamanda doğrudan da dəyər olduğu nəzərə alınmalıdır. Sivilizasiya – dəyərlərə əsaslanan mədəniyyətdir.

***Newtimes.az***
***04.02.2016***

## SİVİLİZASİYA ANLAYIŞI VƏ İKİLİ STANDARTLAR MEYARI

Qərb daim özünü əsl sivilizasiya məkanı kimi qələmə verməklə davam edir. Halbuki Qərbi sivilizasiyanın əsas mərkəzlərindən birinə çevirən sənaye inqilabları, böyük ixtira və kəşflər arxada qalıb. Bu gün yeni dünya ən böyük elmi-texniki inqilabların Asiya ölkələrində: Çində, Yaponiyada, Cənubi Koreyada, Malyaziyada, Sinqapurda daha çox baş verdiyinin şahidi olur. Qərbdə isə müasir dövrdə sivilizasiyanı ikili standartlar əvəz etmişdir. Təhlillər göstərir ki, bütün tarixi inkişaf mərhələlərində Qərb cəmiyyəti özününkü və özgələrinə münasibətdə fundamental fərqlər qoyub. Müasir dövrdə isə Afrika və Orta Şərqdə baş verən hadisələrdən sonra Avropa yeni bir miqrant axını ilə üzləşmişdir. Bu yeni miqrant dalğası həm humanitar fəlakətlə, həm də miqrantlara qarşı Avropada dözümsüzlüyün artması ilə müşayiət olunur. Miqrantların əksəriyyəti müsəlman olduğu üçün bu miqrasiya prosesi Qərb cəmiyyətində islamofob qüvvələrin güclənməsinə səbəb oldu. Həm də artıq bu yeni dalğa Avropanın ənənəvi olaraq islamofob qüvvələrin güclü olduğu ölkələri ilə yanaşı, daha tolerant ölkələrini də əhatə etməyə başladı. Belə ki, II Dünya müharibəsindən sonra Avropanın ən tolerant re-



gionu hesab olunan Skandinaviya ölkələri də müsəlman miqrantlara münasibətdə aqressiv reaksiya göstərməyə başladılar. İsveç müharibədən qaçmış 80 000 miqrantın deportasiya olunmasını gündəmə gətirib, Danimarkada millətçilər etiraz aksiyaları keçirirlər.

Avropada bu yeni miqrantların Qərb dəyərlərindən uzaq olması, mədəni səviyyəsinin aşağı olması, özlərini aparmaları cəmiyyətdə böyük qıcıq yaradır və aparılan təbliğat bu özgələrin Qərb dəyərlər sisteminə yaraşmadığını təşviq edir. Bununla da məsələnin əsl mahiyyəti kənara qoyulur və hər hansı bir miqrantın mənfi cəhəti ümumilikdə müsəlman obrazı kimi təqdim olunur. Əsl mahiyyət isə bu miqrantların bura niyə mühacirət etməsi ilə bağlıdır. Məlumdur ki, Afrika və Orta Şərqdən Avropaya pənah aparan bu insanlar hər hansı bir iqtisadi, sosial və ya şəxsi problemlərlə əlaqədar deyil, məhz bu ölkələrdə baş verən müharibədən qaçmaq üçün gəlmişlər. Bu müharibələrin isə məhz Qərb dövlətlərinin regiona müdaxiləsi ilə bağlı olduğu isə unudulur. Nəticədə müsəlman miqrantlara və daha geniş formatda müsəlman ölkələrinə qarşı ikili standartların tətbiq olunduğunun şahidi oluruq.

Azərbaycan da bu ikili standartlardan əziyyət çəkən ölkələrdəndir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə yanaşmada biz bunun şahidi oluruq. Yanvarın 29-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev gənclərlə görüşündə bununla bağlı açıq bildirdi ki, "Münaqişənin həll olunmasında ikili standartların böyük rolu var. Burada din amili rol oynayır. Müsəlman olduğumuza görə bizə ikili standartlar münasibəti göstərilir".

Eyni zamanda Avropada artan islamofobiya meyillərinin dünya üçün nə vəd etdiyi ilə bağlı narahatçılıq bildirilmişdir: "Avropaya nə qədər çox miqrant üz tutur, Avropada radikal qüvvələrin gücü o qədər çox artır. Əgər Avropanın aparıcı ölkələrində keçirilmiş seçkilərin nəticələrinə nəzər salsanız, görərsiniz ki, 10 il ərzində radikal islamofob partiyaların faizi nə qədər artıb. Bəlkə də iki dəfə və bu meyildir. Bu gün onlar əlbəttə ki, siyasətdə söz sahibi deyillər. Amma bu meyil nəyə gətirib çıxaracaq? Ona gətirib çıxaracaq ki, bəlkə də 10 ildən, 15 ildən sonra onlar hakimiyyətə gələcəklər. Onda necə olacaq? Onda müsəlmanlara artıq rəsmi mövqe necə olacaq?".

Beləliklə, dini dəyərlər sistemindən çıxa bilməyən Qərb dünya nizamında ahəngdarlıq üçün həqiqi multikultural dəyərlərə üstünlük verməlidir. Dünyada bütün münaqişələr özününkü və yaxud özgə olmaq əsasında deyil, ədalət prinsipi əsasında həll olunmalıdır. Avropa Orta Şərq və Afrikadan miqrant axınına Avropanın gələcəyinə təhdid nöqteyi-nəzərindən deyil, humanitar fəlakət, insanlıq faciəsi kimi baxmalıdır. Dünyada bütün proseslər güclülərin qanunu ilə deyil, vahid beynəlxalq hüquq normaları ilə tənzimlənməlidir. Yalnız bu halda dünya nizamı yeni dövrün çağırış və təhdidlərinə cavab vermək iqtidarındadır.

Avropadakı ikili standartlar müasir dövrdə bu qitədə sivilizasiyanın reallıq yox, xülya olduğunu göstərir.

***2016***



## NAXÇIVANDAN DÜNYAYA

### *9 fevral – Azərbaycanın bütövlük mübarizəsinin zəfər günüdür.*

*Geosiyasi cəhətdən olduqca həssas mövqeyə malik Azərbaycan tarixən böyük dövlətlərin maraq dairəsində olmuşdur. Güclü Azərbaycana regionda əksər qüvvələr maneə kimi baxmışlar. Tarixi zaman kəsiyində bu meyil davamlı olaraq müşahidə olunur. Azərbaycanın bütövlüyünə ən böyük zərbə isə keçən əsrin əvvəllərində vuruldu. Əvvəlcə tarixi Azərbaycan torpaqları olan İrəvanda Ararat Respublikası yaradıldı, daha sonra Zəngəzur Ermənistan Sovet Respublikasına hədiyyə edildi. Tarixi faktlar aşkar göstərir ki, o zaman bu torpaqlarda ermənilər əhalinin çox az bir hissəsini təşkil edirdi, mütləq əksəriyyət azərbaycanlılar idi.*

XX əsrin əvvəllərində Naxçıvanın da Azərbaycandan qoparılması ilə bağlı siyasi oyunlar gedirdi. Zəngəzurun verilməsi ilə Azərbaycanın əsas hissəsindən ayrı düşmüş Naxçıvanın Ermənistana pay verilməsi planlarını yerli əhalinin qətiyyəti və azadlıq mübarizəsi pozdu. Həmin dövrdə Naxçıvan ilk növbədə yerli əhalinin mübarizəsi və əzmkarlığı hesabına Azərbaycanın tərkibində qaldı. Naxçıvanın ayrı-ayrı kəndlərində silahlı müqavimət göstərildi. Son nəticədə sovet rejiminin burda mövcudiyyətinin təhlükə altına düşməsindən ehtiyat

edən mərkəzi hökumət yerli əhalinin təkidi ilə rəy sorğusu keçirməli oldu. Naxçıvanda yaşayan əhali qətiyyətlə Azərbaycanın tərkibində qalmaq istəklərini bildirdilər.

Ümumiyyətlə, coğrafi cəhətdən kəskin kontinental iqlimə malik Naxçıvan üçün tarix boyu iki faktor həlledici olmuşdur – təbiət və insan faktoru. Ən soyuq və ən isti təbiətin yoğurduğu əhali hər zaman öz mübarizliyi ilə seçilmiş, Azərbaycanın ayrılmaz tərkib hissəsi olaraq düşmənlərə baş əyməmişdir. XX əsrin əvvəllərində də Sovetlər İttifaqı tərəfindən aparılan məkrli siyasət nəticəsində bu torpağı ermənilərə peşkəş etmək istəyənlər həmin bu mübariz insan faktoru ilə üzləşdilər. Həmin dövrdə də yerli əhali tamamilə azərbaycanlılardan ibarət idi, siyahıyaalmalarda qeydə alınan ermənilər isə Türkmənçay müqaviləsindən sonra İran və Türkiyədən bura köçürülənlər olmuşdur. 1920-ci il işğalından sonra Naxçıvanın Azərbaycanın tərkibində qalmaq üçün apardığı mübarizə nə mərkəzi hökumətin repressiyaları, nə də yerli bolşeviklərin süni beynəlmiləlçi ideyasına məğlub olmadı. Tarixi mənbələri göstərir ki, sovet rejiminin bütün səylərinə baxmayaraq, 1920-1924-cü illər ərzində regionda sabitliyi təmin etmək mümkün olmamışdı, Naxçıvanın müxtəlif yerlərində davamlı çaxnaşmalar baş verirdi. Bu mübarizə 9 fevralda Naxçıvanın Azərbaycan SSR-in tərkibində Muxtar Sovet Sosialist Respublikası statusunu qazanması ilə yekunlaşdı.

Bu tarix müasir mərhələdə Azərbaycanın bütövlük tarixidir. Təqvimin bu günü Naxçıvanın Azərbaycanın ayrılmaz tərkib hissəsi olmasını təsdiqləməklə tarixə



yazıldı. Buna görə də 9 fevralı, hər şeydən əvvəl, Naxçıvanda yaşayan əhalinin qətiyyətinin zəfəri adlandırmaq olar. Min illərlə Azərbaycan tarixində özünəməxsus yeri olan bu diyar ermənilərin və onların havadarı olan xarici qüvvələrin məkrli planlarından bütövlük prinsipini saxlayaraq çıxdı. Ulu öndər Heydər Əliyev Naxçıvanın muxtariyyət qazanmasının Azərbaycan üçün nə qədər həyati əhəmiyyətli olduğunu qeyd edərək demişdir: "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir".

2017-ci Azərbaycanda "İslam həmrəyliyi ili" elan olunmuşdur. İslam ölkələrinin mədəniyyət nazirlərinin 2009-cu ilin oktyabrın 14-də keçirilən VI konfransında qəbul edilmiş qərara əsasən isə qədim Azərbaycan torpağı olan Naxçıvan 2018-ci il üçün "İslam Mədəniyyətinin Paytaxtı" seçilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "İslam həmrəyliyi ili" elan olunması ilə bağlı sərəncamında bu məsələyə xüsusi önəm verilir: "Azərbaycan tolerantlıq mühitinin təşəkkül tapmasına, multikulturalizmin, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun qurulmasına, islam dəyərlərinin dünyada təbliğinə böyük töhfələr vermişdir. Azərbaycanın İslam aləmində qazandığı nüfuz 2009-cu ildə Bakı və 2018-ci ildə Naxçıvan şəhərlərinin İslam mədəniyyətinin paytaxtı elan olunmasında öz ifadəsini tapmışdır."

Muxtar respublikanın yaradılmasının 93-cü ilində İslam mədəniyyəti paytaxtı olan Naxçıvan torpağının yetirmələrin böyük bir tarixi dövr ərzində İslam intiba-

hının çiçəklənməsinə töhfə vermişlər. Ən azı qarşıdakı iki il ərzində İslam dünyasının xüsusi diqqət mərkəzində olacaq ölkəmizin müsəlman ölkələri arasında daha yaxından tanıdılmasına əlverişli imkan yaranmışdır. Bu yazıda hazırda müsəlman ölkələri arasında dövlət-din münasibətləri və dini tolerantlıq baxımından nümunə ola biləcək Azərbaycanın İntibah dövründə də İslam sivilizasiyasına verdiyi töhfələrə nəzər salmaq istərdik.

*(a)*

*(b)*

## (c) *İslam intibahı dövrü*

Azərbaycandan çıxan mütəfəkkirlərin dünyada İslam dəyərlərinin təbliğində və İslam intibahı adlandırılan dövrdə tutduğu mövqeyə işıq salmazdan əvvəl intibah dövrü anlayışına Şərqdə və Qərbdə fərqli yanaşma olduğunu qeyd etməliyik. Məlum olduğu kimi, Qərb elmi dairələrində intibah – renessans dövrü olaraq XIV-XVII əsrlər hesab olunur. İntibah dövrünə Avropa mədəniyyəti tarixində Orta əsr və Yeni dövr mədəniyyətləri arasındakı mərhələ kimi baxılır. Qərbin intibah dövrünün əsas fərqləndirici xüsusiyyəti isə ondan ibarətdir ki, bu tarixi mərhələ yalnız Avropaya şamil olunur, Şərqdəki hadisələr isə ümumiyyətlə yada salınmır. Halbuki həmin dövr Şərq-İslam mədəniyyəti Avropa ilə müqayisədə daha yüksək səviyyədə idi. Avropada özgələrinə qarşı ayrı-seçkilik üstündə qurulan bu yanaşma ümumilikdə Şərqi görməzlikdən gəlir. Təsadüfi deyil ki, Qərbdə renessans dövründən əvvəlki mərhələni "qaranlıq əsrlər" adlandırırlar.



Roma imperiyasının dağılmasından başlayaraq XIV əsrə qədərki dövrün "qaranlıq" adlandırılmasına isə İslam mədəniyyətinə qarşı ayrı-seçkilikdən başqa ad vermək mümkün deyil. Çünki bu mərhələdə nəinki Şərqdə, ümumilikdə bütün dünyada ən böyük aydınlıq, bir çox elmi və texniki kəşflər, şəhərsalmadan tutmuş incəsənətə qədər yeniliklər İslam dünyasının adı ilə bağlıdır. İslam intibahının Avropaya gətirdiyi bir çox yeniliklər İspaniyada, İtaliyada hətta müsəlmanlara qarşı aparılan rekonkista hərəkatından sonra da ən mütərəqqi nailiyyətlər hesab olunurdu.

İslam Avropaya təkcə bir dini dünyagörüşü deyil, fəlsəfi fikirdən memarlığa qədər geniş bir sahəni əhatə edən mədəniyyət olaraq daxil olmuşdu. Təəssüf ki, Avropa bu yanaşmaya xristian rekonkistası ilə cavab verdi. Avropada müsəlmanların mövcudiyyətinə son qoymaqla yanaşı, Kordovada zəngin kitabxanalar, elm məbədləri də dağıdıldı. Əslində bu yanaşma Avropa üçün yenilik deyildi. Xristianlığı qəbul edəndə Avropa xristian olmayan bütün antik mədəniyyətin dağıdılmasına çalışmışdı. Avropada məhv edilən antik mənbələri dünya yalnız müsəlman alimlərin tərcümələrində yenidən öyrənə bilmişdir. Görünən odur ki, "qaranlıq əsr"lərin reallığı budur: "İslam intibahı – xristian rekonkistası".

Beləliklə, İslam intibahı Qərbin yalnız Avropa tərəqqi mərhələsini əks etdirən klassik renessans anlayışından fərqli olaraq ümumbəşəri prosesləri əks etdirir. İslam intibahı "antik mədəniyyətin, İslam dəyərlərinin, eləcə də təsəvvüf dünyagörüşünün sintezi" kimi formalaşmışdır. Avropa intibahından fərqli olaraq yalnız Qərb-xristian dəyərlərinə deyil, bəşəri dəyərlərə

xitab edir. Buna görə də müsəlman dünyasının hər yerindən, o cümlədən Azərbaycandan bir çox dəyərli mütəfəkkirlər bu prosesin gedişatında fəal iştirak etmişlər.

*(d)*

*(e)*

### *(f)İslam dünyası elmi məktəblərində Naxçıvan*

Ərəb dilinin islam ümmətində birləşdirici rol oynaması orta əsrlərdə elm və mədəniyyətin inkişafında müstəsna rol oynamışdır. Böyük bir coğrafi məkanda vahid dil elm adamlarının fəaliyyət məkanının genişlənməsinə səbəb olmuşdur. Azərbaycanlı mütəfəkkirlər İslam mədəniyyəti daxilində müxtəlif elmi məktəblərin və təsəvvüf cərəyanlarının yaradıcıları, aparıcı üzvləri olmuşlar. Azərbaycandan, o cümlədən Naxçıvandan çıxan bir çox mütəfəkkirlər İslam dünyasının məşhur elmi məktəblərində özünəməxsus yer tutmuşlar. İntibah dövründə İslam dünyasında Bağdad, Şam, Qahirə, Marağa, İsfahan, Buxara, Səmərqənd elm məbədi kimi tanınmış, bir çox alim və mütəfəkkiri öz ətrafında birləşdirmişdir. Naxçıvanla İslam dünyasının bu mərkəzləri arasında əlaqələrdə heç şübhəsiz Nəsirəddin Tusinin və onun nəslinin davamçılarının rolu qeyd edilməlidir. Məlum olduğu kimi, özü Tus şəhərində anadan olan Nəsirəddin Tusinin əsli Ordubaddandır və hər zaman bu torpağa öz diqqətini göstərmişdir. Təsadüfi deyil ki, Hülakülər dövlətində vəzir olan N.Tusi ona verilən pay torpağı olaraq məhz Ordubadı seçmişdir. Həmin dövrdə



Ordubadı bütün vergilərdən azad etməklə, eləcə də rəhbərlik etdiyi Marağa rəsədxanası ilə əlaqə yaratmaqla Naxçıvanda elmin inkişafı üçün şərait yaratmışdır. XIV əsrin ortalarında Nəsirəddin Tusi nəslinin davamçıları Marağadan Ordubada köçərək burada yaşamağa başlamışlar. N.Tusinin əsasını qoyduğu Marağa-Ordubad elmi əlaqələri Naxçıvandan olan alimlərin İslam dünyasının əksər elmi mərkəzlərinə yolunu açmışdır. Bir maraqlı faktı da qeyd etmək istərdim ki, tarixi mənbələrə istinadən Marağa rəsədxanasının qurulmasında görkəmli astronom və konstruktor Müəyyidəddin Ordubadi də iştirak etmiş, N.Tusi ilə bərabər bir çox yeni cihazların ərsəyə gəlməsində iştirak etmişdir. Ümumiliklə N.Tusinin özünün və davamçılarının ətrafında olan Naxçıvandan bir çox alim və mütəfəkkirlər Hülakülər-Elxanilər dövlət aparatında, dövrün mühüm elmi mərkəzlərində təmsil olunmuş, eləcə də sufi yolunun davamçıları olaraq müsəlman dünyasının müxtəlif bölgələrinə yayılmışlar.

XIII-XV əsrlərdə Səncər Naxçıvani sülaləsi Yaxın Şərqdə elm, mədəniyyət və dövlət idarəçiliyində ad çıxarmışdır. Onun oğlanları Nəsirəddin Qutluqşah, Fəxrəddin Hinduşah, İzzəddin Dövlətşah, Hüsaməddin Toğanşah, nəvə-nəticəsi Məhəmməd ibn Hinduşah, Kaməddin ibn Məhəmməd Şərqin müxtəlif elmi məktəblərində Azərbaycanı təmsil etmişlər. Orta əsrlərdə Naxçıvandan dünyaya ayaq açan, bütün dünyada və İslam Şərqində Azərbaycanı tanıdan iki böyük şəxsiyyətin adı da mütləq xüsusi qeyd edilməlidir – Əbu Bəkr Əcəmi və Fəzlullah Nəimi. Əcəmi Şərq arxitekturasında yeni məktəb yaratmışdısa, Nəimi islam dini dünya-

görüşü daxilində yeni bir istiqamətin hürufi təsəvvüf yolunun yaradıcılarındandır. Əcəmi Şərq memarlıq üslubuna yeni istiqamət gətirmiş, Yaxın Şərq memarlığına güclü təsir göstərmişdir. Hətta memar Sinanın tikdirdiyi binalarda Əcəmi üslubundan bəhrələnməsi müşahidə olunur. Təsadüfi deyil ki, zamanında ona "Şeyxül-mühəndis" adı verilmişdir. Hürufiliyin başında duran Fəzlullah Nəiminin harada anadan olması ilə bağlı fərqli fikirlər olsa da, son tədqiqatlara əsasən, onun Araz çayı sahilində yerləşən orta əsr şəhəri Astabadda dünyaya gəldiyi bildirilir. Əmir Teymurun 1394-cü ildə Əlincə qalasının ətəyində edam etdirdiyi Fəzlullah Nəiminin məzarı da burdadır. Həmin dövrdə hürufilik təliminin küfr hesab edilməsinə baxmayaraq, xalqın öz eloğlusuna böyük sevgisi sayəsində Nəiminin məzarı bu günə qədər Əlincənin ətəyində qorunub saxlanılır. Yəni Fəzlullah Nəiminin məzarının burda əsrlərdir qorunması vətəni ilə əlaqədardır. Hürufilik təliminin XIV-XVI əsrlərdə bütün müsəlman dünyasında geniş yayıldığını və Nəiminin davamçı və müridlərinin bu geniş coğrafiyada səpələndiyini nəzərə alaraq onun sayəsində vətəni İslam dünyasında olduqca məşhur olmuşdur.

Beləliklə, orta əsrlərdə Naxçıvan İslam dünyasının siyasi, elmi, mədəni həyatında yaxından iştirak etmişdir. Bu torpağın yetirmələri olan böyük mütəfəkkirlər Azərbaycanın dünyada tanıdılmasına töhfə vermişlər. İslam mədəniyyətinin paytaxtına ev sahibliyi edəcək Naxçıvanda müasir dövrdə də İslam mənəvi-tarixi irsinin və dəyərlərinin qorunmasına və yaşadılmasına xüsusi diqqət yetirilir. Naxçıvan öz tarixi və dini abidələri ilə



mədəniyyət paytaxtı olmağa tamamilə layiqdir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan türk-islam mədəniyyətinin vəhdətini əks etdirir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun sərəncamı ilə tikilən və restavrasiya olunan – bəşəriyyətin yenidən yaranış tarixini simvolizə edən Nuh peyğəmbərin məzarüstü abidəsi, "Qurani-Kərim"də adı çəkilən Əshabi-Kəhf ziyarətgahı, min ildir Naxçıvanı bəzəyən Şərqin mirvarisi – Möminə Xatın türbəsi, Şərq İslam memarlığının incəliyini zövqlə əks etdirən Qarabağlar türbəsi, Naxçıvan şəhər-qalası və tikilməkdə olan böyük məscid kompleksi bu qədim torpağı dünyaya bir daha yaxından tanıdacaqdır.

***Newstime.az***
***09.02.2017***

# MULTİKULTURALİZM

## MULTİKULTURAL DƏYƏRLƏR – İLKİN VƏ SONRAKI MÜXTƏLİFLİK PRİZMASINDA

Müasir dövrümüzdə dünya birliyi yeni çağırışlar və təhdidlər qarşısındadır. Qloballaşma prosesinin təsiri altında hətta dünyanın ən ucqar nöqtələrində baş verən hadisələr belə planetar prizmadan mühüm əhəmiyyətə malikdir. Günümüzdə dünyanın harasında baş verməsindən asılı olmayaraq etnik separatizm, dini ayrıseçkilik və radikalizm, terrorizm və digər bu kimi trendlərin xüsusiyyətləri yerli çərçivəni çoxdan aşmışdır. Ən qorxulusu isə odur ki, baş verənlərə ədalətli yanaşma olmadıqda və ya proseslərin tənzimlənməsində beynəlxalq hüququn norma və prinsipləri nəzərə alınmadıqda bəşəriyyətimizin qarşısında dayanan təhdidlər daha da mürəkkəb xarakter alır və müxtəlif radikal meyillərin güclənməsinə səbəb olur.

Yeni minillikdə qlobal müstəvidə ən mühüm çağırışlardan biri kimi fərqliliklərin – fərqli sivilizasiyaların, mədəniyyətlərin, dinlərin, hətta xalqların birgəyaşayış fəlsəfəsi ilə bağlı baş verən dəyişikliklər və miqrasiya proseslərinin təsirini fərqləndirmək olar. Çünki ikinci dünya müharibəsindən sonra Qərbin artmaqda olan dominant mövqeyi cəmiyyətin həyatında "birgəyaşayış və miqrasiya" nisbətini müəyyənləşdirmişdir. Bu model



Qərb ölkələrinin ucuz işçi qüvvəsini mexaniki olaraq qəbul etməsi və yeni gələnlərin vahid, heç bir milli-mədəni-dini xüsusiyyətini nəzərə almayan universal dəyərləri qəbul etməsi üzərində qurulmuşdur. Sonrakı proseslər göstərdi ki, bu siyasət işçi miqrantların Qərb dəyərlərinə uyğunlaşdırılmasına deyil, daha çox təcrid olunmasına yönəlmişdir. Avropada yeni sakinlərə sanki "istismar müddəti" başa çatdıqdan sonra geri qayıtmalı olan miqrantlar kimi baxılırdı. Bu isə "Qoca qitə"nin yeni sakinlərinin yalnız birinci nəsli ilə bağlı problemsiz yaşandı. Artıq ikinci nəsil miqrantların təhsil, sosial, dini ibadət, ailə kodeksi, mədəni dəyərlərinin nəzərə alınmaması Avropanın özünün elan etdiyi demokratik prinsiplər və multikultural dövlət doktrinası ilə ziddiyyət təşkil edirdi. Bütün bunlar üçüncü minilliyə doğru Avropa ölkələrinin daha əvvəl bəyan etdikləri prinsiplərdən geri çəkilməsinə səbəb oldu.

Qərbsayağı multikulturalizmin böhranı və ya məğlubiyyəti ilə bağlı mülahizələr bu mərhələdən başlayaraq səslənməyə başlandı. Burda əsas səbəb olaraq dominant etnosun yalnız öz mədəni və dini dəyərlərinə üstünlük verməsini göstərmək olar. Qərbin gözündə yeni gələn miqrantlar mühacir qəbul edən cəmiyyətin yeknəsəq tərkib hissəsi olmalıdır. Onların fərqli davranış və ya əxlaq normaları Qərb dəyərləri ilə uyğun gəlmədiyi üçün qəbuledilməzdir. Lakin hətta ikinci və üçüncü nəsil miqrantların uyğunlaşma problemləri və dini-mədəni ənənələri saxlaması multikultural siyasətdə nəyinsə çatışmadığını göstərdi.

"Qoca qitə"də Qərb dəyərlər sistemindən fərqli dəyər daşıyan yeni sakinlərin problemlərinin həllinə Av-

ropa dövlətlərinin liderləri "kim bizim kimi deyilsə, bizimlə yaşaya bilməz" fəlsəfəsi ilə baxmağa başladılar. Bu isə islamofobiya, ultra millətçilik, radikalizm meyillərinin və paralel olaraq beynəlxalq terrorizm şəbəkəsinin "ədalətli dünya" qurulması ilə bağlı çağırışlarına qoşulanların sayının artmasına səbəb oldu.

Əslində isə dünyada artmaqda olan fərqliliklər arasında toqquşma və ziddiyyətlərin fonunda bəşəriyyətin gələcəyinə əsas ümid dialoq və harmoniyayadır. Çünki tarixi inkişaf boyu biz fərqli dinlər, mədəniyyətlər və sivilizasiya daşıyıcılarının eyni məkanda bərabər şərtlərlə yanaşı və birgə yaşamasının mümkün olduğu kimi, olmadığı hallarla da dəfələrlə rastlaşmışıq. Fərqli zamanlarda xristian və islam, xristian və bütpərəst, islam və bütpərəst, eləcə də Qərb və Şərq dəyər daşıyıcılarının ziddiyyəti onların bir-birindən təcrid olunmuş şəkildə yaşamasını şərtləndirmişdir və onların bir-birinə qarşı dözümlülüyünün yalnız bərabər gücə malik olduqları hallarda mümkün olduğunun şahidi olmuşuq.

Müasir dövrümüzdə isə qloballaşma proseslərinin bu qədər dərininə inkişaf etdiyi bir dövrdə artıq bu mümkün deyil. Qloballaşan dünya fərqli mədəniyyətlərin birgəyaşayışı olmadan mövcud ola bilməz. Artıq dünyada monokultural və monoetnik cəmiyyət və ölkə anlayışı qəbul olunmur. Beynəlxalq münasibətlərdə də istər siyasi, istərsə iqtisadi və ya mədəni sahə olsun hər hansı dövlət özünütəcrid şəraitində inkişaf edə bilməz. Bəşəriyyət yalnız fərqliliklərin dəyərlərinə hörmət etməklə inkişaf edə bilər. Dünyada çox az sayda mövcud olan monoetnik ölkələr isə ya coğrafi, tarixi, siyasi səbəblərdən təcrid olunmuşlar, ya da bu ölkədə aparılan



şovinist və dözümsüzlük siyasətinin təzahürüdür. Misal üçün, monoetnik ölkə olan Ermənistanda bu digərlərinə qarşı dözümsüzlük ideologiyasının nəticəsidir.

### *Qərb dəyərlər sisteminə təhlükə*

Üçüncü minillikdə Yaxın Şərqdə baş verən hadisələr və nəticədə Avropaya istiqamətlənmiş əksəriyyəti müsəlmanlardan ibarət olan böyük miqrant ordusu, eləcə də dini radikalizmin artması və beynəlxalq terror şəbəkələrinin bundan istifadə etməsi Avropanı yeni dilemma qarşısında qoymuşdur. Suriya, İraq, Liviya, Əfqanıstan və digər müsəlman ölkələrində davam etməkdə olan qanlı hadisələr milyonlarla insanın Avropaya üz tutmasına səbəb oldu. Bu sayda yeni sakin demoqrafik nisbətdə onsuz da dəyişməkdə olan tarazlığa ciddi təhdid kimi qəbul olundu. "Qoca qitə"də ultra millətçi hərəkat, bu ideyaları təbliğ edən partiya və təşkilatların mövqeləri güclənməyə başladı. Artıq cəmiyyətdə və siyasi elitada islamofob qüvvələrin açıq təsiri özünü göstərir. Görünən odur ki, Avropada bu yeni miqrasiya trendi Qərbin dəyərlər sisteminə təhlükə kimi qəbul edilir. Bu yanaşma isə həm Avropa ölkələrinin siyasətində, həm də həmin ölkələrin cəmiyyətinin gündəlik həyatında özünü göstərir. Hələ 2011-ci ildə Anders Breyvikin törətdiyi terroru xristian-islam mübarizəsi motivində əsaslandırması və sonradan məhkəmə zamanı bu terrorçuya qarşı Qərb cəmiyyətinin münasibəti Avropanın islamofobiya ilə xəstələndiyini göstərirdi. Sonrakı illərdə Yaxın Şərqdə baş verən münaqişə və hərbi əməliyyatlarla əlaqədar milyonlarla insanın yeni miqrasiya dalğası isə Qərbin qorxusunu daha da artırmışdır.

Hazırda Avropaya miqrant axınının böyük hissəsinin müsəlman olması Qərbin qarşısında daha mühüm bir çağırış qoymuşdur. Avropada xristian və islam dini əqidə daşıyıcılarının bərabər hüquqlarla eyni məkanda birgəyaşayışı artıq zamanın tələbidir. Qərb isə bunu çağırış deyil, öz dəyərlər sisteminə və ümumiyyətlə gələcəyinə təhdid kimi qiymətləndirir.

Günümüzdə Avropada müsəlmanların öz dinlərinə sadiq qalmaları, bununla yanaşı, islamın bir din olaraq populyarlaşması, müsəlman əhalinin demoqrafik artım göstəriciləri Qərb cəmiyyətinin gələcəyi üçün əsas narahatedici məqam kimi qəbul olunur. Bunun nəticəsidir ki, Qərbdə islamı bir fobiya olaraq görürlər. Azlıqların çoxluqlara çevrilməsi qorxusu Qərbsayağı multikulturalizmin qarşısında duran əsas çağırışdır.

Hazırda belə fikirlər səslənir ki, Qərb və İslam mədəniyyətləri birgə yaşaya bilməz. İslam əleyhinə kəskin çıxışları ilə tanınan hollandiyalı siyasətçi Qert Vilders "Multikulturalizmin yenilməsi, yaxud İslam hücumunun qarşısını necə almalı" adlı məqaləsində İslamı təhlükəli ideologiya adlandırır və bildirir ki, İslam bizim Qərb həyat tərzimizlə uyğun deyil.

Tarixə nəzər saldıqda, Avropada indi islama qarşı sərgilənən münasibətin zamanında digər dinlərin daşıyıcılarına da tətbiq olunduğunu görürük. Tarix boyunca yəhudilər fərqli dini əqidə daşıyıcıları olduğu üçün bir neçə dəfə Avropadan qovulmuşlar. XV əsrdə İspaniyadan yəhudilərin qovulması, II dünya müharibəsi zamanı isə bütünlükdə Avropada yəhudilərin təqib olunmasını misal göstərmək olar.

Orta əsrlərdə baş qaldıran rekonkista hərəkatı da



Qərbin dini müxtəlifliyə dözümsüzlüyünün əyani göstəricisidir. Məlum olduğu kimi, Ərəb intibahı dövründə islam dini bütün Cənubi Avropada geniş yayılmışdı. Xüsusilə, İspaniyada Kordova Xilafətinin təsiri altında yerli əhali arasında islam dini çoxlu tərəfdar toplamışdı. Lakin xristianlıq ideyaları üzərində yüksələn və digər dinlərə qarşı dözümsüzlük göstərən rekonkista hərəkatı nəticəsində müsəlmanlarla bərabər yəhudilər də qitədən sıxışdırılıb çıxarıldılar. 1492-ci ildə İspaniyada ərəblərin hakimiyyətinə son qoyulmasından sonra, 1610-cu ilə qədər müsəlmanların və yəhudilərin hamısı İspaniyadan qovuldu. Təkcə XVI əsrdə bu ölkədə üç milyon müsəlman sürgün və ölümlə üzləşmişdir.

Yəni, din Qərb sivilizasiyasının dəyərlər sistemində ən mühüm, hətta məhək daşı rolunu oynayır. Samuel Hantinqton "Biz kimik? Amerikan milli identikliyinə təhdidlər" kitabında yazır ki: "Avropa millətçiliyinin ilkin dövründə milli identiklik əksər vaxt dini terminlərlə müəyyən olunurdu. XIX-XX əsrlərdə milliyyətçi ideologiya daha çox dünyəviləşdi. Almanlar, britaniyalılar, fransızlar, amerikalılar özlərinin hər hansı millətə mənsubiyyətlərini ənənə, dil, mədəniyyət üzərindən müəyyənləşdirməyə üstünlük verirdilər. Çünki ancaq dini əqidə üzərindən müəyyənləşdirmə ölkə vətəndaşlarının bir çoxunun ayrı düşməsinə səbəb olurdu. Lakin XXI əsr belə görünür ki, dini dirçəliş dövrü olmağı vəd verir".

Xristianlıq Qərb üçün tarixən birləşdirici funksiyanı yerinə yetirmək üçün mühüm alət olub və digər dinlərin təmsilçilərinə qarşı dözümsüzlük müşahidə olunub. Tarixi ardıcıllıqla baxsaq, multikultural dəyərlər Qərbdə

birinci mərhələdə xristian dininə və Papalığa xidmət etmək üçün birləşdirici faktor olaraq nəzərdə tutulmuşdur. Məlumdur ki, Roma imperiyası dövründə katolik kilsəsinin əhatə dairəsi Avropanın və hətta imperiyanın hüdudlarını aşsa da fərqli mədəniyyətlərin simbiozuna səbəb ola bilməmişdir. Bizansın timsalında pravoslavlığın ayrılması isə kilsənin nüfuzuna daha bir zərbə oldu. Lakin Qərbin vahid dəyərlərinin yaradılması üçün kilsə öz səylərini davam etdirirdi. Xüsusən də, orta əsrlərdə Avropa dövlətlərinin bir-birinə qarşı amansız müharibəsi zamanı kilsənin üzərinə birləşdirici missiya daha çox düşürdü. Papalıq müxtəlif Avropa xalqlarının birgəyaşayışını təmin etmək üçün müəyyən mənada çökmüş imperiyanın da vəzifələrini yerinə yetirirdi.

Beləliklə, tarixi hadisələr göstərir ki, Qərbin dini tolerantlıq və multikultural dəyərləri yalnız öz dini dəyərlərinin digərlərinə qəbul etdirilməsi üzərində qurulmuşdur. Belə olan halda hazırda immiqrant ölkələr olaraq xarakterizə olunan Avropa dövlətləri fərqli mədəniyyət və dini daşıyıcılar olan mühacirləri Qərb cəmiyyətinə yalnız assimilyasiya etməyə çalışırlar. Yəni, Avropada çoxmədəniyyətlilik yalnız Qərb dəyərlərinin dominantlığı və vahid mozaik quruluşun heç nə ilə seçilməyən yeknəsəq tərkib hissəsi kimi qəbul olunur. Bu isə müasir dövrdə əhalisi müxtəlif mədəniyyətləri və millətləri təmsil edən Avropa ölkələri üçün multikulturalizmin gələcək taleyini təhdid edir. Bugünkü reallıq ondan ibarətdir ki, Avropanın əksər dövlətlərində artıq əhalinin ən az 10%-ni əcnəbilər təşkil edir. Buna görə də, multikulturalizm Qərb cəmiyyəti üçün bir seçim deyil, məhz zərurətdir.



### *"İlkin" və "sonrakı" müxtəliflik*

Tarixən Qərbin öz dəyərlər sisteminə daxil olmayanlara münasibəti xüsusi maraq doğurur. Hələ Roma imperiyası dövründə romalılar yaşadıqları şəhəri "əbədi şəhər" adlandırırdılar və Roma vətəndaşları özlərini hamıdan üstün hesab edirdilər. Əsl romalıya bütün digərləri ilə, o cümlədən başqa ölkələrdən gələnlərlə münasibətdə fərq qoyulurdu. Sivilizasiyalar mövzusunda tədqiqatçı Rocer Osborn bununla bağlı yazır ki, "Yunan, Ellin və Roma sivilizasiyalarının bütün ətraf xalqlara və mədəniyyətlərə "barbar dünyası" kimi baxması sonradan ümumən Qərb sivilizasiyasının digər sivilizasiyalara ayrı-seçkilik meyarları ilə yanaşmasının başlanğıcı olmuşdur".

XX əsrin ortalarında Avropada elan olunan multikulturalizm ilkin mənada tarixi milli azlıqlara münasibəti nəzərdə tutan yanaşma hesab olunurdu. Belə olan halda isə "ilkin" və "sonrakı" müxtəliflik anlayışları ortaya çıxır. "İlkin" müxtəliflik eyni bir məkanda tarixən müxtəlif mədəni, dini, etnik daşıyıcıların birgəyaşayışına əsaslanır. Tarixin müxtəlif mərhələlərində bu fərqli qrupların biri və ya bir neçəsi dominant, digərləri isə azlıq (milli, dini) olurlar. Əsas məqam isə dominant-azlıq münasibətlərinin fərqli dəyər daşıyıcıları olsalar belə birgəyaşayış formulunda birləşə bilməsindədir. Əslində bu cür "ilkin" müxtəliflik dünyanın əksər ölkələrində mövcuddur və heç də hər yerdə problemsiz deyil. Məsələn, Britaniyada keltlər və anqlo-sakslar tarixən birgəyaşayış formatında problemlər yaşamışlar və bu gün də bu problemlər davam edir. Yaxud Çində çinlilərlə uyğurların yanaşı yaşamasının tarixi yüz

illərlədir, lakin hələ də harmonik münasibətlərdən söhbət gedə bilməz. Yəni, "ilkin" müxtəliflik heç də o demək deyil ki, əsrlərlə davam edən birgəyaşayış çoxmədəniyyətliliyə çevriləcək.

"Sonrakı" müxtəliflik isə tarixən fərqli məkanda yaşayan və fərqli dəyərlər sisteminin daşıyıcılarının hər hansı bir dövrdə müxtəlif siyasi, iqtisadi, sosial və digər səbəblərdən birgəyaşayışına əsaslanır. İndiki halda münaqişə, yoxsulluq, işsizlik, təhsil və digər səbəblərdən Avropaya üz tutan Afrika, Asiyadan olan mühacirlərin miqrasiyası nəticəsində yaranan həyat şəraitini "sonrakı" müxtəlifliyə aid etmək olar. Bu əksər hallarda iqtisadi cəhətdən fərqli qütbləri təmsil edən yoxsul ölkələrdən siyasi cəhətdən sabit olan varlı ölkələrə doğru insanların köçü nəticəsində yaranır. Bu zaman yeni gələnlərlə yerli sakinlər arasında ziddiyyətlərin yaranması müşahidə olunur. Bu prosesin iqtisadi səbəbləri olduğu kimi, mədəni barışmazlıqdan və sivilizasiyaların toqquşmasından irəli gələn səbəbləri də vardır. Bununla bağlı akademik Kamal Abdullayev yazır ki, "Sonrakı müxtəlifliklə bağlı real sosial nəticə odur ki, gəlmə multikultural dəyərlər, dəyərləri formalaşmış ölkədə özünə asanlıqla yer eləmir. Belə bir ölkədə yeni dəyərlərin calağı istər-istəməz süni alınır. Onun üçün də bəzi Avropa ölkələrində bu modelin iflasa uğramasının obyektiv səbəbləri yox deyil".

Hazırkı mənada multikultural cəmiyyətin dayanıqsızlığının ən mühüm səbəblərindən birinin Qərbi Avropa ölkələrinin yeritdiyi miqrasiya siyasətinin olduğunu söyləmək olar. Çünki multikulturalizm ilkin mənada tarixi milli azlıqlara münasibəti nəzərdə tutan yanaşma



hesab olunurdu. Lakin sonradan Avropa rəsmiləri tərəfindən işçi miqrantların vahid mədəni dəyərlərə inteqrasiyasına hesablanan miqrasiya siyasəti təşviq edilməyə başlandı. Bu siyasət isə özünü doğrultmadı və "sonrakı" müxtəlifliyi əhatə edə bilmədi. Bu gün Avropa rəsmiləri işçi miqrantların müvəqqəti gəldiklərini düşündüklərini bəyan etsələr də bu, reallığı əks etdirmir.

Əslində hüquqi müstəvidə ilk dəfə Avropada miqrantlar tarixi milli azlıqlara bərabər tutulmuşdur. Belə ki, bu sahədə qabaqcıl ölkələrdən sayılan İsveçdə 1970-ci illərin ortalarından, Hollandiyada isə 1980-ci illərin əvvəllərindən miqrant azlıqların müdafiəsi ilə bağlı tədbirlər həyata keçirməyə başlamışdılar. Dövlət tərəfindən miqrantların ana dilində təhsil almaq, öz kütləvi informasiya vasitələrini dərc etmək, mədəni tədbirlər həyata keçirmək və digər hüquqları ilə bağlı addımlar maliyyələşdirilirdi. Ancaq bu daha çox müəyyən məhdud dairə aktiv miqrantlara şamil olunurdu. Miqrantların sayının artması və öz dəyərlərinə sadiq qalması Avropa rəsmilərinin bu yanaşmadan imtina etməsi ilə nəticələndi. Hər iki ölkədə 1990-cı illərdə qanunvericilikdə geriyə addımlar atıldı. İsveçdə immiqrantların tarixi azlıqlara (saam, fin) bərabər tutan azlıqların müdafiəsi haqqında qanun dəyişdirildi. Niderlandda isə 1983-cü ildən azlıqların inkişafına dəstək proqramı dayandırıldı.

Beləliklə, Avropa "ilkin" və "sonrakı" müxtəlifliklərin vəhdəti əsasında birgəyaşayışa hələ hazır deyil. Bu ilk növbədə dini dözümsüzlük və islamofob meyillərin təsiri altındadır. Fərqli mədəni və dini dəyərlərin vahid universal dəyərlər sistemində nəzərə alınmaması hazır-

da Avropada multikultural cəmiyyətin birgəyaşayışına əsas maneə kimi görünür. İkinci mühüm səbəb bütün dünyada davam etməkdə olan iqtisadi böhranla əlaqədar Avropa ölkələrinin apardığı miqrasiya siyasətinin multikultural və demokratik prinsiplərə cavab verməməsidir. Belə görünür ki, Avropada həyat səviyyəsinin aşağı düşməsi, yoxsulluq və işsizliyin artması yeni sakinlərə qarşı dözümsüzlüklə müşahidə olunur. Beləliklə də, siyasi, iqtisadi, dini səbəblərdən asılı olaraq hazırkı mərhələdə Qərbsayağı multikulturalizm "ilkin" və "sonrakı" müxtəlifliklərin harmoniyasını yarada bilməmişdir. Lakin bu heç bir halda bütün dünyada multikulturalizmin böhranı üçün səbəb ola bilməz.

Dünyada "ilkin" və "sonrakı" müxtəliflikləri əhatə edə bilən multikultural tolerantlıq nümunələri də mövcuddur. Bu mənada Azərbaycan bütün dünyaya örnək ola biləcək dəyərlərə sahibdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı ilin aprel ayında Bakıda keçirilən BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun açılışında səsləndirdiyi fikirlər Azərbaycanda cəmiyyətin multikultural həyat tərzinə baxışını çox dəqiqliklə ifadə edir: "Azərbaycan əsrlər boyu dinlər, mədəniyyətlər və sivilizasiyaların bir araya gəldiyi məkan olmuşdur. Biz Şərq ilə Qərb arasında yalnız coğrafi körpü deyil, həm də mədəniyyət körpüsüyük. Əsrlər boyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri Azərbaycanda sülh şəraitində və ləyaqətlə yaşayıblar. Dini dözümlülük və multikulturalizm burada hər zaman mövcud olmuşdur. Multikulturalizm sözü mövcud olmadığı bir zamanda belə, həmin ideyalar daim yaşayıb".



Bu mənada Azərbaycanda multikulturalizmin həyat tərzi olmasına günümüzdə Avropanın imtina etdiyi dəyərlər prizmasından baxdıqda mənzərə daha aydın görünür. Günümüzdə Avropa yeni miqrasiya axını qarşısında "sonrakı" müxtəlifliyi qəbul etmədi və bu yeni sakinlərin "Qoca qitə"nin həyat tərzinə uyğunlaşa bilmədiyi üçün multikulturalizmin böhrana uğraması ideyası ortaya atıldı. İndi Avropada fərqli mədəni, milli, dini dəyər daşıyıcılarının yalnız "ilkin" müxtəliflik səviyyəsində birgəyaşayışa qadir olması ideyası təbliğ olunur. Lakin Azərbaycan nümunəsi göstərir ki, bu heç də doğru yanaşma deyil. Azərbaycanda müxtəlif dinlərin və etnik qrupların nümayəndələri uzun əsrlərdir ki, dinc yanaşı yaşayırlar. Onlar arasında münasibətlər "ilkin" müxtəliflik konsepsiyasında tolerantlıqla müşayiət olunur və multikultural dəyərlərin əsasında dayanır. Bununla yanaşı, Azərbaycan "sonrakı" müxtəliflik konsepsiyasında da multikultural cəmiyyətin formalaşmasında problemlərin olmadığını təsdiq etmişdir. Belə ki, "sonrakı" müxtəlifliyin birgəyaşayışının mümkünsüzlüyünün tamamilə fərqli dəyərlər sistemini təmsil etməsi ilə əlaqədar olması ideyası Azərbaycan nümunəsində öz təsdiqini tapmamışdır. Məlum olduğu kimi, XVIII-XIX əsrlərdə ölkəmizdə bizim dəyərlər sistemindən olduqca fərqli olan müxtəlif sektant rus (malakan, duxabor) və alman koloniyaları məskunlaşmışdır. Bu yeni sakinlər ölkəmizdə hər hansı bir ayrı-seçkiliyə məruz qalmamışlar və onlara qarşı hər zaman tolerant münasibət bəslənmişdir. Keçən tarixi zaman kəsiyi təsdiq etmişdir ki, Azərbaycan "sonrakı" müxtəlifliyi öz dəyərlər sistemində xüsusi yer ayırmaqla qorumuşdur.

Bu isə vətənimizin "ilkin" və "sonrakı" müxtəlifliyin bərabər şərtlər altında birgəyaşayış fəlsəfəsini və multikultural dəyərlər münasibətini ortaya qoyur. Fərqli dəyər sistemi dayışıcılarını qəbul edə bilməyən və bununla da multikultural cəmiyyətin gələcəyinə şübhə ilə yanaşan Avropadan fərqli olaraq Azərbaycanda "ilkin" və "sonrakı" müxtəlifliklərin birgəyaşayışına əsaslanan multikultural dəyərlər böhran yox, intibah yaşayır. Çünki multikulturalizm Azərbaycanda həyat tərzidir.

***Newtimes.az***
***12.07.2016***



## AVROPADA TÜRKOFOBİYA MEYİLLƏRİ YALANÇI DEMOKRATİYA PƏRDƏSİ ALTINDA

Günümüzdə baş verən hadisələr bir daha göstərir ki, Avropa orta əsrlər təfəkküründən irəli gedə bilməyib.

Müasir dövrdə Avropanın modernləşmənin və qloballaşmanın nüvəsi hesab olunmasına baxmayaraq, hadisələr təhlili göstərir ki, bu cür yanaşma yalnız Qərb dəyərlərinin bütün dünyaya vahid şablonlar çərçivəsində tətbiqinə əsaslanır. Hazırda özününkü olmayanların özgə hesab olunması və bu özgələrin müstəqil qərar və seçimlərinə hörmət edilməməsi Avropanın orta əsrlər təfəkküründən doğur. Belə ki, orta əsrlərdə "Qoca qitə" sakinləri yalnız xristian dəyərlərə inanır və bu dəyərlərdən kənar olan heç nəyi qəbul etmirdilər. Avropa "xristianlıq qalası" hesab olunurdu və bu məkanda ən böyük düşmən və ya rəqib kimi müsəlman türkləri görürdülər.

Əsrlər keçsə də, bu təfəkkürün dəyişmədiyini demək mümkündür. Belə ki, son illər yerli əhalisi sürətlə qocalan Avropa ölkələri miqrant axınını öz gələcəkləri üçün əsas çağırış hesab edirlər. Miqrantların əksəriyyətinin müsəlman ölkələrdən olması Avropanı orta əsrlərdə olduğu kimi yenidən İslam dünyası ilə qarşı-qarşıya qoymuşdur. Sadəcə hazırda insan haqları, demok-

ratik dəyərlər, tolerantlıq, dini və etnik dözümlülük kimi prinsipləri özünə şüar edən Avropa xristian olmayanlara münasibətdə bu prinsipləri yaddan çıxarır.

Azərbaycan da müstəqillik illəri ərzində Avropada müəyyən qüvvələr tərəfindən idarə olunan dairələrin əsassız ittihamları ilə qarşılaşır. Ən acınacaqlısı isə odur ki, bir sıra hallarda beynəlxalq və dövlətlərarası münasibətlərdə Avropa təsisatları dövlətlərin suveren hüquqlarına hörmət etmirlər. Hazırkı dünya nizamının, BMT-nin əsas şərti bütün dövlətlərin suveren hüquqlarına qarşılıqlı hörmət olmalıdır. Lakin təəssüf ki, Qərbin özünün yaratdığı bu dünya nizamında bəzən dövlətlərin müstəqil siyasət yeritmək, öz xalqının tələblərinə və istəyinə uyğun yaşamaq hüququna hörmət edilmir. Avropa Şurası Parlament Assambleyasının Türkiyənin yenidən monitorinq altına alınması ilə bağlı qəbul etdiyi qərar də bu qəbildəndir. Həm Türkiyə, həm Azərbaycan dəfələrlə Avropanın yerli xüsusiyyətləri nəzərə almadan vahid şablon standartların tətbiq olunması nəticəsində əsassız ittihamlarla qarşılaşmışlar. Ən narahatedici məqam isə odur ki, Avropa qurumlarının bu tələbləri səslənərkən müstəqil ölkələrin əhalisinin əksəriyyətinin rəyi ümumiyyətlə nəzərə alınmır.

Qeyd etməliyik ki, müstəqil dövlətlərin əhalisinin əksəriyyətinin dəstəklədiyi suveren hüquqlarına hörmət edilməməsi Avropa qurumlarının özünün gələcəyi üçün olduqca aktual çağırışdır. Bir faktı xatırlamaq da yerinə düşər. Bu yaxınlarda Macarıstan hökuməti Budapeştdə fəaliyyət göstərən Corc Sorosa məxsus universitetin bağlanması ilə bağlı qərar qəbul edib. Macarıstan hökumətinin ölkənin milli maraqlarını nəzərə alaraq



qəbul etdiyi bu qərar ölkənin suveren hüququdur və daxili işidir. Bu qərardan sonra Avropanın bütün təsisatlarında qərarın siyasiləşdirilməsi, demokratiyadan geri çəkilmə, insan hüquq və azadlıqlarının qorunması kimi məsələyə aid olmayan geniş bir kampaniya başlanmışdır. Buna suveren dövlətin daxili işlərinə müdaxilədən başqa bir ad vermək mümkün deyil. Belə görünür ki, Avropa xalqlarından etnik mənşə baxımından fərqlənən və son illər öz xalqının istəklərinə uyğun müstəqil siyasət yeridən Macarıstan da özgə dəyər daşıyıcısı kimi qəbul olunur və bütün bu böhtan kampaniyalarının əsasında məhz bu faktor dayanır.

Avropa Şurası Parlament Assambleyasının "Türkiyədə demokratik təsisatların fəaliyyəti" adlı qəbul etdiyi qətnamə də Avropanın türkofobiya düşüncəsindən irəli gəlir. AŞPA-nın insan hüquqları, demokratiya və qanunun aliliyinə hörmətlə bağlı "dərin narahatlıqlar" "qaneedici şəkildə aradan qaldırılmayanadək" Türkiyəyə münasibətdə monitorinq prosedurunu yenidən bərpa etmək qərarı son illər regionda və dünyada güclü müstəqil siyasət yeridən qardaş Türkiyəyə qarşı siyasi təsir aləti və şantaj vasitəsi kimi qiymətləndirilməlidir.

Türkiyəni yenidən monitorinq altına almaqla bağlı qəbul edilən qərarı daha geniş mənzərənin bir hissəsi kimi nəzərdən keçirmək lazımdır. Şübhəsiz, bu qərar həm Avropanın "xristian klubu" anlamında öz daxilində, həm də qonşuları ilə əlaqələrində baş verən proseslərin nəticəsidir. AŞPA-nın bu qərarında son zamanlarda Avropada Türkiyəyə qarşı formalaşmış münasibət aydın şəkildə hiss olunur və bu da əslində həmin qərarın insan hüquqları, demokratiya kimi meyarlar əsasında

deyil, sırf siyasi, hətta deyərdim ki, geosiyasi mülahizələr əsasında qəbul edildiyini göstərir.

Türkiyə 1949-cu ildən Avropa Şurasının üzvüdür və onun yaradıcılarından biridir. Türkiyənin Avropa Şurası ilə dərin əməkdaşlığı çərçivəsində bir çox siyasi islahatlar həyata keçirilib ki, bunun da nəticəsində 2004-cü ildə AŞPA Türkiyənin monitorinq prosedurundan çıxarılması haqda qərar qəbul edib. Eyni zamanda Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu AŞPA-nın prezidenti kimi fəaliyyət göstərib. Əlbəttə ki, bütün bunlar Türkiyənin qurum daxilindəki nüfuzu, onun fəaliyyətinə verdiyi töhfənin göstəriciləridir.

Demokratik standartlara uyğunluq baxımından Türkiyə Avropa ölkələrindən geri qalmır. Əlbəttə, bütün bunlara baxmayaraq, Türkiyənin hələ də Avropa İttifaqına qəbul edilməməsi ayrıca bir mövzudur. Son referenduma gəlincə, 2016-cı ilin iyul ayında baş vermiş dövlət çevrilişi cəhdi və eyni zamanda terror hücumlarının artması Türkiyə dövlətçiliyinin və suverenliyinin müdafiəsi, əhalinin təhlükəsizliyinin təmin edilməsi baxımından bir sıra addımların atılmasını zəruri edirdi. Belə bir şəraitdə, əhalinin istəyinə uyğun olaraq, dövlətin gələcək inkişaf yolunu müəyyən edən referendumun ən yüksək səviyyədə təşkili Türkiyə hakimiyyətinin demokratik ənənələrə sadiqliyinin sübutudur. Türkiyənin terrorçu kimi qəbul etdiyi şəxslərə "siyasi mühacir" statusu verən Avropa ölkələrinin bu məsələyə münasibəti isə ciddi suallar doğurur. Maraqlıdır ki, bir müddət əvvəl işğalçı Ermənistanda total korrupsiya və ciddi seçki pozuntuları şəraitində keçirilmiş parlament seçkilərində açıq-aşkar saxtakarlıq və qayda pozuntuları olsa da, Avropa qurumları belə sərt qərarlar qəbul etmədilər.



Beləliklə, fikrimizcə, Avropada türkofobiya meyilləri yalançı demokratiya pərdəsi altında gizlədilir. Avropa insan hüquqları, demokratiya kimi məsələlərdə standartları müəyyən etmək, digərlərini qiymətləndirmək hüququnu artıq itirib. Öz daxilində ultramillətçilik, şovinizm, islamofobiya kimi meyillərə qarşı mübarizə aparmaqda çətinlik çəkən, müxtəlif maraqlar çərçivəsində ayrı-ayrı ölkələrə fərqli yanaşan, ikili standartları rəhbər tutan Avropa bu məsələlərdə rəy vermək səlahiyyətinə malik olmamalıdır. Avropa dünyanı özününkü və özgələrə böldükcə bəşəriyyət daim böyük təhdidlər və problemlərlə üzləşəcəkdir. Hazırda Türkiyəyə qarşı Avropa qurumlarının bu yanaşması qərəzlidir və Azərbaycan qardaş Türkiyənin bu ədalət mübarizəsində daim yanındadır.

***Newtimes.az***
***04.28.2017***

## XOCALI SOYQIRIMI – TÜRKOFOBİYANIN BARİZ TƏZAHÜRÜ

Tarixdə XX əsr bir sıra ümumbəşəri xarakter daşıyan cinayət, təhdid və çağırışların ortaya çıxması ilə əlamətdar olmuşdur. Belə ki, məhz bu yüz ildə dünya faşizm, rasizm, ksenofobiya, aparteid, genosid, beynəlxalq terrorizm və ən nəhayət fərqli dəyərlərin qəbuledilməzliyi üzərində qurulan müxtəlif fobiyalarla, o cümlədən günümüzdə olduqca aktual olan İslamofobiya və Türkofobiya ilə daha yaxından qarşılaşmalı oldu. Keçən əsr iki dünya müharibəsi, milyonlarla insan ölümü və müharibənin yekunu olaraq atom bombasının tətbiqi ilə tarixə yazıldı. XX əsr milli, dini, irqi ayrı-seçkiliklərin təzahürünün ən kəskin formada əks olunduğu tarixi dövrlərdən biridir. Bəşəriyyət əleyhinə cinayətlər milyonlarla insanın həlak olması, milli, dini, etnik müstəvidə fobiyaların hakim olduğu bir dünya nizamının yaranmasına gətirib çıxarmışdır. Çox təəssüflə qeyd etməliyik ki, bəşəriyyəti sınaq qarşısında qoyan bütün bu hadisələr dünyada örnək qəbul edilən Qərb dünyasının, Avropanın adı ilə bağlıdır.

Məlumdur ki, beynəlxalq müstəvidə ilk dəfə yalnız ikinci dünya müharibəsindən sonra sülh və bəşəriyyət



əleyhinə cinayətlərdə təqsirli bilinənlərin cəzalandırılması ilə bağlı konkret addımlar atılmağa başlanmışdır. Bununla da dünya ictimaiyyəti faşizmin, rasizmin bəlalarında qurtulmağa, qlobal problemlərin sülh yolu ilə həllinə ümidlənmişdi. Lakin keçən əsrin sonlarında, yeni minillikdə baş verən proseslər onu göstərdi ki, tarixdən lazımi dərs çıxarılmamışdır. Müxtəlif ölkələrdə hələ də dini, milli, etnik ayrı-seçkilik dövlət siyasəti səviyyəsindədir. Son dövrlərin ən böyük reallığı, ən mühüm çağırışlardan biri isə Qərbdə artan İslamofobiya və Türkofobiyadır.

Qərbin Yaxın və Orta Şərqin siyasi arxitekturasını yenidən qurmaq cəhdləri nəticəsində günümüzdə qlobal səviyyədə ən böyük çağırışlardan biri miqrantlarla bağlıdır. Lakin təəssüf ki, Qərbdə istər siyasi, istərsə akademik dairələrdə və vətəndaş cəmiyyətində miqrantlara münasibətdə də ikili standartlar tətbiq olunur, müsəlman miqrant axınına Qərbin gələcəyinə və dəyərlər sisteminə təhdid kimi baxılır. Son 15-20 ildə Qərb mətbuatında müsəlman ölkələrdən gələnlərin az qala potensial günahkar olaraq göstərilməsi təsadüfi deyildir. Hazırda müşahidə olunan anti-miqrant siyasət bir daha sübut edir ki, Qərbdə demokratiya yalnız özünün maraqlarına xidmət etdikdə yaxşı qəbul olunur. Avropa dövlətlərinin bir sıra rəsmiləri "Stop İslam" deyirlər. Bəziləri isə bildirirlər ki, biz miqrantları qəbul etməyə hazırıq, ancaq müsəlmanları yox. Bu isə bütün dünyada ədalətli yanaşmaya olan inamı azaldır, müxtəlif radikal qüvvələrin sui-istifadəsinə yol açır.

Hazırda Qərbin gündəlik həyatında əsas trendlərdən olan İslamofobiya və Türkofobiyanın ən dəhşətli

təzahürü keçən əsrin sonlarında Azərbaycana münasibətdə özünü göstərmişdir. 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri tərəfindən Azərbaycanın Qarabağ bölgəsində Xocalı şəhərində törədilmiş soyqırımı dünyada Türkofobiyanın, türk düşmənçiliyinin ən bariz nümunəsidir. Xocalıda Azərbaycan türkləri ilə yanaşı bu şəhərdə yaşayan məshəti türklərinin də məhv edilməsinin tək bir səbəbi olmuşdur – türk olmaları.

Xocalı soyqırımı türk düşmənçiliyinin nəticəsi olmaqla bərabər, həm də erməni terrorizminin növbəti qurbanıdır. "Erməni terroru" bir anlayış olaraq müasir tədqiqatlarda ilk dəfə ABŞ-da Dövlət Departamentinin Diplomatik Təhlükəsizlik Bürosunun əməkdaşı Andrew Corsun tərəfindən işlədilmişdir [1]. Ümumbəşəri cinayət olan terrorun dünyada hər hansı bir xalqın adı ilə çəkildiyi yeganə hal "erməni terroru"dur. Çünki bir neçə əsrdir ermənilər tərəfindən sistemli şəkildə müxtəlif ölkələrdə siyasi məqsədlərinə nail olmaq üçün terror aktları həyata keçirilir. Osmanlı imperiyasında, Çar Rusiyasında, Sovetlər İttifaqında, Gürcüstanda, Azərbaycanda ermənilər terror törətmiş, Yaxın Şərqə bütün beynəlxalq terror təşkilatları ilə sıx əlaqədə olmuşlar.

Soyqırımına məruz qalan Xocalı sakinləri də erməni terrorunun qurbanıdırlar. Bu vəhşiliyin, insanlığa ləkə gətirən qəddarlığın törədilməsində ASALA erməni terror təşkilatının, Livandan və Yaxın Şərqin digər ölkələrindən radikal erməni terroristlərindən təşkil olunmuş "Arabo" terror dəstəsinin üzvləri xüsusilə fəallıq göstərmişlər. Ermənistanda hazırda hakimiyyətdə olan hərbi xunta nümayəndələri də həmin gecə şəxsən Xocalıda olmuşlar. Başda Serj Sarkisyan olmaqla bu hərbi xunta Xocalıda qətliam törətmələrini etiraf edir, hətta törətdikləri vəhşiliklə fəxr edirlər. Xocalı soyqırımı müasir mərhələdə türk düşmənçiliyinin ifrat təzahürü olmaqla bərabər, bəşər tarixində ən dəhşətli vandalizm aktlarından biridir.



Bu yerdə qeyd etməliyik ki, böyük dövlətlərin dəstəklədiyi və ermənilərdən maşa kimi istifadə olunan Türkofob hadisələr yenilik deyil, tarixən təkrarlanmış, artıb-azalmışdır. XX əsrin əvvəllərində də müxtəlif xarici qüvvələrin müdafiə və himayə etdiyi ermənilər regionda qırğınlar törətmişlər. 1905-1907-ci illərdə və 1918-ci ildə silahlı erməni dəstələri Azərbaycanın müxtəlif regionlarında – Bakıda, Qubada, Naxçıvanda, Şamaxıda, Zəngəzurda, Gürcüstanda – Borçalı və Axalkalaki bölgələrində, Şərqi Anadoluda yerli türk-müsəlman əhaliyə qarşı olmazın vəhşiliklər törətmişlər. Təəssüf ki, dünyada ədalətsizliklərin cəzasız qalması, üzləşdiyimiz ikili standartlar belə faciələrin təkrarlanmasına yol açmışdır.

Keçən dövr ərzində Azərbaycan bu soyqırımının dünya miqyasında tanıdılması üçün davamlı iş aparır. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyi altında "Xocalıya Ədalət" kompaniyası dünyanın müxtəlif ölkələrində Azərbaycanın haqq səsinin eşidilməsinə çalışır. Artıq 12 ölkənin parlamentində müxtəlif səviyyələrdə Xocalı soyqırımının tanıdılması ilə bağlı qətnamə və bəyanatlar qəbul olunmuşdur. 2011-ci ildə Meksika, 2012-ci ildə Pakistan, Kolumbiya, 2013-cü ildə Çex Respublikası, Bosniya və Herseqovina,

Peru, Panama, İordaniya, 2014-cü ildə Sudan və Honduras, 2015-ci ildə Qvatemala, 2017-ci ildə Cibuti parlamentlərində müvafiq qərarlar qəbul edilmişdir [2]. İslam Əməkdaşlıq Təşkilatında Xocalı soyqırımı rəsmi olaraq tanınmışdır.

*Newtimes.az*
*23.02.2017*



## MULTİKULTURAL MÜHİTDƏ "DOĞMA" VƏ "ÖZGƏ" ANLAYIŞI

Beynəlxalq aləmdə və ölkə içində cəmiyyət daxilində qloballaşma proseslərinin təsiri altında baş verən transformasiyalar müasir dövrümüzün ən mühüm çağırışlarındandır. Qloballaşma universal dəyərlər, multikultural mühit, fərqliliklərə dözümlü yanaşma, proses və hadisələrin astronomik sürəti ilə səciyyələnir. Bu baxımdan qlobal müstəvidə yeni dünya nizamında da qeyd etdiyimiz məqamlar öz əksini tapmaya bilməz. Liberal dünya quruluşu tərəfdarları bütün dünyada universal dəyərlərin, həm də yalnız Qərbin qəbul etdiyi vahid universal dəyərlərin cəmiyyətin və beynəlxalq münasibətlər sisteminin əsasında dayanmalı olduğunu təbliğ edirlər. Əslində yalnız Qərbin qəbul etdiyi dəyərlərin universal adlandırılmasının özü-özlüyündə ümumbəşəri xarakter daşıya bilməsi və bütün dünyaya aid edilməsi doğru yanaşma deyil. Necə ola bilər ki, 1 milyarddan çox əhalinin qəbul etdiyi ailə kodeksi və ya hər hansı bir başqa dəyər Qərbin yanaşmasında Çinə məxsus stereotip kimi qəbul edilir. Eləcə də Hind sivilizasiyasının, Türk dünyasının, İslam aləminin dəyərlərinin Qərbdə sadəcə onların özlərinə aid deyil, özgə olduğuna görə qəbuledilməzliyi həm qlobal miqyasda dünya

nizamına, həm də hər bir cəmiyyətin öz daxilində yeni təhdid və çağırışların yaranmasına gətirib çıxarır. Sivilizasiyaların toqquşması, fərqliliklərə dözümsüzlük, ikili-standartlar, müxtəlif dini, irqi, etnik fobiyalar və bütün bunların təsiri altında ədalət axtarışı adı altında radikal dini və ultra-milliyyətçi meyillərin yaranmasının kökünü bu yanaşmada axtarmaq lazımdır.

Sovetlər İttifaqının və sosialist düşərgəsinin çöküşündən sonra beynəlxalq münasibətlər sisteminin yeni arxitekturası yaradılarkən lider dövlətlər dünyanı "özününkü" və "özgələrə", "biz" və "siz"lərə böldülər. Yeni arxitekturada isə özgələrin nə dəyərlərinə, nə də hüquqlarına yer verilmədi. Birqütblü dünya modeli yaratmağa çalışarkən Qərb dünyanın bütün ölkələrini maraqlandıra biləcək alternativ yanaşma təklif etmədi. Dünya nizamının yalnız Qərb dəyərlərinə əsaslanması qlobal müstəvidə sabit beynəlxalq münasibətlərə başlıca maneə oldu, bəşəriyyət üçün təhlükəli təhdid və çağırışlar ortaya çıxdı və nəticədə liberal dünyanın süqutu haqqında danışılmağa başlandı.

Günümüzdə baş verən hadisələr bir daha təsdiq edir ki, yeni dünya nizamı qurmaq üçün köhnə dünya nizamının dərslərindən nəticə çıxarmaq və beynəlxalq münasibətlər sisteminin bütün üzvlərini təmin etməli olan əsas prinsipləri müəyyənləşdirmək lazım idi. Lakin təəssüf ki, yeni düzən təkbaşına, beynəlxalq birliyin digər üzvlərinin rəyini, beynəlxalq münasibətlərin mövcud vəziyyətini nəzərə almadan formalaşdırılmağa başlandı. Müasir dövrdə liberal dünya nizamının əsas ideoloqlarından olan Robert Kagan üçüncü minillikdə mövcud dünya nizamına ən əsas təhdidlər sırasında milliy-



yətçiliyin artması, kapitalist sisteminə, demokratiyaya inamın itirilməsi ilə yanaşı, bütün cəmiyyətlərin daxilində "özgə"lərin fərqləndirilməsinin artmasını da göstərir. Yəni Qərb dünyasının ideoloqları da cəmiyyətlərin "doğma" və "özgələrə", "biz" və "siz"lərə bölünməsini, qütbləşməsini son nəticədə dünya nizamının yerini tuta bilməməsinin əsas səbəblərindən biri hesab edirlər. Lakin eyni zamanda bu bölünmənin, qütbləşmənin qarşısını almaq üçün beynəlxalq birliyin bütün üzvlərinin dəyər və hüquqlarına hörmət etmək və qəbul etmək əvəzinə liberal hesab etdikləri dəyərləri bütün dünyaya vahid qəlibdə qəbul etdirməyə çalışmaqda davam edirlər. Bu cür yanaşma isə ümumbəşəri ola biləcək dəyərin, modelin və ya sistemin mövcudluğunu və gələcəyini şübhə altına qoyur.

Qeyd etdiyimiz məqamlar multikultural mühitin və onun yayılma arealının çərçivəsini daraldır, cəmiyyətin doğma və özgələrə bölünməsini şərtləndirir. Yeni minillikdə baş verən hadisələr göstərir ki, yalnız Qərb dəyərlərinə əsaslanan universal dəyərlərin qəbul etdirilməsi cəhdi dünyada böyük müqavimətlə qarşılanır və belə olan halda multikultural mühitin ümumbəşəri deyil, yalnız lokal və ya regional xarakter daşıya bilməsi özünü doğruldur. Buna görə də, multikultural dəyərlərin universallığından danışmaq ehtiyatlı yanaşma tələb edir. Daha doğrusu multikultural mühitin qlobal yayılma arealını əhatə edə bilməsi mümkünsüz görünür. Məlum faktdır ki, multikultural mühitin mövcudluğu üçün müxtəlif fərqliliklərə tolerant yanaşma başlıca şərtdir. Özününkü olmayanlara münasibətdə tolerant yanaşmanın qlobal müstəvidə bərqərar olması isə

müasir dövrdə baş verən hadisələrin işığında real görünmür. Əksinə irqi, dini, etnik fobiya və seqreqasiyalar cəmiyyətlərin daxilində və daha böyük mənada dünya nizamında qütbləşməni və qruplaşmanı şərtləndirir.

Qloballaşma proseslərinin təsiri altında ölkələrarası miqrasiyanın intensiv xarakter daşıması və miqrant axınının daha çox zəngin ölkələrə doğru yönəlməsi isə ilk növbədə Qərbdə multikultural mühitin dayaqlarına zərbə vurur. Qərb ölkələrinin ucuz işçi qüvvəsini mexaniki olaraq qəbul etməsi və yeni gələnlərin vahid, heç bir milli-mədəni-dini xüsusiyyətlərini nəzərə almayan universal dəyərləri qəbul etməsi üzərində qurulan yanaşma özünü doğrultmur. Bu yanaşma əmək miqrantlarının Qərb mühitinə uyğunlaşdırılmasından çox təcrid olunmasına yönəlmişdir. Avropada yeni sakinlərə sanki "istismar müddəti" başa çatdıqdan sonra geri qayıtmalı olan miqrantlar kimi baxılırdı. "Qoca qitə" sakinlərinin əksər qonşularının müsəlman olması ilk növbədə dini dözümlülük yanaşmasını ortaya çıxarır.

Din məsələsində isə tarixən Qərb sivilizasiyasının xristianlıqdan başqa digər dini daşıyıcıları özününkü qəbul etməsinə rast gəlinməmişdir. Qərbdə hətta musəviliyin də "özgə" hesab edilməsi nəticəsində yəhudilərə qarşı soyqırımı və anti-semitizm meyillərinə tarix şahidlik etmişdir. İslam dininə qarşı isə Qərbdə tarixən formalaşmış yanaşma tarixi zaman kəsiyində dəyişməmişdir. Türkiyəli alim İbrahim Kalın Qərb-İslam münasibətlərində bu ziddiyyətlərin əsasında dayanan səbəbləri 3 mühüm faktorla əlaqələndirir. Onun fikrincə, "Xristian dünyası İslamı ilk əvvəl dini-



teolojik bir meydan oxuma, sonra siyasi meydan oxuma və ən nəhayət mədəni təhdid olaraq qiymətləndirdi". Yəni Qərb İslamı öz dəyərlərinə dini-siyasi-mədəni təhdid olaraq gördüyündən münasibətlərdə harmoniya çətin görünür.

Halbuki Avropa müsəlman hakimiyyəti və islam dininin təsiri altında dinc birgəyaşayışın mümkünlüyünə tarixdə rast gəlinmişdir. Belə ki, VIII əsrin əvvəllərində Əməvilərin İspaniyanı ələ keçirməsindən 1492-ci ildə yəhudilərin İberiya yarımadasından qovulmasınadək olan dövrü buna misal çəkmək olar. Tarixdə "Convivencia" adlanan həmin dövrdə İspaniyada Kordova xilafətində müsəlman, xristian və yəhudilər sülh şəraitində yanaşı yaşamışlar. Bu "Qoca qitə"də çox nadir nümunələrdəndir ki, siyasi iradə olduğu halda din amilinin cəmiyyəti doğma və özgələrə ayırmadığına rast gəlinmişdir.

Beləliklə, tarixi faktorlarla yanaşı iqtisadi və sosial rifah fərqi nəticəsində kasıb müsəlman ölkələrindən zəngin Avropaya miqrasiya axını Qərb cəmiyyətinin "doğma" və "özgə"lərə bölünməsini daha da kəskinləşdirmişdir. Yeni minillikdə dünyada iqtisadi böhranın təsiri ilə Avropanın aparıcı ölkələrinin rəhbərləri multikulturalizmin böhran yaşaması ilə bağlı fikirlər bildirdilər və Qərblə eyni dəyərləri, xüsusilə də dini dəyərləri bölüşməyənləri Avropada istəmədiklərini açıq elan etdilər. Bu isə Qərbdə multikultural mühitin tənəzzül yaşadığını və hətta öz regional arealında belə dözümsüzlüklə müşahidə olunmasının göstəricisidir. Bu mənada hazırda Avropa ölkələrinin əhali strukturunda miqrantların nisbətinin 10-30% olduğunu nəzərə aldıq-

da Avropada multikultural mühitin yeknəsaq olmadığı ortaya çıxır və onun əhatə dairəsinin sərhədlərini müəyyənləşdirmək çətin görünür.

Qeyd etməliyik ki, artıq Qərbdə də "özününkü olmayanların inkar edilməsinə" yönəlmiş yanaşmanın özünü doğrultmadığını səsləndirirlər. Belə ki, biz keçən onillikdə əksər Avropa ölkələrinin liderlərinin yalnız Qərb dəyərlərinə əsaslanan həyat tərzini model kimi qəbul etməsinin və bunun əksini multiluturalizmin böhranı kimi qiymətləndirməsinin artıq şahidi olmuşuq. Qlobal miqyasda baş verən hadisələr göstərir ki, bu cür yanaşma özünü doğrultmadı. Belə yanaşma, xüsusilə də dini zəmində ciddi qarşıdurma və ziddiyyətlərə yol açır. Bu mənada artıq Qərbin aparıcı dövləti ABŞ Prezidentinin səsləndirdiyi fikirlər yeni yanaşmanın təzahürüdür. 2017-ci ilin may ayının 21-də Ər-Riyadda keçirilmiş Ərəb-İslam-Amerika sammitində Prezident Donald Tramp bildirdi ki, "mən inauqurasiya müraciətimdə Amerika xalqına söz vermişəm ki, Amerika bizim həyat tərzimizi başqalarına qəbul etdirməyə çalışmayacaq". Bu artıq yalnız bir mədəniyyətə söykənən dəyərlərin qlobal miqyasda zorla qəbul etdirilməsinə yönəlmiş yanaşmanın özünü doğrultmadığının bariz nümunəsidir. Bu mənada Avropa ölkələrinin liderlərinin iddia etdiyi kimi multikulturalizm iflasa uğramayıb, sadəcə Qərbin "öz" dəyərlərinin "özgələrə" zorla qəbul etdirməsinə əsaslanan yanaşması iflasa uğrayıb.

Multikulturalizmin iflası ilə bağlı Qərbdə səslənən bəyanatların yalnız siyasi məqsədlərə xidmət etdiyini bildirmək lazımdır. Qərbdə siyasi liderlərin, akademik dairələrin multikulturalizmin iflasa uğraması ilə bağlı



iddialarını bütün dünyaya şamil etmək doğru deyil. Birincisi, Avropada yalnız Qərb dəyərlərinin dominantlığına əsaslanan yeknəsəq mozaik quruluşun çoxmədəniyyətlilik adlandırılması əvvəlcədən süquta məhkum idi. Ona görə bu mozaik quruluşun iflası heç də multikulturalizmin iflası deyil. İkincisi, çoxmədəniyyətliliyin formalaşmasında "ilkin" və "sonrakı" müxtəlifliyin cəmiyyətə təsiri nəzərə alınmalıdır. Müşahidələr göstərir ki, "ilkin müxtəliflik" çərçivəsində belə hətta uzun əsrlər boyu davam edən birgəyaşayış heç də hər yerdə çoxmədəniyyətliliyə çevrilə bilmir. Bu, ilk növbədə, fərqli milli və ya dini identikliklərin yaşam tərzlərindən asılı olaraq dəyişir.

Buna görə də, birgəyaşayışa çoxmədəniyyətliliyi formalaşdıran əsas faktor kimi baxılması doğru deyil və "sonrakı müxtəliflik" çərçivəsində Avropanın timsalında bu tezisin özünü doğrultmadığına şahidlik edirik. Yəni Avropada miqrant axını nəticəsində artıq yerli əhaliyə çevrilmiş müsəlmanların yalnız klassik Qərb dəyərləri əsasında multikulturalizm ideologiyası altında birləşdirilməsi mümkünsüz görünür. Yalnız Qərbsayağı multikultural dəyərlərin iflası ümumilikdə multikulturalizmin böhran yaşamı anlamına gəlməməlidir. Fərq multikulturalizmə siyasi alət yoxsa həyat tərzi olaraq baxılmasındadır. Multikulturalizmi həyat tərzi olaraq qəbul edən Azərbaycan kimi ölkələrdə multikultural mühitin yalnız çiçəklənməsindən və davamlılığından danışmaq olar.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bildirdiyi kimi, "Azərbaycan nümunəsi göstərir ki, multikulturalizm yaşayır. Baxmayaraq bəzi siyasət-

çilər deyirlər ki, multikulturalizm iflasa uğrayıb. Bəlkə haradasa iflasa uğrayıb. Amma Azərbaycanda yaşayır və bu meyillər, bu ideyalar güclənir, ictimaiyyətdən də daha çox dəstək alır. Biz bu yolla gedəcəyik".

Beləliklə, müasir dövrün ən mühüm çağırışlarından biri beynəlxalq müstəvidə və cəmiyyət daxili münasibətlərdə doğma və özgələrə bölgüyə əsaslanan yanaşmanın mövcudluğudur. Çox təəssüf ki, bu cür yanaşma özünü ilk növbədə dini müstəvidə göstərir. Bu həm İslam-Xristian kontekstində, həm də İslam daxilində şiə-sünni, Xristianlıqda katolik-protestant və ya pravoslav münasibətlərində özünü göstərir. Dini kimlik milli kimliyin üzərində olduğundan hətta eyni etnik soy-kök daşıyıcıları arasında belə "doğma" və "özgə" yanaşmasına rast gəlinir. Müasir dövrdə Balkan ölkələrində, eləcə də ərəb ölkələrində bununla əlaqədar baş verən hadisələrə də bu prizmadan yanaşmaq lazımdır.

Multikultural mühitin formalaşmasında cəmiyyətin özününkü və özgələrə bölünməsi həlledici rol oynayır. Bu baxımdan Azərbaycan daxildə bütün fərqli dəyər daşıyıcılarını Azərbaycançılıq fəlsəfəsi ətrafında birləşərək çoxmədəniyyətli ölkə nümunəsi yarada bilmişdir. Azərbaycanda tarixən müxtəlif dinlərin və mədəniyyətlərin daşıyıcıları birgə yaşamışlar və bu, Azərbaycan cəmiyyətinin zənginliyinə səbəb olmuşdur. Azərbaycan xristianların da, yəhudilərin də uzun əsrlərdir birgə yaşadığı müsəlman ölkəsidir. Eyni zamanda İslam aləmində müxtəlif məzhəblərin qarşılıqlı hörmət şəraitində, dinc, yanaşı yaşadığı məkandır Azərbaycan. Bakıda "Heydər məscidi"ndə islam dininin müxtəlif cərəyanlarının təmsilçilərinin bir yerdə vəhdət namazı qılması



Azərbaycandan İslam dünyasına göndərilən ən güclü həmrəylik mesajıdır. Fərqli dəyər daşıyıcılarının qarşılıqlı hörmət əsasında birgəyaşayışına əsaslanan multikulturalizm ölkəmizdə həyat tərzi kimi qəbul olunur. Azərbaycanda birgəyaşayış fəlsəfəsi fərqliliklərin uğurlu tandeminə əsaslanır.

***Newtimes.az***
***3 iyul 2017***

## BƏLƏDÇİ

### *MÜSTƏQİL AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ – 25*

Azərbaycanın xarici siyasəti müstəqilliyin bərpasının 25 ilində....5
Azərbaycanın xarici siyasətinin yeni üfüqləri....15
Azərbaycan Respublikasının xarici siyasətinin 25 ili Strateji Araşdırmalar Mərkəzinin tədqiqatında....23
"Azərbaycan-Gürcüstan-Türkiyə" – uğurlu üçtərəfli əməkdaşlığı əsrin dörddə biri müstəvisində....31
Xarici siyasətin yeni mərhələsi: reallıqlar və perspektivlər....38
İslam həmrəyliyi: həmrəyliyin təntənəsi....44
"Sinxua" agentliyinə müsahibə....51

### *GEOSİYASİ MƏNZƏRƏNİN REALLIQLARI*

Azərbaycanın qonşuları: geosiyasi mənzərə....55
Dünya Çempionatının siyasi cizgiləri....66
Xristianlıqda "Beşinci Kolon" konteksti....71
Həmsədrlərin danışıqları inhisara almasına qarşı alternativlər....77
Beynəlxalq təşkilatlar və vasitəçilər nəyin yanındadır – ədalətin, yoxsa işğalın?....80
ATƏT-in Cənubi Qafqaz ölkələrindəki nümayəndəliklərinə verilən qiymət hansı meyarlara əsaslanır....84



### *SİVİLİZASİYA – YENİ MƏRHƏLƏDƏ*

Çin – dünya sivilizasiyasından geosiyasi arenaya....90
Avropanın sivilizasiya böhranı....98
Qərbdə radikallaşma meyillərinin dünya nizamına təsiri....104
Sivilizasiya anlayışı və ikili standartlar meyarı....112
Naxçıvandan dünyaya....115

### *MULTİKULTURALİZM*

Multikultural dəyərlər – ilkin və sonrakı müxtəliflik prizmasında....126
Avropada türkofobiya meyilləri yalançı demokratiya pərdəsi altında....139
Xocalı Soyqırımı – türkofobiyanın bariz təzahürü....144
Multikultural mühitdə "doğma" və "özgə" anlayışı....149

"Elm və təhsil" nəşriyyatının direktoru:
**professor Nadir MƏMMƏDLİ**

Çapa imzalanıb: 26/07/2017. Formatı: 60x84 $^1/_{16}$
Approved to the print: 26/07/2017. Format: 60x84 $^1/_{16}$
Подписано к печати: 26/07/2017. Формат: 60x84 $^1/_{16}$

Tirajı 300 nüsxə. Həcmi: 10 ç.v.
Edition 300 copy. Size: 10 p.p.
Тираж 300 экземпляров. Том: 10 п.л.

"Elm və təhsil" nəşriyyatında çap olunub.
Printed in "Science and education" publishing house
Напечатано в издательстве "Наука и образование"